AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
**XƏZƏR UNİVERSİTETİ**

**TƏBİƏT ELMLƏRİ, SƏNƏT VƏ TEXNOLOGİYA YÜKSƏK TƏHSİL**

**FAKÜLTƏSİNİN MAGİSTRANTI**

**ƏSƏDOVA NƏZRİN ŞAHİN**
**QIZININ**
**MAGİSTR DƏRƏCƏSİ ALMAQ ÜÇÜN**

# “4-CÜ SİNİF "AZƏRBAYCAN DİLİ" DƏRSLİYİNDƏKİ MƏTN VƏ TAPŞIRIQLARIN PİRLS BEYNƏLXALQ QİYMƏTLƏNDİRMƏ TƏDQİQATINDA NƏZƏRDƏ TUTULAN OXU BACARIQLARINI FORMALAŞDIRMASI BAXIMINDAN TƏHLİLİ”

**MÖVZUSUNDA**

**DİSSERTASİYA İŞİ**

**Elmi rəhbər: Fil.f.fel.dok.dos. Elza Səmədova**

***BAKI – 2021***

# REFERAT

Dissertasiya “4-cü sinif “Azərbaycan dili” dərsliyindəki mətn və tapşırıqların PİRLS beynəlxalq qiymətləndirmə tədqiqatında nəzərdə tutulan oxu bacarıqlarını formalaşdırması baxımından təhlili” mövzusunda yazılmışdır. Oxu bacarığı, yaşadığımız bu informasiya dövründə özümüzü inkişaf etditmək, biliklər qazanmaq və ətrafımızda baş verənlər barədə öyrənmək üçün olduqca vacibdir. Bu səbəbdən də, dünyanın ayrı-ayrı ölkələrindəki şagirdlərin oxu savadlılığını ölçmək üçün beynəlxalq qiymətlndirmə proqramı – PİRLS təşkil edilmişdir.

Dissertasiya işinin birinci fəsilində PİRLS beynəlxalq oxu bacarığının qiymətləndirilməsi tədqiqatı haqqında – strukturu, xüsusiyyətləri, oxu savadlılığına dair standartlar və meyarlar və s. ətraflı məlumat verilmişdir.

İkinci fəsildə dördüncü sinif “Azərbaycan dili” dərsliyindəki mətn və tapşırıqların PİRLS tədqiqatının səviyyələri baxımından təhlili aparılmışdır.

# ABSTRACT

The dissertation is written on the topic "Analysis of the text and assignments in the 4th grade textbook “Azerbaijani language” in terms of the formation of reading skills in the PIRLS international assessment study ". Reading skills are very important for us to develop ourselves, gain knowledge and learn about what is happening around us in this information age. For this reason, an international assessment program - PIRLS - has been established to measure the reading literacy of students in different countries around the world.

The first chapter of the dissertation deals with the study of PIRLS international reading skills assessment - structure, features, requirements to the reader, etc. detailed information is given.

İn the second chapter the texts and tasks in the fourth grade textbook "Azerbaijani language" were analyzed in terms of the levels of PIRLS research.

## MÜNDƏRİCAT

**GİRİŞ ........................................................................................ 6**

**I Fəsil. PİRLS beynəlxalq qiymətləndirmə tədqiqatının məqsədləri və Azərbaycan təhsil sistemi üçün əhəmiyyəti ..................................................10**

1.1. Beynəlxalq qiymətləndirmə tədqiqatı haqqında ümumi məlumat və əsas anlayışlar ..........................................................................................10

1.2. PIRLS-in məqsədi ..............................................................................14

1.3. PIRLS-in əsas xüsusiyyətləri ..................................................................18

1.4. PİRLS-in strukturu ..............................................................................21

1.5. PİRLS-də oxunun məqsədlərinə görə səviyyələr üzrə meyarlar .....................24

1.6. Azərbaycanlı şagirdlərin PİRLS imtahanlarından əldə etdikləri nəticələr ......28

1.6.1. PİRLS-dəki mətn və tapşırıqlar ..............................................................31

**II Fəsil. 4-cü sinif Azərbaycan dili dərsliyində verilmiş mətn və tapşırıqların PİRLS tədqiqatının səviyyələri baxımından təhlil olunması ..........................42**

2.1. Dərslikdəki mətn və tapşırıqların PİRLS-dəki mətn və tapşırıqların səviyyəsinə uyğunluğu ...........................................................................................42

2.1.1. Məzmun standartlarının PİRLS-lə uyğunluğu ...........................................43

2.1.2. Dərslikdəki mətn və tapşırıqların PİRLS tədqiqatının məzmunu ilə müqayisəli təhlili ..................................................................................50

**NƏTİCƏ ...................................................................................112**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT ..........................................................115**

## ABBREVIATURA

1. **PİRLS** – Progress in İnternational Reading Literacy Study – Oxu bacarıqlarının inkişafı ilə bağlı beynəlxalq tədqiqat
2. **İEA** – International Association for the Evaluation of Educational Achievement – Beynəlxalq Təhsil Nailiyyətinin Qiymətləndirilməsi Assossiasiyası
3. **PİSA** – Programme for International Student Assessment – Beynəlxalq tələbə qiymətləndirmə proqramı
4. **TİMSS** – Trends in International Mathematics and Science Study – Riyaziyyat və təbiət elmləri üzrə beynəlxalq qiymətləndirmə proqramı

## GİRİŞ

**Mövzunun aktuallığı.** Keyfiyyətli təhsil hər bir cəmiyyətin inkişafına, tərəqqisinə yol açır. Qloballaşan, inkişaf edən dünyada hər bir kəs uğur qazanmaq üçün dövrün tələblərinə uyğun olaraq öz biliklərini, dünya görüşünü və eləcə də sahib olduqları bacarıqlarını daim inkişaf etdirməyə çalışır. Ayrı-ayrı ölkələrdə bu bacarıqların inkişafını izləmək üçün ötən əsrin ortalarında beynəlxalq qiymətləndirmə tədqiqatlarının həyata keçirilməsinə başlanmışdır. Bu tədqiqatlarla müxtəlif ölkələrin təhsil sistemlərində ortaq göstəricilər müqayisə edilərək, onların beynəlxalq bazarın tələblərinə nə dərəcədə cavab vermələri müəyyən edilir.

Beynəlxalq qiymətləndirmələr bir neçə istiqamətdə aparılaraq yetkinlik yaşlı şagirdlərin fənn kurikulumlarında nəzərdə tutulan bilikləri (riyazi savad, təbiət elmləri üzrə savad və oxu savadı) hansı səviyyədə mənimsədikləri deyil, müasir informasiya cəmiyyətində qarşılaşdıqları məsələlərin həllində əldə etdikləri bacarıqlardan istifadə edə bilmə qabiliyyətini ölçmək məqsədi daşıyır.

Ümumiyyətlə, ümumtəhsil sistemində təhsil siyasətinin, təhsilin keyfiyyətinin ölçülməsinə yönəlik Azərbaycanın istirak etdiyi üç başlıca beynəlxalq qiymətləndirmə proqramı vardır ki, bunlar PIRLS, TIMSS və PİSA proqramlarıdır. Azərbaycan 2006 və 2009-cu illərdə PİSA, 2011, 2016-cı illərdə isə PİRLS proqramlarına qatılmışdır.

Beynəlxalq qiymətləndirmələrdə ölçülən bacarıqlardan biri oxu və oxuduğunu anlama bacarığıdır. Oxu – insanın anadangəlmə əldə etdiyi bacarıqları sırasına daxil olmayıb, sonradan təhsil prosesində formalaşdırılan bacarıq və sosial tələbatlardan biri olub, onun dünyagörüşünə və kommunikasiya və koqnitiv (idrak) bacarıqlarına bilvasitə təsir göstərən fəaliyyət növüdür. Oxuyub anlama prosesində şagirdlərə yalnız intonasiyalı və sürətli oxu bacarıqları deyil, eləcə də qavrama, oxuduqları mövzulara qısa xülasə vermə, öyrəndikləri yeni bilikləri əvvəlkiləri ilə müqayisə etmə, mətnlərin məzmunundan nəticə çıxarma, hadisələrin gedişatını təxmin etmə kimi bir çox bacarıqları da aşılayır. Elə bu səbəbdən də, oxuyub anlama bacarığının

formalaşdırılması və inkişaf etdirilməsinin əhəmiyyəti beynəlxalq səviyyədə müəyyənləşdirilir və onun ayrı-ayrı ölkələrdəki səviyyəsini ölçmək məqsədilə PİRLS tədqiqatı yaradılmışdır [13, s.13].

Son illərdə bir sıra ölkələr qiymətləndirmə və təhlillərin aparılması, təhsilin inkişafı üçün strategiyaların hazırlanması üçün bir sıra beynəlxalq proqramlara qoşulmuşlar. Bir sıra ölkələrdə təhsilin nailiyyətləri müqayisəli şəkildə qiymətləndirilməklə əsas fənlərin tədrisində keyfiyyət dəyişikliklərinin tendensiyası müəyyənləşdirilir, fənlərin tədrisinin keyfiyyətinə təsir edən faktlar üzə çıxarılır, kurikulumlar, eyni zamanda müxtəlif ölkələrin təhsil prosesinin təşkilinin əsasları haqqında məlumat toplanılır.

**Mövzunun işlənmə dərəcəsi.** Tədqiqat işi "4-cü sinif "Azərbaycan dili" dərsliyindəki mətn və tapşırıqların PİRLS beynəlxalq qiymətləndirmə tədqiqatında nəzərdə tutulan oxu bacarıqlarını formalaşdırması baxımından təhlili" mövzusunda yazılmışdır. Bu mövzunu yazarkən apardığımız tədqiqatdan məlum olmuşdur ki, bu barədə çoxsaylı kitablar, məqalələr və internet materialları hazırlanmışdır. Lakin ölkəmiz bu tədqiqata hələ 2011-ci ildə qoşulmağa başladığından, bu sahəyə yeni-yeni maraq yaranmağa başlamışdır. Odur ki, ölkəmizdə bu mövzu ilə bağlı internetdə mövcud məlumatlandırıcı materiallarla yanaşı məhdud sayda elmi məqalələr də yazılmışdır.

PİRLS – oxu bacarığının beynəlxalq qiymətləndirilməsi tədqiqatı haqqında ingilis dilçi alimlərindən ən çox M.O.Martin, İ.V.S.Mullis, A.M.Kennedy, M.Sainsbury araşdırmaaparararaq kitablar yazmışlar. Ölkəmizdə Xəzər Universitetinin "Humanitar, təhsil və sosial elmlər fakültəsi"nin dekanı, dosent E.Semedova Azərbaycanlı şagirdlərin PİRLS 2016-da göstərdiyi nəticələri təhlil edərək, PİRLS mətnlərində şagirdlərdən tələb olunan bacarıqları ölkəmizdəki oxu standardları ilə müqayisəsini apararaq bu mövzu ilə bağlı elmi məqalə qələmə almışdır.

**Tədqiqat işinin obyekti və predmeti.** Tədqiqat işinin obyektini dördüncü sinif "Azərbaycan dili" dərsliyindəki mətn və tapşırıqlar, predmetini isə bu mətn və

tapşırıqların PİRLS tədqiqatında nəzərdə tutulan oxu bacarıqlarının formalaşdırılması üçün uyğunluğunu müəyyənləşdirmək təşkil edir.

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi dördüncü sinif “Azərbaycan dili” dərsliyindəki mətn və tapşırıqların PİRLS tədqiqatında nəzərdə tutulan oxu bacarıqlarının formalaşdırılması üçün uyğunluğunu aşkar etmək və 4-cü sinif “Azərbaycan dili” fənn kurrikulumunun təkmilləşdirməsinə töhvə verməkdir. Tədqiqat işinin vəzifəsinə aşağıdakılar daxildir:

- PİRLS tədqiqatı, onun strukturu, xüsusiyyətləri, şagirdlərdən tələb etdiyi bacarıqları, məqsədləri haqqında məlumat vermək;
- PİRLS tədqiqatına görə ölkəmizdəki vəziyyəti təhlil etmək;
- Oxu təlimi və mətnlərin xüsusiyyətlərini müəyyən etmək;
- Dördüncü sinif “Azərbaycan dili” dərsliyindəki mətn və tapşırıqları PİRLS tədqiqatındakı mətn və tapşırıqlarla müqayisə etmək.

**Tədqiqat işinin elmi yeniliyi.** Tədqiqat işində PİRLS tədqiqatı haqqında ətraflı məlumatın verilməsi, dördüncü sinif “Azərbaycan dili” metodiki vəsitində tətbiqi nəzərdə tutulmuş oxu modellərinin, dərslikdə istifadəolunmuş mətn növlərinin təhlil edilərək statistik məlumatlarının verilməsi və bu mətn və tapşırıqların PİRLS tədqiqatındakı mətn və tapşırıqlarla uyğunluğunun müəyyən edilməsi tədqiqat işinin elmi yeniliyini təşkil edir.

**Tədqiqatın elmi-praktik əhəmiyyəti.** Tədqiqat işinin nəzəri əhəmiyyətini PİRLS tədqiqatının, oxu təlimi və mətn xüsusiyyətlərinin araşdırılması, dördüncü sinif “Azərbaycan dili” dərsliyindəki mətn və tapşırıqların PİRLS-in hansı səviyyəsinə uyğunluğunun təhlil edilməsi təşkil edir. Tədqiqat işinin praktik əhəmiyyəti isə, tədqiqat işində öz əksini tapan məlumatlardan, əldə olunmuş nəticələrdən seminarlarda, dərsliklərdə istifadə edilə bilməsi və 4-cü sinif “Azərbaycan dili” fənn kurrikulumunun təkmilləşdirməsinə töhvə verməsidir.

**Tədqiqatın metodu.** Tədqiqat işini yerinə yetirərkən, qarşıya qoyulan məqsədə çatmaq və ortaya çıxan problemlərin həlli prosesində müxtəlif metodlardan istifadə

məsələsi çox mühüm amil olmuşdur. Bu səbəbdən, bu tədqiqat işinin həyata keçirilməsində təsviri, müqayisə və keyfiyyət (qualitative) araşdırma metodlarından istifadə edilmişdir.

# I Fəsil. PİRLS beynəlxalq qiymətləndirmə tədqiqatının məqsədləri və Azərbaycan təhsil sistemi üçün əhəmiyyəti

## 1.1. Beynəlxalq qiymətləndirmə tədqiqatı haqqında ümumi məlumat və əsas anlayışlar

Oxuyub anlama qabiliyyətinin inkişaf etdirilməsinin hər bir tələbənin böyüməsi və inkişafında vacib olması səbəbindən, daha çox IEA kimi tanınan Beynəlxalq Təhsil Nailiyyətinin Qiymətləndirilməsi Assossiasiyası 50 ildən artıqdır ki, bütün dünyada mütaliə savadlılığının beynəlxalq aləmdə qiymətləndirilməsini və onun ətraf ölkələrdə mənimsənilməsi ilə əlaqəli amilləri idarə edir. IEA, 1959-cu ildən bəri çarpaz milli nailiyyət araşdırmaları aparan milli tədqiqat qurumları və dövlət qurumlarının müstəqil beynəlxalq kooperatividir. IEA, ölkələrin fərqli təhsil sistemlərindəki siyasət təsirlərini daha dərindən anlamaq üçün 1960-cı illərdə təhsil müvəffəqiyyətinin beynəlxalq müqayisəli qiymətləndirilməsinə üstünlük verdi. PIRLS, yəni oxu bacarıqlarının inkişafı ilə bağlı beynəlxalq tədqiqat 2001-ci ildə IEA-nın 1991-ci ildə oxuyub anlama tədqiqatının davamı olaraq açıldı [22, s.11].

Son illərdə bir sıra ölkələr qiymətləndirmə və təhlillərin aparılması, təhsilin inkişafı üçün strategiyaların hazırlanması üçün bir sıra beynəlxalq proqramlara qoşulmuşlar. Bir sıra ölkələrdə təhsilin nailiyyətləri müqayisəli şəkildə qiymətləndirilməklə əsas fənnlərin tədrisində keyfiyyət dəyişikliklərinin tendensiyası müəyyənləşdirilir, fənnlərin tədrisinin keyfiyyətinə təsir edən faktlar üzə çıxarılır, kurikulumlar, eyni zamanda müxtəlif ölkələrin təhsil prosesinin təşkilinin əsasları haqqında məlumat toplanılır.

Beynəlxalq qiymətləndirmə bir neçə istiqamətdə aparılaraq yetkinlik yaşlı şagirdlərin kurikulumda nəzərdə tutulan mövzuları (riyazi savad, təbiət elmləri üzrə savad və oxu savadı) hansı səviyyədə öyrəndikləri deyil, müasir informasiya cəmiyyətində qarşılaşdıqları məsələlərin həllində əldə etdikləri bilik və bacarıqlardan istifadə edə bilmə qabiliyyətini ölçmək məqsədi daşıyır.

Keyfiyyətli təhsil hər bir cəmiyyətin inkişafına, tərəqqisinə yol açır. Qloballaşan, inkişaf edən dünyada hər bir kəs uğur qazanmaq üçün dövrün tələblərinə uyğun olaraq öz biliklərini, dünya görüşünü və eləcə də sahib olduqları bacarıqlarını daim inkişaf etdirməyə çalışır. Ayrı-ayrı ölkələrdə bu bacarıqların inkişafını izləmək üçün ötən əsrin ortalarında beynəlxalq qiymətləndirmə tədqiqatlarının həyata keçirilməsinə başlanmışdır. Bu tədqiqatlarla müxtəlif ölkələrin təhsil sistemlərində ortaq göstəricilər müqayisə edilərək, onların beynəlxalq bazarın tələblərinə nə dərəcədə cavab vermələri müəyyən edilir.

Ümumiyyətlə, ümumi təhsil sistemində üç başlıca beynəlxalq qiymətləndirmə proqramı vardır ki, bunlar PIRLS, TIMSS və PİSA proqramlarıdır. Azərbaycan 2006 və 2009-cu illərdə PİSA, 2011, 2016-cı illərdə isə PİRLS proqramlarına qatılmışdır.

PIRLS (Oxu Bacarıqlarının İnkişafı ilə bağlı Beynəlxalq Tədqiqat) - şagirdlərin oxu, yəni qavrama qabiliyyətlərinin inkişafı ilə bağlı olan beynəlxalq tədqiqatlardan biridir. Təhsildə Qiymətləndirmə ilə bağlı Beynəlxalq Assosiasiyanın (IEA) bu assosiasiyaya daxil olan, yaxud digər iştirakçı ölkələrdə hər beş ildən bir dördüncü sinif şagirdləri arasında aparılan bir tədqiqatdır [22, s.12].

Bilindiyi üzrə, ayrı-ayrı ölkələrdəki təhsilin səviyyəsini müəyyənləşdirən beynəlxalq tədqiqatda istifadə olunan qiymətləndirmə vasitələrinin forma, eləcə də məzmunu ümumi olmaqla eyni bir məqsədə xidmət etməlidir. Buna baxmayaraq, əldə edilmiş nəticələrin təhlil olunması zamanı məlum olur ki, bəzi hallarda xüsusiliyə yol verilir. Onu da vurğulamaq lazımdır ki, bu proqramlarda iştirak edən ölkələrin əksəriyyəti üçün beynəlxalq qiymətləndirmə tapşırıqları tədris müəssisələrində keçirilən riyaziyyat, oxu – yəni qavrama və təbiətşünaslıq fənlərinin keyfiyyətinin dəyərləndirilməsi cəhətdən müasir dövrün tələblərinə uyğun olan suallardır. Bundan əlavə, tədqiqatlarda çox vaxt iştirakçı ölkələrin kurrikulumlarında yer almayan, şagirdlərin öyrəşmədiyi, amma mütəxəssislərin düşüncəsinə görə, bu müasir zamanda həyat üçün vacib hesab edilən suallarla da qarşılaşılır.

PIRLS beynəlxalq tədqiqatının tərkibinə iştirakçılar (şagirdlər), müəllim və məktəb direktorları, eləcə də valideynlər üçün anketlər, qiymətləndirmə vasitələri, təqdim edilən məlumatlar üzrə sinif və şagirdlərin seçimini ehtiva edən metodiki, həmçinin proqram təminatı daxildir [17, s.58].

PIRLS və TİMSS beynəlxalq qiymətləndirmə proqramlarının bu qədər əhəmiyyətli olması tədqiqat zamanı tətbiq edilən qiymətləndirmə vasitələrinin şagirdlərin bilik, eləcə də bacarıqlarının müəyyən edilməsində və gələcək uğurlar üçün iştirakçı ölkələrin həmin vasitələrdən yararlanmasında xüsusi əhəmiyyətə sahib olmasındadır. Bununla belə, beynəlxalq qiymətləndirmə vasitələrinin spesifikliyi həmişə bu proqramda iştirak edən ölkələrin şagirdləri üçün uyğun olmur, yəni şagirdlərin bu cür qiymətləndirmə vasitələrindən xəbərdar olmamaları yekun nəticələrdə də öz əksini tapır. Bu məqsədlə Təhsil Nazirliyi tərəfindən PIRLS və TİMSS beynəlxalq tədqiqatlarında işlədilən vasitələri özündə əks etdirən kitabça tərtib olunur. Ölkəmizdəki şagirdlərin, eləcə də beynəlxalq qiymətləndirməyə qatılacaq şagirdlərin bu cür qiymətləndirmə vasitələrindən xəbərdar olmaları həm əldə ediləcək uğurlarımızda, həmçinin də məktəblilərimizin dünyagörüşündə müsbət şəkildə öz əksini tapacaqdır [28].

Oxu bacarığının inkişafı ilə bağlı beynəlxalq tədqiqat olan PIRLS dördüncü sinif səviyyəsində oxu savadlılığını, həmçinin təlimatla əlaqəli məktəb və müəllim təcrübələrini ölçmək üçün hazırlanmış beynəlxalq qiymətləndirmə və tədqiqat layihəsidir. Dördüncü sinif şagirdləri şagirdlərin oxuma münasibətlərinə və oxu vərdişlərinə toxunan bir oxu qiymətləndirmə anketi doldururlar. Bundan əlavə, şagirdlərin oxu savadlılığının inkişaf etdirilməsindəki məktəb təcrübələri haqqında məlumat toplamaq üçün şagirdlərin müəllimlərinə və məktəb direktorlarına anketlər verilir. 2001-ci ildən bəri, PIRLS hər 5 ildən bir təşkil olunur və bütün keçmiş qiymətləndirmələrdə ABŞ iştirak edib. PIRLS Beynəlxalq Təhsil Nailiyyətinin Qiymətləndirilməsi Birliyi tərəfindən maliyyələşdirilir və ABŞ-da Milli Təhsil Statistika Mərkəzi tərəfindən idarə edilir [28, s. 3].

PIRLS və PIRLS Savadlılıq layihələri arasındakı inteqrasiya qiymətləndirməni aparan şagirdlərin PIRLS tədqiqatı ilə bağlı hesabat əldə etmələrini təmin etmək üçün sorğu anketləri hazırlanır ki, bu da əlaqələndirmə metodologiyasından istifadə etmək üçün möhkəm bir zəmin yaradır. Bundan əlavə, daha az çətin olan ikinci PIRLS Savadlılıq bölməsi PIRLS qiymətləndirməsində iştirak edən və müvəffəqiyyət şkalasının ən aşağı hissəsində çıxış edən şagirdlərin oxu müvəffəqiyyətləri haqqında daha çox məlumat verərək PIRLS-ə və şagirdlərə fayda verir.

PİRLS qiymətləndirmə şkalası 2001-ci ildə bir standarta uyğunluqla əlaqədar 100 bal üzərindən qiymətləndirilməklə yaradılmışdır. Daha sonra isə, bu şkala 500 ballıq sistemə keçirilərək daha da mürəkkəbləşməyə və sistematikləşməyə başladı. 2006-cı ildə keçirilmiş PİRLS qiymətləndirməsindən sonra hər iki ilin nəticələri bu müvəffəqiyyət tablosuna yerləşdirildi ki, ölkələr üzrə təhsil müəssiələri də öz şagirdlərinin nailiyyətlərini analiz edə bilsinlər. Eyni formada bu tabloya 2011, 2016 və 2021-ci illərdə də keçirilmiş test imtahan nəticələri yüklənərək, daha dəqiq nəticələr əldə olunur. Son 15 ildə yaranmış bu müvəffəqiyyət tablosu həm oxu məqsədlərini, həm də anlama proseslərini özündə birləşdirən oxu səmərəliliyinin bir ölçüsüdür.

PİRLS 4-cü sinif şagirdlərinin nailiyyətləri və oxu təcrübələrinə fokuslanır. Tədqiqata yazılı formada olan oxuyub anlama testi və oxu savadlılığının inkişafı ilə əlaqəli amillərə yönəlmiş bir sıra sorğular(suallar) daxildir. PIRLS 2001-ci ildə 35 təhsil sistemində, 2006-cı ildə 45 təhsil sistemində, 2011-ci ildə 53 təhsil sistemində, 2016-cı ildə 61 təhsil sistemində olan tələbələrə tətbiq edilmişdir [28, s.1].

2021 -ci ildə, IEA -nın PIRLS, beşinci oxu qiymətləndirməsini keçirərək, ölkələr arasında müqayisəli oxu nailiyyətlərində 20 illik tendensiyalar haqqında məlumatlar təqdim edir. 2021-ci ildə təşkil edilmiş PİRLS tədqiqatı isə digital formada həyata keçirilmişdir. Ölkələrin təxminən yarısı PIRLS 2021-i kompüterlər vasitəsi ilə, şagirdlərə mətnləri oxumağı və sualları cavablandırmağı asanlaşdıran istifadə üçün asan bir interfeys istifadə edəcəklər. 2021-ci ildə mətnlərin çətinlik faizinin 2016 PİRLS-lə müqayisədə azaldılması nəzərdə tutulmuşdur [19, s.62]:

Cədvəl 1.

| Mətn səviyyəsi | 2016 PİRLS trend mətnlərin çətinlik faizi | 2021 PİRLS üçün nəzərdə tutulmuş çətinlik faizi |
|---|---|---|
| **Çətin** | 55% | 50% |
| **Orta** | 68% | 65% |
| **Asan** | 80% | 80% |

PİRLS 2021də 18 mətndən 9-unun çətin və orta səviyyəli mətnlərə, 9-unun isə asan və orta səviyyəli mətnlərə aid olması nəzərdə tutulmuşdur.

## 1.2. PIRLS-in məqsədi

PİRLS qiymətləndirmə layihəsi 4-cü siniflər arasında olan çox böyük beynəlxalq oxu savadlılığını ölçən tədqiqat layihəsidir. Bu araşdırma layihəsi Təhsildə Qiymətləndirmə üzrə Beynəlxalq Assosiasiya tərəfindən hər ölkənin təhsil sisteminə yatırım edən milli sponsorlar tərəfindən (bu dövlətin özü də ola bilər) aparılır.

Beynəlxalq qiymətləndirmə tədqiqatı bir tərəfdən ölkələr üçün təhsil sistemlərinin keyfiyyətini müəyyən etdiyi halda, digər tərəfdən də onların öz təhsil sistemlərini, standartlarını inkişaf etdirmələri üçün məlumat mənbəyinə çevrilir. Günümüzdə bu proqrama altmışa yaxın ölkədən ibtidai təhsilin sonuncu pilləsi hesab edilən dördüncü sinif şagirdləri və orta məktəb şagirdlərinin qatılması məlumdur. Baxmayaraq ki, bu tədqiqat ölklərə təhsilin keyfiyyəti barədə məlumat verir, bu tədqiqatın iştirakçılarının başlıca məqsədi ölkələrdəki təhsilin səviyyəsinə qiymət vermək deyil, beynəlxalq təhsil təcrübələrindən bəhrələnməkdir.

PIRLS dördüncü sinif şagirdlərinin oxu savadlılığı testindən və dördüncü sinif şagirdlərinin oxu savadlılığının qiymətləndirilməsinə dair məlumat toplamaq üçün anketlərdən ibarət olan diqqətlə qurulmuş bir oxu qiymətləndirməsidir. Bu layihənin 4 əsas məqsədi var. Bunlar aşağıdakılardır:

1. İştirakçı dövlətlərin təhsil müəssisələrindəki şagirdlərin oxu savadlılığının beynəlxalq səviyyəli müqayisəsinin yaradılması üçün lazım olan ümumi qiymətləndirmə vasitələrinin inkişaf etdirilməsi;
2. İştirakçı təhsil sistemlərindəki 4-cü sinif şagirdlərinin hər birinin savadlılıq profillərinin beynəlxalq miqyasda təsvir edilə bilməsi;
3. İştirak edən təhsil sistemlərinin 4-cü sinif şagirdlərinin oxu vərdişlərinin geniş şəkildə izah edilə bilinməsi;
4. Təhsil müəssisələrindəki bu şagirdlərin savadlılıq səviyyəsinə və oxu vərdişlərinə ev, ailə, məktəb və digər sosial faktorların təsirinin müəyyənləşdirilməsi [28, s.1].

PIRLS ölkələrin oxu tədrisinin təkmilləşdirilməsi üzrə faktlara əsaslanan qərarlar qəbul etməsinə imkan yaradır. Ölkələr öz milli təhsil sistemlərini inkişaf etdirmək məqsədilə nailiyyət testləri və sorğu məlumatlarından aşağıdakı kimi istifadə edirlər:

- Ölkə səviyyəsində nailiyyət trendlərinin izlənilməsi;
- Yeni və ya təkmilləşdirilmiş təhsil siyasətlərinin effektivliyinin müəyyən edilməsi;
- Oxu tədrisində zəif cəhətlərin meydana çıxarılması və kurikulum üzrə islahatların stimullaşdırılması;
- PIRLS nəticələrinin tədqiq və təhlili əsasında təhsil sisteminin inkişaf etdirilməsi;
- Digər siniflərdə bənzər qiymətləndirmə tədqiqatlarının təşkil olunması;
- Oxu bacarığının formalaşdırılması və oxunun tədrisini araşdıran tədqiqatlar əsasında zəngin məlumat bazasının formalaşdırılması.

PIRLS tədqiqatının əsas məqsədi, ibtidai təhsilin sonuncu pilləsində olan dördüncü sinif şagirdlərinin müxtəlif mətn növləri üzrə oxu – qavrama qabiliyyətlərini, həmçinin oxu vərdişlərini üzə çıxarmaqdır.

PIRLS tədqiqatında məktəblilərin oxuma bacarıqlarını müəyyən etmək məqsədilə idrak testlərindən, eləcə də həmin bacarıqlara təsir göstərən amilləri aşkar

etmək məqsədilə müəllim, məktəb direktorları, şagird və eləcə də valideynlər üçün sorğulardan istifadə edilir.

Beynəlxalq sorğuların arxasında dayanan nəzəriyyə nədir?

- Anket təşkilatçıları, hər yerdə təhsil standartlarını yüksəltmək üçün başqalarının istifadəsi üçün beynəlxalq nəticələr haqqında məlumat verdiklərini söyləyirlər;
- Onlar, məqsədlərinin uğurlu təhsil sistemlərinin xüsusiyyətlərini müəyyən etməklə ən yaxşı nəticələrə aparacaq fikirlərin yayılmasını asanlaşdırmaq olduğunu da vurğulayırlar [35].

Beynəlxalq sorğuların faydaları nələrdir?

- Hökumətlər məsuliyyət daşıdıqları sistemlərdə nələrin baş verdiyini bilməlidirlər. Liderlər ən böyük ehtiyaca görə mənbələri hara ayıracağına qərar verməlidirlər. Beynəlxalq anketlər daha dəqiq məlumatlara əsaslanaraq daha yaxşı qərarlar qəbul etmələrinə kömək edə bilər. Nəticələrin elan edilməsi təhsil sistemləri və siyasətləri ilə bağlı milli müzakirələrdə əhəmiyyətli dərəcədə təsir göstərir.
- Məktəblər və müəllimlər bir anketin qlobal analizini əks etdirə və yaxşı təcrübə üçün tövsiyələri nəzərdən keçirə bilərlər. Onlar anketlər vasitəsilə əlavə məlumatlar əldə edir və bunu test nəticələri ilə əlaqələndirir. Məsələn, PISA 2012, dəqiqlik və dərsdən yayınma çatışmazlığının test performansı ilə mənfi əlaqəli olduğunu bildirir və şagirdlərin iştirakı ilə bağlı tövsiyələr verir.
- Milli tədqiqat və peşəkar inkişaf proqramları tez-tez beynəlxalq anketlərin məlumatlarını başlanğıc nöqtəsi kimi istifadə edirlər [35].

PIRLS çərçivəsi oxu məqsədləri və anlama prosesləri əsasında PIRLS, PIRLS Savadlılığı və ePIRLS tələbələrin oxu müvəffəqiyyətinin qiymətləndirilməsinin təməlini qoyur. PIRLS, şagirdlərin həm məktəbdə həm də məktəbdən xaricdə oxuduqları mətnlərin əksəriyyətini təşkil edən iki əsas məqsəd daxilində oxuma nailiyyətlərini qiymətləndirir:

- Ədəbi təcrübə üçün oxumaq;
- Məlumat əldə etmək və istifadə etmək üçün oxumaq [22, s.13].

PIRLS aşağıdakı kimi sualları cavablandıraraq təhsil işçilərinə və siyasətçilərinə kömək edə bilər:

- 4-cü sinif şagirdləri nə dərəcədə yaxşı oxuyurlar?
- Bir ölkədəki şagirdlər oxu savadına görə başqa bir ölkənin tələbələri ilə necə müqayisə edilirlər?
- 4-cü sinif şagirdləri oxumağa dəyər verir və xoşlayırlar?
- Beynəlxalq səviyyədə tələbələrin oxu vərdişləri və münasibətləri necə dəyişir?
- PIRLS-də oxu savadının hansı cəhətləri qiymətləndirilir? [28, s.4]

Bu prosesə kömək etmək üçün hər ölkənin təhsil sisteminin bir profilini təqdim edən və ibtidai sinif uşaqları üçün oxu təhsilinə xüsusi diqqət yetirən PIRLS Ensiklopediyası yaradılmışdır. Ensiklopediyada iqtisadi və təhsil göstəriciləri haqqında ümumi məlumatlar verilir, təhsil sisteminin necə qurulduğu və təhsillə bağlı qərarların necə verildiyi təsvir olunur. Məqsədlər, materiallar və təlimat daxil olmaqla oxu tədris proqramı, oxu müvəffəqiyyətinin qiymətləndirilməsinə dair məlumatlarla birlikdə müzakirə olunur [16, s.12].

Qiymətləndirmədə müstəqil oxu təcrübəsini müəyyənləşdirmək məqsədini əks etdirmək üçün rəqəmsal və ya çap olunmuş formalarda, eləcə də simulyasiya edilmiş onlayn materiallarda oxunan hissələr, şagirdlərin məktəb daxilində və xaricində gündəlik oxu təcrübələrində istifadə etdikləri mövzulara uyğun seçilməyə çalışılır. Bu məqsədə çatmağa kömək etmək üçün, mətnlər, ümumiyyətlə, şagirdlərinin oxuduqları bədii və informativ materialları təmsil etməsi üçün iştirakçı ölkələr tərəfindən verilir və nəzərdən keçirilir. Qiymətləndirmə vəziyyətinin vaxt məhdudiyyətləri mətnlərin uzunluğuna bəzi məhdudiyyətlər qoyur, çünki şagirdlərin bütün hissəni oxumaq və anlama suallarına cavab vermək üçün vaxta ehtiyacı var. PIRLS tədqiqatında, çətinlik aralığına uyğun olaraq, hissələrin uzunluğu, ümumiyyətlə, təxminən beş yüz ilə səkkiz yüz söz arasındadır.

Rəqəmsal mühitə keçidlə məqsəd PIRLS 2021 -ə daxil olan mətn növlərinin müxtəlifliyini artırmaqdır. Məsələn, PIRLS -ə pyeslərdən, jurnallardan və qəzetlərdən mətnlər, ənənəvi məktublar, e -poçtlar və qısa mesajlar daxil edilə bilər. Ayrıca, məlumatlar bir çox fərqli formatda təqdim edilə bilər. Əsasən mətnlə təqdim olunan məlumat parçalarında faktları sənədləşdirmək üçün bir cədvəl və ya təsvir etmək üçün bir şəkil ola bilər. Həm çap materialları, həm də veb saytlar siyahılar, qrafiklər və diaqramlar vasitəsilə xeyli miqdarda məlumat təqdim edir. Hibrid mətnlər yeni deyil, lakin yeni media və rəqəmsal mətnlərin gətirdiyi ünsiyyət üslublarında və rejimlərində sürətli dəyişikliklər nəticəsində çoxalmış inkişaflar olmuşdur [19, s.46].

## 1.3. PIRLS-in əsas xüsusiyyətləri

PIRLS oxu mətnləri və ePIRLS onlayn oxu mətnləri Oxu İnkişaf Qrupu və Milli Araşdırma Koordinatorları tərəfindən geniş şəkildə nəzərdən keçirilir. Mətnlərin və veb saytların aşağıdakı xüsusiyyətlərə malik olmasını təmin etmək üçün xeyli əmək sərf olunur:

- Mətnlərin aydın və əlaqəli olması;
- Ölkələr və mədəniyyətlərə uyğun məzmunların hazırlanması;
- Geniş şagird kütləsi üçün maraqlı məzmunların seçilməsi;
- Anlama proseslərinin bütün spektrini qiymətləndirmək üçün adekvat əsasın olması.

2016-cı ildə keçirilən PİRLS imtahanının unikal xüsusiyyətlərindən biri bu qiymətləndirmə imtahanının internet üzərindən olan onlayn oxu bacarıqlarının da analiz yaxud təhlil edilməsi idi. Günümüzdə internetin bütün işlərin məlumat bazasının əsas mənbəyi olduğunu nəzərə alsaq, PİRLS qiymətləndirmə layihəsinin də internet üzərindən yəni ePİRLS olaraq genişləndirilməsi ürəkaçandır. Bu dövlətlərin təhsil müəssisələrinin də işini asanlaşdırır və könüllü olaraq, bu qiymətləndirmə testindən keçirlər. ePİRLS şagirdlərə daha loyal bir mühit yaradaraq, hamının komputerlərdən

istifadə edərək imtahan verməsinə və beləliklə internet üzərindən 4-cü sinif şagirdlərinin daha rahat formada oxu nailiyyətlərinin data bazasının yaradılmasına şərait yaradır. Qiymətləndirmə PC platforması üzərindən komputerdən istifadə olunaraq idarə edilir və nəzarət altında saxlanır. Bir çox hallarda, imtahan məktəbdəki və digər təhsil müəssisələrindəki komputerlər üzərindən aparılır.

ePİRLS şagirdləri məktəblərindəki oxu məqsədlərinə uyğun olan oxu tapşırıqları və testləri ilə qiymətləndirir. Bir bələdçi müəllim rəhbərliyi altında şagirdlər həm mətn, həm də vizual məlumatları ehtiva edən bir-birinə bağlı veb səhifələrdəki testləri işləmək üçün istiqamətləndirilirlər. Epirls "ənənəvi" çap materialındakı testlərdən daha çox elektron formada şagirdlərin oxu anlama bacarıqlarını öyrənməyə yönəlir [18, s.7-8].

Buna baxmayaraq, nailiyyət testləri və test kitabçaları hər 5 ildən bir yenilənir və növbəti qiymətləndirmə imtahanının öyrənmə məqsədləri və strategiyaları əvvəlki imtahan proqramı ilə üst-üstə düşmür. Vacib olan nüanslardan biri isə bu imtahan proqramı yazılarkən müəyyən sahədəki ən son yeniliklərə və şagirdlərin gündəlik həyat təcrübələrinə uyğunlaşdırılmasıdır. PİRLS qiymətləndirmə layihəsi imtahanlarının materiallarının hər dövr üçün yenilənməsinə və cari mövzu və texnologiya ilə ayaqlaşmasına baxmayaraq, imtahan vasitələri növbəti dövrlər üçün yenidən istifadəsinin mümkünlüyü ehtimalına görə gizli saxlanılır [18, s.9].

Bu sahədə aparılan tədqiqatlarda oxu anlama bacarıqları ilə əlaqəli dəyişənlərdən bəhs olunur. Bunlar cinsiyyət, özgüvən(self-esteem), oxumağa maraq və tutumluluq kimi tələbə xüsusiyyətləri, valideynin təhsil səviyyəsi, sosial-iqtisadi və mədəni quruluş kimi ailə xüsusiyyətləri, evdə olan və uşağa məxsus kitabların sayı, qəzet, jurnal kimi məlumat vasitələrinin evdə istifadə edilməsinin sıxlığı kimi bir sıra xüsusiyyətlər, tədris metodları, avadanlıqlardan istifadə, sinifdəki oxu fəaliyyətləri, məktəb resurslarının miqdarı və keyfiyyəti, məktəb və ailə arasındakı əməkdaşlıq, münasibətlər olaraq sıralanır.

Oxu müvəffəqiyyətlərinin nəticələrini şərh etmək üçün vacib bir kontekst təmin etmək üçün PIRLS tələbələrə təhsil imkanlarının necə verildiyi və bu imkanlardan necə

istifadə etməsinə təsir edən amillər haqqında kifayət qədər məlumat toplayır. Bu arxa plan məlumatlarına aşağıdakılar daxildir: oxumaqda milli kurikulum qaydaları və təhsil sisteminin öyrənməyi asanlaşdırmaq üçün necə təşkil olunduğu; tələbələrin öyrənmə üçün ev mühiti; məktəb iqlimi və mənbələri; və siniflərdə təlimat necə baş verir.

Mətnlərin məzmununun aydınlığı və uyğunluğu PIRLS mətnləri üçün əsas meyarlardandır. Tipik olaraq, mətnlər və veb saytlar, gənc auditoriya üçün yazmağı bacaran peşəkar müəlliflər tərəfindən yazıldığı üçün, mətnlər dil xüsusiyyətləri və məlumat sıxlığı baxımından dördüncü sinif səviyyəsinə uyğun olur. Beynəlxalq araşdırma kontekstində, oxu təcrübəsinin qiymətləndirilməsində etibarlılığın əldə edilməsi, mətnləri çoxsaylı dillərə tərcümə etmək ehtiyacı ilə bir qədər məhdudlaşdırıla bilər. Beləliklə, mənada aydınlıq itirmədən tərcümə edilə bilən mətnlərin seçilməsinə diqqət yetirilir.

Beynəlxalq oxu qiymətləndirməsində istifadə ediləcək mətnləri seçərkən, mədəni qərəzliliyin potensialına diqqət yetirmək çox vacibdir. Mədəniyyətə aid olan biliklərdən çox asılı olan mətnlər avtomatik olaraq xaric edilir. Mətn seçimi buna görə mümkün qədər çox iştirakçı ölkədən mətnlərin toplanmasını və nəzərdən keçirilməsini əhatə edir. Məqsəd, mətnlərin mədəniyyətlər arasında universallığının təmin olunması və qiymətləndirmə mətnlərinin millətlər və mədəniyyətlər arasında mümkün qədər geniş şəkildə dəyişməsidir ki, qiymətləndirmə mətnlərində heç bir ölkə və ya mədəniyyət həddən artıq təmsil olunmasın. Mətnlərin son seçimi, qismən, bütün qiymətləndirmə mətnlərinin milli və mədəni təmsilçiliyinə əsaslanır.

PIRLS qiymətləndirilməsi üçün mətnlərin məqsədəuyğunluğu və oxunaqlılığı ilk növbədə qiymətləndirmələrdə iştirak edən ölkələrin müəllimləri və kurikulum mütəxəssisləri tərəfindən təkrar-təkrar nəzərdən keçirilməklə müəyyən edilir. Cins, irqi, etnik və dini mülahizələrə həssaslıq nəzərə alınmaqla, sinif səviyyəsinə uyğun mövzu və məzmunu başa düşmə proseslərinin bütün spektrini ortaya çıxaran mətnləri seçmək üçün hər cür səy göstərilir. Nəhayət, mətnlərin çoxsaylı şagird kütlələri üçün maraqlı olması son dərəcə vacibdir.

## 1.4. PİRLS-in strukturu

Şagirdlərin oxu anlama bacarıqlarının analizi və qiymətləndirilməsi beynəlxalq qiymətləndirmə proseslərində müzakirə olunan əsas məsələlərdən biridir. Oxu məqsədləri və anlama prosesləri PIRLS qiymətləndirməsinin əsasını təşkil edir. PIRLS-də oxu anlama prosesi dörd qatlı bir quruluşla izah olunur:

1. Dəqiq ifadə edilmiş məlumatları və fikirləri vurğulamaq və nəticə çıxarmaq;
2. Birbaşa nəticə çıxarmaq;
3. İdeyaları və məlumatları birləşdirmək və şərh etmək;
4. İmtahan və mətnin elementlərini, məzmununu və dilini qiymətləndirmək [22, s.13].

Bundan əlavə, PIRLS oxu savadlılığının üç aspektinə diqqət yetirir: oxumaq məqsədləri; anlama prosesləri; və şagird oxu davranışları və münasibətləri. İlk iki aspekt hər bir iştirakçı tələbəyə tətbiq olunan PIRLS qiymətləndirmə komponenti ilə ölçülür. Üçüncü ölçü, oxu davranışları və münasibətləri, dünya görüşü anketlərinin ayrı bir komponenti ilə ölçülür. 2016-cı ildə PIRLS-ə PIRLS qiymətləndirməsi və ePIRLS onlayn məlumat oxumasının qiymətləndirilməsi də əlavə edildi. Beləliklə, PIRLS-də kağız və qələm əşyaları ilə yanaşı, şagirdlərdən onlayn məlumat oxuma tapşırıqlarını yerinə yetirmələri istənildi. Hər bir tapşırıq, ümumilikdə 5-10 veb səhifədən ibarət olan iki-üç fərqli simulyasiya edilmiş veb saytlara getmək və məlumat əldə etməkdən ibarətdir. Daha sonra şagirdlərdən bu tapşırıqlar əsasında bir sıra anlama suallarını doldurmaları istənildi. Rəqəmsal qiymətləndirməyə keçid davam edilərkən, 2021-ci ildə proqramda iştirak edən ölkələrin təhsil sistemlərində rəqəmsal PIRLS (digitalPİRLS) adlandırılacaq tamamilə rəqəmsal qiymətləndirmədə iştirak etmək, yaxud sənəd PIRLS (paperPİRLS) seçimində iştirak etmək imkanı olacaqdır. PaperPİRLS-də iştirak edəcək təhsil sistemləri oxu və məlumat xarakterli keçidlərdən təşkil olunmuş ənənəvi tapşırıqlardan keçəcəklər. DigitalPİRLS-də iştirak edəcək təhsil sistemləri isə, həm ənənəvi tapşırıqlar, həmçinin də interaktiv ePİRLS xüsusiyyətlərinin inteqrasiya olunmuş yeniliklərindən bəhrələnə biləcəklər [28, s.3].

PIRLS tədqiqatının hədəf auditoriyası ibtidai təhsilin sonuncu pilləsində, yəni dördüncü sinfində təhsil alan şagirdlərdir. PIRLS tədqiqatda iştirak edəcək şagirdləri seçmək üçün iki mərhələli təbəqələşdirilmiş seçmə metodundan istifadə edir. Birinci mərhələdə müraciətdə iştirak edəcək məktəblər və ikinci mərhələdə müraciət üçün seçilmiş məktəbdəki sinif filialı təsadüfi metodlarla seçilir.

Nümunə götürmə prosesində iştirak edəcək məktəblər PIRLS Beynəlxalq Mərkəzi tərəfindən seçilir. Məktəb seçimində istifadə ediləcək təbəqələr, bölgə, dövlət-özəl və s. iştirakçı ölkələr tərəfindən öz ölkələrinin xüsusi şərtlərinə görə təyin olunur.

PIRLS hər bir ölkədəki iştirakçı şagirdlərin oxu savadlılığı haqqında tam bir təsəvvür yaratmaq üçün hazırlanmışdır. Buraya oxu məqsədi və anlama prosesi ilə yanaşı ümumi oxuma nailiyyəti də daxildir. Oxumağı başa düşmək üçün hərtərəfli bir baxış məqsədi ilə uyğun olaraq, bütün PIRLS qiymətləndirməsi 12 oxu hissəsindən və onu müşaiyət edən suallardan (maddələr kimi tanınır) ibarətdir. Eynilə, PIRLS Savadlılığı (Literacy) qiymətləndirməsi 12 oxu keçidindən və onu müşaiyət edən suallardan ibarətdir, lakin hissələr daha az çətindir. Hər qiymətləndirmədə altı hissə ədəbi təcrübə üçün oxu qiymətləndirilir. Hər hansı bir şagirdin qiymətləndirmə yükünü minimuma endirmək üçün hər bir tələbə əvvəlcədən onlara izah edildiyi kimi test kitabçası yalnız iki hissə ilə təqdim olunur. Məlumat toplanmasından sonra həm PIRLS həm də PIRLS Savadlılıq qiymətləndirmələri üçün şagirdlərin imtahan işlərinin cavabları, hər bir ölkə üçün qiymətləndirmə nəticələrinin ümumi mənzərəsini təmin edən PIRLS oxu müvəffəqiyyət şkalasında yerləşdirilir [17, s.62].

PIRLS çərçivəsinin geniş əhatə dairəsi, hesabat məqsədləri və müxtəlif orijinal mətnlərin istifadəsinə vurğu edildiyi nəzərə alınaraq, qiymətləndirmə vasitələri üçün spesifikasiyalar geniş sınaq müddətini əhatə edir. PIRLS Oxu İnkişaf Qrupu bu beynəlxalq qiymətləndirmə vasitələrinə təsir edən əsas iki məqsədi - ədəbi təcrübə üçün oxumaq və məlumat əldə etmək yaxud istifadə etmək üçün oxumaq məqsədlərini uşaqların məktəbdə qarşılaşdıqları oxu materiallarının yaxşı əhatə olunması ilə uyğunlaşdırır. Ümumi imtahan prosesi səkkiz saatı əhatə edir , buna baxmayaraq, bu

individual olaraq şagirdləri qiymətləndirmək üçün kifayət edici müddət deyildir. Bu səbəbdən, şagird qiymətləndirmələrinin planlaşdırılmasının çətinliyi, tələbələrin konsentrasiyası və yorğunluğu itirilmədən uzun sınaq müddətlərinə məruz qala bilməməsi səbəbindən, test müddəti hər şagird üçün 80 dəqiqə ilə məhdudlaşır və bir tələbə üçün əlavə 15-30 dəqiqə verilir [28, s.3].

Fon bilikləri anketləri şagirdlərin evdə və məktəbdə oxumağı öyrənmə təcrübələri haqqında məlumat toplamaq üçün aparılır. Tələbə anketi tələbələrin oxuma münasibətlərinə və oxu vərdişlərinə toxunur. Tələbə anketi qiymətləndirmə hissəsindən sonra doldurulmaq üçün təxminən 30 dəqiqə müddətində aparılır. Ümumilikdə, PIRLS qiymətləndirmə və fon sorğusu da daxil olmaqla hər tələbə üçün 40 dəqiqə çəkir [28, s.3].

Bundan əlavə, şagirdlərin oxu savadlılığının inkişaf etdirilməsindəki məktəb təcrübələri haqqında məlumat toplamaq üçün şagirdlərin müəllimlərinə və məktəb direktorlarına anketlər verilir. Müəllim və məktəb anketləri ya etibarlı bir veb saytdan ya da onlayn formada istifadə olunur. Müəllim anketlərinin doldurulması təxminən 40 dəqiqə çəkir və müəllimlərə təhsili və təcrübəsi, mövcud mənbələri və tədris təcrübələri barədə suallar verilir. Məktəb anketlərinin doldurulması və məktəb tətbiqetmələri və mənbələri haqqında soruşulması təxminən 40 dəqiqə çəkir. Bir çox ölkədə (lakin ABŞ-da deyil), valideyn sorğusu da aparılır [28, s.3].

PIRLS-ə bənzər olaraq, 2016 ePIRLS qiymətləndirməsi beş tapşırıqdan ibarət idi (hər biri 40 dəqiqə uzunluğunda), lakin şagirdlərdən yalnız ikisini yerinə yetirmələri istəndi. Şagirdlər tapşırıqları kompüterdə yerinə yetirdilər. Hər bir tapşırıq ümumilikdə 5-10 veb səhifədən ibarət iki-üç fərqli veb saytdan məlumat oxumaq və əldə etməkdən ibarət idi; daha sonra şagirdlərdən tapşırıq əsasında bir sıra başa düşmə suallarını doldurmaları istəndi. Tələbələr, eyni zamanda, internet təminatları, məlumatları və istifadələri barədə qısa bir sorğu tamamladılar. ePIRLS, qiymətləndirmə və tələbələrin doldurması üçün anket daxil olmaqla təxminən 2 saat çəkdi [28, s.3].

PIRLS 2021 sorğusunda 50-dən çox ölkə iştirak etmişdir. Tədqiqatın pilot tətbiqi 2020-ci ildə, son tətbiqi isə 2021-ci ildə olmuşdur. PIRLS 2021 tətbiqi kağız-qələm əsasında tətbiq olunmuşdur. Pilot tətbiqetmədə 6 buklet, son tətbiqdə isə 16 buklet istifadə edilmişdir.

Hər kitabçada iki fərqli mətn növü istifadə edilmiş və bu mətnlər haqqında orta hesabla 30 sual olmuşdur. Bu sualların yarısı açıq, yarısı çox seçimli suallardır.

Əlavə olaraq, müvəffəqiyyət testindən sonra bir tələbə anketi tətbiq edilmişdir. Müraciətdə iştirak edən şagirdlərin müəllimləri müəllim anketində, şagirdlərin valideynləri ev anketində və məktəb rəhbərləri məktəb anketində iştirak etmişlər [36].

## 1.5. PİRLS-də oxunun məqsədlərinə görə səviyyələr üzrə meyarlar

Oxu savadlılığı hər şagirdin təhsilinin erkən illərində qazanması vacib olan bacarıqlardan biridir. Oxu savadlılığı digər bütün fənnlərin açarı rolunu oynayır. Başqa sözlə desək, öyrənmənin digər mərhələləri üçün geniş və dərin miqyaslı öyrənmənin təməl daşıdır. Oxu savadlılığı təkcə məktəb illərində keçirilən dərslərin qavranılması üçün yox, eyni zamanda şəxsi inkişaf xarakteri daşıyan və ömür boyu öyrənməni təmin edəcək xüsusiyyətləri də özündə ehtiva edir. Şagirdlər bununla cəmiyyətin və ətraf mühitin içərisində daha aktiv rola malik olurlar.

Hər keçən gün oxumaq və yaxşı oxucu olmaq anlayışları və oxumağı öyrənmək və öyrətməkdə istifadə olunan üsullar yenidən müəyyənləşdirilir. Təhsil və psixologiya sahəsində aparılan tədqiqatlar göstərir ki, oxu vərdişləri üzrə səriştələr zaman keçdikcə və bir-birini gücləndirən çoxsaylı münasibətlər nəticəsində inkişaf edir. Dil və zehni fəaliyyət arasında qarşılıqlı əlaqənin olduğu da bildirilir.

Bütün dünyada oxu savadlılığı insanların oxumaq səbəbləri ilə birbaşa əlaqəlidir; geniş şəkildə bu səbəblərə zövq və şəxsi maraq üçün oxumaq, öyrənmək və cəmiyyətdəki iştirak daxildir. Azyaşlı şagirdlərin əksəriyyətinin erkən oxuması ilk iki səbəbə əsaslanır. Bunlardan biri hekayə kitabları və ya şəkilli kitablar kimi hekayələri izah edən bədii ədəbiyyat kitablarının olması, digəri isə onlara ətraf aləm haqqında

məlumat verən və suallara cavab verən məlumat mətnlərinin olmasıdır. Azyaşlı şagirdlər savadlılıq qabiliyyətlərini inkişaf etdirdikləri və tədris proqramı boyunca öyrənmək üçün getdikcə daha çox oxumağa ehtiyac duyduqları üçün, kitablardan və digər çap materiallarından məlumat əldə etmək üçün oxumaq daha vacibdir.

Bu oxu məqsədlərinə uyğun olaraq həm PIRLS, həm də PIRLS Savadlılıq qiymətləndirmələri maraq və ya zövq üçün oxumağa və öyrənmək üçün oxumağa, yəni ədəbi təcrübə üçün və məlumat əldə etmək və istifadə etmək üçün oxumağa yönəlmişdir.

Oxuyub anlama bacarıqlarına dair digər tədqiqatlarda, bu bacarıqlara təsir edən dəyişənlərə işarə edən nəticələr əldə edilir. Şagirdin evindəki kitabların sayından və öz kitablarının sayındakı artımdan asılı olaraq, şagirdlərin oxumaqda müvəffəqiyyətli olma ehtimalı da artır. W.B.Elley (1992) araşdırmasında, şagirdlərin evlərindəki kitabların əlçatanlığının onların qabiliyyətlərinə və müvəffəqiyyətlərinə təsir edən əhəmiyyətli bir amil olduğu aşkar edilmişdir [13, s.14]. Müəllimlərin sinifdəki oxu anlama proseslərində şagirdlərinə xülasə yazması və şagirdlərinə oxu ilə bağlı ev tapşırığı verməsi, oxumağı başa düşməkdə müvəffəq olma ehtimalını artırır. Bu işdən əldə edilən nəticələr araşdırıldıqda cinsiyyətin, tələbəyə aid kitabların sayının, evindəki kitabların sayının, müəllimin oxuduğu mətnlər haqqında xülasə yazmasının və müəllimin oxumaqla bağlı ev tapşırıqlarının verildiyi görülmüşdür. Beləliklə, vurğuladığımız məsələlər şagirdlərin oxu və anlama nailiyyətlərində önəmli yer tutur.

Bundan əlavə, şagirdlərin akademik göstəriciləri ilə dərsdən səbəbsiz-icazəsiz qalmaları arasında da tərs mütənasib əlaqə tapılmışdır. Belə ki, Y.N.Padron, H.Waxman, A.P.Brown və R.A.Powers (2000) tərəfindən aparılan araşdırmada, yüksək nailiyyətli və dezavantajları olan tələbələrin aşağı nailiyyətli tələbələrə nisbətən "oxuduqları mətn haqqında düşünmək, əsas fikrə fokuslanmaq və hekayəni öz sözləri ilə ifadə etmək" kimi güclü strategiyalardan istifadə etmələri ilə daha tez-tez qarşılaşılmışdır [24, s.23].

Ölkələrin beynəlxalq səviyyədə, əyalət və ya rayon səviyyələrində təhsil siyasətlərinə təsir edən PISA, TIMMS və PIRLS kimi oxşar tədqiqatlar aparmaq və bu səviyyələrdə praktikantlara yol göstərici məlumatlar vermək lazımdır.

Oxumadan əvvəl, oxu zamanı və oxuduqdan sonra oxucular məna qurmaq üçün dil bacarıqları, idrak və metakoqnitiv strategiyaların repertuarından və fon biliklərindən istifadə edirlər.

Təhsil tədqiqatlarında vacib məsələlərdən biri də, şagirdlərin bir mövzuya münasibətləri ilə onların akademik müvəffəqiyyəti arasındakı əlaqədir. Təhsil tədqiqatlarında, şagird motivasiyasının və özünəinamın əlaqəyə və akademik müvəffəqiyyətə necə gətirib çıxara biləcəyi ilə bağlı çoxsaylı nəzəriyyələr mövcuddur. PİRLS-də şagirdlərin daşımalı olduqları əsas xüsusiyyətlərə bunları misal gətirə bilərik:

- Şagirdlərin öyrənməyə hazırlığı;
- Şagird motivasiyası;
- Şagirdin özünüdərki;
- Şagird oxuyub anlama davranışları [17, s.51].

Şagirdlərin bir tapşırıq və ya hədəfə fokuslanmaları üçün fizioloji cəhətdən hazır olmaları və məzmun ilə məşğul olmaq üçün ilkin biliklərə sahib olmaları çox vacibdir. PIRLS 2011-in nəticələri, ən inkişaf etmiş ölkələrdə belə, bir çox şagirdin aclıq və yuxu çatışmazlığı səbəbi ilə sinifdə diqqət çəkmək üçün mübarizə apardığını göstərdi [17, s.51].

Tədqiqat, qidalanma problemlərinin şagirdlərin öyrənməsində bir maneə olduğunu müəyyənləşdirdi, məktəb səhər yeməyi proqramları ilə mümkün həll yolu təklif etdi. Eynilə, yuxusuzluğun aşağı nailiyyətlərlə əlaqəli olduğu və müəyyən məktəblərdə erkən başlama vaxtları ilə, həmçinin şagirdin sosial-iqtisadi vəziyyəti ilə əlaqəli olduğu təsbit edildi [17, s.51].

Fizioloji hazırlıqdan əlavə, şagirdlərin məzmun ilə əlaqələndirmək üçün ilkin biliklərə də sahib olmaları lazımdır, çünki “insanın öyrəndiyi hər yeni şey insanın onsuz

da sahib olduğu biliklərə bağlanmalıdır”. Başqa sözlə, şagirdlərin öyrənməsi üçün yeni məzmunu əvvəlki biliklərlə əlaqələndirə bilmələri lazımdır [17, s.52].

Şagirdlərin öyrənməyə hazırlığından əlavə, motivasiyaları oxumaqda müvəffəq olmaq üçün vacibdir. Akademik motivasiyanın mənbəyi və bunun məktəbdə, sinifdə və evdə necə asanlaşdırılması hər zaman tədqiqatçıların maraq dairəsində olmuşdur. Şagirdlərin hər bir fərqli tapşırıq və mövzu sahəsi üçün fərqli motivasiya səviyyəsi var [17, s.52].

Ədəbiyyatların əksəriyyəti motivasiyanı iki fərqli quruluşa ayırır: daxili motivasiya və xarici motivasiya. Daxili motivasiya “davranışın enerjisidir”. Oxumaq üçün daxildən motivasiya olunmuş şagirdlər bu kitabın maraqlı və həzz verici olduğunu düşünür və oxumağa müsbət münasibət bəsləyirlər. Bütün insanların anadangəlmə öyrənmə motivasiyası ilə dünyaya gəldikləri nəzəriyyəsi irəli sürülsə də, ev və məktəb kimi kontekstlər bu daxili motivasiyanı ya asanlaşdıra bilər, yaxud da onu boğa bilər [17, s.52].

Xarici motivasiya tərif, karyera uğuru, pul və digər təşviqlər kimi xarici mükafatlardan qaynaqlanır. Tədqiqatlar davamlı olaraq daxili motivasiyanın xarici motivasiyadan daha çox oxu müvəffəqiyyəti ilə əlaqəli olduğunu göstərir. Buna baxmayaraq, tələbələrin əksəriyyətində bütün mövzuları öyrənmək üçün daxili bir motivasiya yoxdur və bu səbəbdən xarici mükafatlar vasitəsilə motivasiyanın artırılması bir müəllim və ya bir valideyn üçün zəruri bir hərəkət yolu ola bilər [17, s.52].

Şagirdlərin bir mövzudakı qavrayış qabiliyyəti, mövzuya xas mənlik anlayışı ilə əlaqələndirilir. Əgər şagirdlər oxu tapşırıqlarını uğurla tamamlaya bilmələrinin mümkün olmayacağına inanarlarsa, bu tapşırığı faydasız hesab edəcəklər və bu, onların motivasiyasına da təsir edəcək. Bunun əksinə olaraq, şagirdlər özlərinə güvənirlərsə, məktəb tapşırığını müvəffəqiyyətlə yerinə yetirmək üçün əzmkar olma ehtimalı daha yüksəkdir [17, s.52-53].

Oxumaq üçün motivasiyası olan və güclü oxu konsepsiyası olan şagirdlər yaşıdlarından daha çox oxumağa və oxumağı daha yaxşı başa düşməyə meyllidirlər. Bu müddət tsiklik ola bilər, çünki yaxşı oxuyan, güclü oxu vərdişlərinə sahib olan tələbələr boş vaxtlarını dəyərləndirmək üçün oxumağa meyllidirlər ki, bu da lüğət, imla qabiliyyətlərini və s. yaxşılaşdıraraq oxu qabiliyyətlərini möhkəmləndirməyə kömək edir [17, s.53].

Boş vaxtlarını dəyərləndirmək üçün oxu vərdişləri çox vaxt gənc oxucuların ailəsi və dostları tərəfindən dəstəklənir; beləliklə, dəstəkləyici bir ev mühiti uşaqların oxuma vərdişlərinin inkişafında təsirli ola bilər. Bununla birlikdə, ev dəstəyi uşaqlar üçün yalnız ibtidai məktəbə başlamazdan əvvəl vacib deyil, ev dəstəyi uşaqların məktəb boyu da oxumasını təşviq etməkdə təsirli ola bilər [17, s.53].

### 1.6. Azərbaycanlı şagirdlərin PİRLS imtahanlarından əldə etdikləri nəticələr

Son 15 ildə şagirdlərin nailiyyətlərinin müəyyən edilməsi ve qiymətləndirilməsi, beynəlxalq səviyyədə olduqca geniş vüsət almış və maraq dairəsində olan bir araşdırma mövzusudur. PIRLS, TİMSS və PİSA kimi proqramlar, ölkələrin təhsil sistemlərinə beynəlxalq səviyyədə təsir göstərən nəticələr səbəb olur. Azərbaycanda da ibtidai təhsillə bağlı kurrikulumun dəyişdirilməsinin başlıca əsasını bu proqram və tədqiqatlar müəyyənləşdirir. Növbəti mərhələ olaraq, orta təhsil pilləsinin təhsil proqramının da bu nəticələrə uyğun şəkildə yenilənməsi nəzərdə tutulur. Şagird nailiyyətinin beynəlxalq miqyasda təhlil edilərək qiymətləndirildiyi bu proqramlarda daha çox mövzunun nə olması deyil, keçirilən dərslərin yekununda şagirdlərin hansı əsas bacarıqlara yiyələnməsinin müəyyən edilməsi vacibdir. Mövzudan əlavə, bacarığı dəyərləndirmək, həm qiymətləndirmə vasitələrinin daha üst səviyyəli hala gəlməsində, həm də dərsin izah olunmasında müəllimin düşünmə bacarıqlarının inkişafı istiqamətində təşviqedici rol oynayır. Qısaca desək, dərslərin ümumi məqsədlərinə fokuslanmağı təmin edir.

Azərbaycanın da 2006 və 2009-cu illərdə PİSA, 2011-ci ildə TİMSS və PİRLS, 2016-cı ildə yenidən PİRLS beynəlxalq qiymətləndirmə imtahanlarında iştirak etməsi

və Təhsil Nazirliyi tərəfindən müəllimlərin peşəkar hazırlığı istiqamətində ixtisasartırma kurslarına cəlb olunması təqdirəlayiqdir. Dördüncü siniflərdə (10-11 yaşlı şagirdlər arasında) oxu bacarığının və oxu məqsədlərinin ölçüldüyü PİRLS imtahanlarının nəticəsinə görə Azərbaycan 2011-ci ildə 462, 2016-cı ildə isə 472 balla 50 ölkə arasında dünya üzrə orta baldan (500 bal) aşağı yer tutmuşdur [3, s.13].

Hər beş ildən bir ibtidai təhsilin sonuncu pilləsini təşkil edən dördüncü sinif şagirdləri arasında PIRLS, yəni oxu bacarığının inkişafı ilə bağlı beynəlxalq tədqiqata qatılır. Bu vaxta qədər ölkəmiz iki dəfə - 2011 və 2016-cı illərdə PİRLS-də iştirak etmişdir. Belə ki, 2011-ci ildə ölkəmizdən qatılan şagirdlərin göstərdiyi nəticə 462 bal olduğu halda, 2016-cı ildə bu nəticə 10 bal artaraq 472 bal olmuşdur. 2011-ci ildə keçirilən PİRLS proqramında ölkəmizdən qatılan şagirdlərdən "mükəmməl" kateqoriyasına daxil olanların sayı 0 faiz olduğu halda, 2016-cı ildə 2 faiz olmuş, "yüksək" kateqoriyasına daxil olanların faizi isə 2011-ci illə müqayisədə 2016-cı ildə 7 faiz artaraq 9 faizdən 16 faizə qədər yüksəlmişdir. 2011-ci illə müqayisədə 2016-cı ildə nəticəsi "aşağı" səviyyəyə uyğun gələn şagirdlərin faiz nisbəti 10 faiz azalaraq 27 faizə enib [29]. PİRLS-ə görə Azərbaycanda vəziyyəti aşağıdakı diaqramla göstərmək olar:

Diaqram 1. Azərbaycanın PİRLS tədqiqatında əldə etdiyi nəticələri [18, s.364]



Bu tədqiqatın nəticələri ölkəmizin məktəb sisteminə də öz təsirinə göstərmişdir. Belə ki, ölkəmizin ümumtəhsil müəssisələrinin ibtidai sinif müəllimlərinin metodiki tövsiyə səciyyəli vəsaitlərinə PIRLS qiymətləndirmə araşdırmasında istifadə edilən mətn və sualların hazırlanma forması daxil edilmişdir. Şagirdlərin oxu qabiliyyətlərini müəyyən etmək məqsədi daşıyan üsullarda PIRLS standartlarına uyğun şəkildə dörd fərqli idrak səviyyəsi nəzərə alınır.

Hər birimizə məlum olduğu üzrə, ötən tədris ilində bütün dünyamızı bürüyən COVİD-19 xəstəliyinə tutulma halının baş verməsinə mane olmaq məqsədilə Nazirlər Kabinetinin qərarı ilə ölkəmizdəki təhsil müəssisələrinin hər birində tədris prosesi dayandırılmış və təhsillə bağlı bütün tədbirlər də təxirə salınmışdı. 2020-ci il mart ayının 3-dən təhsil müəssisələrinin hamısında tədris prosesi mərhələli şəkildə tədris ilinin sonuna qədər dayandırılmışdır. Bu səbəbdən də, PIRLS 2021 ilə bağlı planlaşdırılmış araşdırmanın pilot mərhələsi ləğv olunmuşdur. COVID-19 pandemiyası səbəbindən bu il keçirilməsi gözlənilən başlıca mərhələdə iştirak edəcək məktəblərin sayında da dəyişikliklər baş verib. Beləliklə, Şəki, Gəncə, Sumqayıt, Bakı şəhərləri və Abşeron rayonunun məktəblərində tədris prosesinin distant (onlayn) şəkildə keçirilməsi nəzərdə tutulmuşdu. Pandemiyadan əvvəl 52 region üzrə 200 tədris müəssisəsində keçirilməsi nəzərə alınmış qiymətləndirmə tədqiqatının indi 49 region üzrə 115 məktəbdə keçirilməsi planlaşdırılır. İştirak edən siniflərdə gigiyenik tələblərə riayət edilməsi məqsədilə şagird sayının çox olması hallarında onların yarımqruplara ayrılması planlaşdırılır [29].

Təhsil proqramları müxtəlif maraqlı tərəflərdən ibarət bir bütün olaraq nəzərdən keçirilməlidir. Ümumiyyətlə tədris proqramı, dərslik, müəllim hazırlığı fakültələri, məktəb, valideyn, müəllim və şagird xüsusiyyətləri təhsil fəaliyyətinin keyfiyyətini müəyyənləşdirir. Yalnız dərs vəsaitləri şagirdlərin öyrənməsini təmin etmək üçün kifayət deyil. Təhsil proqramı, müəllim, məktəbin sosial mühiti, sinifin fiziki xüsusiyyətləri, şagirdlərin dil və mədəni xüsusiyyətləri, valideynlərin təhsili və maraq səviyyəsi və s. şagirdin təhsildə qazandığı uğurlara onlarla fərqli faktor təsir edir. Bu

ümumi qərarı verərkən məqsəd, Azərbaycan dili fənn kurikulumunun yalnız Azərbaycan dilinin tədrisindəki müvəffəqiyyəti təyin etmədiyini, bunun digər amillərinin də olduğunu vurğulamaqdır. Bununla birlikdə, təhsil fəaliyyətinin keyfiyyətini təyin edən ən vacib element ardıcıl bir kurikulumdur.

Şagirdin təhsil proqramında müəyyənləşdirilən hədəflərə nə dərəcədə çatdığını ölçən və şagirdin inkişafını qiymətləndirən ölçmə-qiymətləndirmə proqramı, təhsil-tədris prosesinin ən vacib təməl daşlarından biridir. Dərsliklər və təhsil fəaliyyətləri Azərbaycan dili fənn kurikulumunda müəyyən edilmiş nailiyyətlərə uyğun olaraq hazırlanarkən, ölçmə-qiymətləndirmə tətbiqi nailiyyətlərin rəhbərliyi altında hazırlanır. Bu baxımdan Azərbaycan dili fənn kurikulumundakı nailiyyətlər həm dərs müəllifləri, həm müəllimlər, həm də ölçmə və qiymətləndirmə mütəxəssisləri üçün bir bələdçidir. Ana dili dərsləri ümumtəhsil sisteminin ən vacib fənnidir, çünki dil öyrənmənin əsasını təşkil etməklə yanaşı oxuma-anlama, ünisyyət vasitəsi olaraq nitqin formalaşması, yazı bacarığının təkmilləşməsi bu fənnin əsas təlim nəticələridir. Məlumat əldə etmək və ötürmək üçün dilimizdən istifadə edirik. Azərbaycan dili bilikləri inkişaf etməyən şagirdlərin digər fənnlərdə tələb olunan akademik bacarıqlara yiyələnməsini gözləmək olmaz.

### 1.6.1. PİRLS-dəki mətn və tapşırıqlar

PIRLS tədqiqatı ibtidai təhsilin sonuncu pilləsi olan 4-cü sinif şagirdlərinin oxuyub anlama bacarıqlarını fərqli mətn növlərinə görə ölçməyi hədəf aldığından oxuma vərdişləri sahəsində aparılır.

Dünya və özləri haqqında məlumat əldə etmək üçün oxucular bir çox mətn növündən öyrənə bilərlər. Hər hansı bir mətn növü bir çox formada birləşə bilər. Bunlara kitablar, jurnallar, sənədlər və qəzetlər kimi ənənəvi yazılı formalar və e-poçt, mətn mesajları və mətnin tez-tez müxtəlif multimediya formatları ilə inteqrasiya olunduğu İnternet saytları kimi rəqəmsal formalar daxildir.

Şagirdlərin oxu vərdişlərini ölçmək üçün müxtəlif növ mətnlərdən istifadə olunur. Bu mətn növlərinə hekayələr, nağıllar və ya elmi və ətraf mühit hadisələri kimi bədii mətnlər daxildir. Mətnlər, şagirdlərin müvafiq məlumat əldə etmələrini və istifadə etmələrini təmin edən şəkillərlə zənginləşdirilmiş ola bilər. Tələbələrin mətnləri oxuması və bu mətnlərlə bağlı çoxsaylı və açıq suallara cavab vermələri gözlənilir.

Oxuduqlarını ayrı-ayrı fərdlərdən təşkil olunmuş qrup ilə müzakirə etmək, gənc tələbələrin müxtəlif kontekstdə mətn mənası yaratmasına imkan verir.

Bütün vəsaitlərin mənbə versiyaları (qiymətləndirmə kitabçaları, ePIRLS qiymətləndirməsi, anketlər və dərsliklər) ingilis dilində hazırlanmış və hər təhsil sistemində əsas dilə və ya tədris dillərinə tərcümə edilmişdir. Bundan əlavə, bəzən İngilis dilini əsas tədris dili kimi istifadə edən ölkələrdə belə bu vəsaitləri mədəni məqsədlər üçün uyğunlaşdırmaq lazım gəlir. Bütün uyğunlaşmalar sual və ya cavab seçimlərinin mahiyyətini və ya niyyətini dəyişdirmədiklərindən əmin olmaq üçün Beynəlxalq Tədris Mərkəzi tərəfindən nəzərdən keçirilir və təsdiq edilir.

Qiymətləndirmə vasitələrinə müxtəlif ölkələrdən toplanan 4-cü sinif səviyyəli hekayələr və məlumat mətnləri daxildir. Şagirdlərdən konkret fikirləri almaq və bu fikirlərə fokuslanmaq, sadə və daha mürəkkəb nəticələr çıxarmaq, mətn xüsusiyyətlərini araşdırmaq və qiymətləndirmək də daxil olmaqla oxuma vərdişləri və strategiyaları repertuarından istifadə etmələri xahiş olunur.

Ümumiyyətlə, PİRLS tədqiqatlarında istifadə edilən bədii mətnlərə, əsasən hər bir hissəsində təqribi beş yüz-səkkiz yüz sözün olduğu iki, üç, bəzən isə dörd qısa hissədən ibarət olan hekayələr daxildir. On bədii mətn həm klassik, ənənəvi mətnlərdən, həmçinin də müasir dövr mətnlərindən seçilir.

Mətnlərin müxtəlif funksiyalarını ən yaxşı şəkildə həll etmək üçün məlumat mətnin məzmununu, təşkilatını və formasını dəyişərək fərqli şəkildə təqdim edilə bilər. PİRLS-də istifadə edilən informativ mətnlərə elmi, tarixi, coğrafi və ya sosial məzmun daxil olmaqla bir sıra məzmunu əhatə edən mətnlər daxildir. Bu mətnlərin də quruluşu və söz sayı bədii ətnlərdə olduğu kimidir. Yəni, təxminən hər mətndə 500 söz olur,

elementar məzmun xətti və cümlələri olur, nisbətən çətin mətnlərdə söz sayı 800-ə qədər arta, şagirdlərin bilmədiyi sözlər ola bilər [18, s.51].

PİRLS mətnlərindən nümunə:

***Nəhəng dişin sirri***

*Uzun müddət əvvəl nəhəng fosil tapan insanlar onların nə olduqlarını bilmirdilər. Bəziləri bu sümüklərin begemot və ya fillər kimi gördükləri və ya oxuduqları heyvanlara aid olduqlarını düşünürdülər. Ancaq insanların tapdıqları bəzi sümüklər ən böyük begemot və ya filə aid olmaq üçün belə çox böyük idi. Bu inanılmaz dərəcədə böyük sümüklər bəzi insanların nəhənglərə inanmasına səbəb oldu.*

*Yüz illər əvvəl Fransada Bernard Palissi adlı bir adam başqa bir fikir irəli sürdü. O, Məşhur bir saxsı istehsalçısı idi. Bir gün qablarını düzəltməyə gedərkən, gildən bir çox kiçik fosil tapdı. Fosilləri araşdıraraq canlıların qalıqları olduğunu yazdı. Bu yeni bir fikir deyildi. Ancaq Bernard Palissi ayrıca bu canlıların bəzilərinin yer üzündə yaşamadığını da yazdı. Onlar tamamilə yoxa çıxmışdılar, onların nəsilləri kəsilmişdi.*

*Bernard Palissi kəşfinə görə mükafatlandırıldı? Yox! O, bu fikirlərinə görə həbsxanaya salındı.*

*Vaxt keçdikcə bəzi insanlar dünyanın əvvəllər necə olması ilə bağlı yeni fikirlərə daha çox açıq oldular.*

*Sonra 1820-ci illərdə İngiltərədə nəhəng bir fosil dişinə rast gəlindi. Bu şəxsin fosil mütəxəssisi Gideon Mantelin gəzintiyə çıxan həyat yoldaşı Mari Anna Mantel olduğu düşünülür. Mari bu böyük dişin fosil olduğunu bilirdi, odur ki, onu ərinə gətirdi.*

*Gideon Mantel ilk dəfə fosil dişinə baxdıqda, düz və silsilələri olduğu üçün bitki yeyənə aid olduğunu düşündü. O, yemək çeynəməkdən aşınmışdı. Bu, demək olar ki, filin dişi qədər idi. Amma fil dişinə heç bir bənzərliyi yox idi.*

*Gideon Mantel dişə yapışmış qaya parçalarının çox köhnə olduğunu deyə bilərdi. O, bilirdi ki, bu qayalar sürünənlərin fosillərinin tapıldığı qaya növündən idi. Bu diş yeməyini çeynəyən, bitki yeyən nəhəng bir sürünənə aid ola bilərdimi? Artıq yer üzündə yaşamayan bir sürünən növünə?*

*Gideon Mantel həqiqətən bu böyük dişdən təəccübləndi. O, yeməyini çeynəyən bir sürünən bilmirdi. Sürünənlər yeməklərini udduqları üçün dişləri aşınmazdı. Bu, sirli bir şey idi.*

*Gideon Mantel dişi Londondakı bir muzeyə apararaq digər alimlərə göstərdi. Heç kim Gideon Mantelin bu dişin nəhəng bir sürünənə aid olması fikri ilə razılaşmadı. Gideon Mantel, nəhəng dişə bənzəyən bir dişi olan sürünən tapmağa çalışdı. Uzun bir müddət o, heç nə tapmadı. Sonra bir gün iquanaları öyrənən bir alimlə tanış oldu. İquana, Mərkəzi və Cənubi Amerikada tapılan bitki yeyən böyük bir sürünəndir. Onun uzunluğu beş futdan da artıq ola bilər. Alim Gideon Mantelə bir iquana dişini göstərdi. Nəhayət! Budur, bu, sirli dişə bənzəyən canlı bir sürünənin dişidir. Yalnız fosil diş çox daha böyük idi.*

*İndi Gideon Mantel, fosil dişinin iquanaya bənzəyən bir heyvana məxsus olduğuna inanırdı. Sadəcə olaraq o, beş fut uzunluğunda deyildi. Gideon Mantel bunun yüz fut uzunluğunda olduğuna inanırdı! O, bu canlıya "iquanadon" adını verdi, mənası "iquanadiş" deməkdir.*

*Gideon Mantel "iquadon"-un bütöv skeletinə sahib deyildi. Ancaq illər ərzində topladığı sümüklərdən onunn necə görünə biləcəyini anlamağa çalışdı. O, sümüklərin həmin məxluqun dörd ayağı üzərində yeriydiyini göstərdiyini düşünürdü. O, tapılmış sivri sümüyün buynuz olduğunu düşünürdü. Beləliklə, o, burnunda buynuzu olan bir İguanodon çəkdi.*

*İllər sonra bir neçə tam Iguanodon skeleti tapıldı. Onlar yalnız otuz fut uzunluğundadırlar. Sümüklər onun bir müddət arxa ayaqları ilə getdiyini göstərdi. Gideon Mantelin burnundakı buynuz olduğunu düşündüyü şey isə onun "baş barmağında" bir sümük idi! Bu kəşflərə əsaslanaraq, elm adamları İguanodonun görünüşü barədə fikirlərini dəyişdirdilər.*

*Gideon Mantel bəzi səhvlərə yol verdi. Ancaq o da əhəmiyyətli bir kəşf etmişdi. İlk dəfə o fosil dişinin bitki yeyən nəhəng bir sürünənə aid olması fikrini irəli sürmüş və haqlı olduğunu sübut etmək üçün uzun illər faktlar və dəlillər toplamağa başlamışdı.*

*Gideon Mantel araşdırması zamanı diqqətli təxminlər edərək, əvvəllər nəhəng sürünənlərin yer üzündə yaşadığını göstərən ilk insanlardan biri idi. Və sonra onların nəsilləri kəsilmişdi.*

*Yüz illər əvvəl Bernard Palissi təxminən eyni şeyi söylədiyinə görə həbsxanaya atılmışdı. Lakin Gideon Mantel məşhur oldu. Onun kəşfi insanları bu nəhəng sürünənlər haqqında daha çox şey öyrənmək üçün maraqlandırdı.*

*1842-ci ildə Riçard Ovın adlı bir alim bu nəsli kəsilmiş sürünənlərin öz adlarına ehtiyacları olduğuna qərar verdi. O, onları "Dinosauria" (dinozavr) adlandırdı. Bu "qorxulu dərəcədə böyük kərtənkələ" deməkdir. Bugün biz bu canlıları dinozavr adlandırırıq.*

*Bu mətn 2016 PİRLS-də təqdim edilmiş mətn nümunəsidir. İndi isə bu mətnlə bağlı şagirdlərə təqdim edilmiş çalışmaların bəzilərinə nəzər salaq:*

***Suallar:***

1. *Fosil nədir?*

A) *Qayaların səthi*

B) *Nəhəng varlıqların sümükləri*

C) *Çox qədim zamanlarda yaşayan canllıların qalıqları*

D) *Fil dişi*

2. *Mətnə əsasən, qədimdə insanların nəhəng varlıqlara inanmasının səbəbini yazın:*

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

3. *Bernard Palissi fosili haradan tapmışdı?*

A) *Qayalıqdan*

B) *Gildən*

C) *Çaydan*

D) *Yoldan*

4. *Bernard Palissinin yeni fikri nə idi?*

______________________________________________

______________________________________________

______________________________________________

5. *Niyə Bernard Palissi həbsə salındı?*

*A) Insanlar yeni fikirlərə açıq deyildi.*

*B) O, Gideon Mantelin fikirlərini mənimsəmişdi.*

*C) O, kiçik fosilləri saxsı qablarda unutmuşdu.*

*D) Fransada fosillərin araşdırılmasından qorxurdular.*

6. *İngiltərədə fosil dişi kim tapdı?*

*A) Bernard Palissi*

*B) Mari Anna Mantel*

*C) Riçard Ovın*

*D) Gideon Mantel*

7. *Sürünənlərlə bağlı hansı məlumat Gideon Manteli fosil dişlə bağlı çaşdırırdı?*

*A) Sürünənlərin dişlərinin olmaması.*

*B) Sürünənlərin qayaların altında tapılması.*

*C) Sürünənlərin uzun illər öncə yaşamış olması.*

*D) Sürünənlərin öz qidalarını udması.*

8. *Gideon Mantel niyə fosil dişi muzeyə apardı?*

*A) Fosilin muzeyə məxsus olub olmadığını soruşmaq üçün*

*B) Fosil mütəxəssisi olduğunu sübut etmək üçün*

*C) Alimlərin onun ideyaları haqqındakı fikirlərini öyrənmək üçün*

*D) Fosil dişi muzeydəki digər fosillərlə müqayisə etmək üçün*

9. *Alimin Gideon Mantelə iquana dişi göstərməsi onun üçün niyə vacib idi?*

______________________________________________

______________________________________________

______________________________________________

*10.Gideon Mantel iguanodonun nəyə bənzədiyini müəyyənləşdirmək üçün nələrdən istifadə etmişdi?*

*A) Topladığı sümüklərdən*

*B) Digər alimlərin fikirlərindən*

*C) Kitablardakı şəkillərdən*

*D) Digər sürünənlərin dişlərindən*

*11.Sonrakı kəşflər İquanodonun görünüşü ilə bağlı Gideon Mantelin bir sıra səhvlərə yol verdiyini sübut etdi. Bununla bağlı aşağıdakı cədvəli tamamlayın:*

| ***İquanodonun görünüşü ilə bağlı Gideon Mantelin düşüncəsi:*** | ***İquadonun görünüşü ilə bağlı alimlərin bugünkü fikirləri:*** |
|---|---|
| *İquanodon dörd ayağı üzərində gəzirdi.* | |
| | *İquadonun baş barmağında sivri çıxıntı var idi.* |
| *İquanodon 100 fut uzunluğunda idi.* | |

*12.İquanodonun görünüşü ilə bağlı Gideon Mantelin bir sıra səhvlərə yol verməsi necə müəyyənləşdi?*

*A) Daha çox fosil dişlə*

*B) Elmi rəsmlərlə*

*C) Yaşayan iquanodonlarla*

*D) Bütöv skeletlə*

***Mənbə:*** *M.O.Martin, İ.V.S.Mullis. Assessment Framework – 2ci nəşr. 2015, s.119-129*

### *Cəsur Şarlotta*

*Şarlotta hələ ən başından digər qoyunlardan fərqlənirdi. Qalan bütün quzular analarının yanında utancaq dayandıqda, Şarlotta ətrafda sıçrayır, macəra axtarırdı.*

*Şarlotta, bütün digər qoyunlarla birlikdə fermadan uzaq bir təpədə yaşayırdı. Onlara baxan bir çoban və Cek adlı qoca bir iti var idi. Cek Şarlottanı nəzarət altında saxlamağa çalışdı, amma Şarlotta ondan qorxmadı.*

1. *Cek kim idi?*

---

2. *Cekin Şarlotta ilə bağlı planı nə idi?*

---

*Bir dəfə, Şarlotta bir çay sahilinin kənarından tullanaraq sürətlə axan dərədə üzməyə getdi.*

*"Nç, nç" dedi yaşlı qoyunlar başlarını yelləyərək.*

*Gecələr Şarlottanın gizli şəkildə çöllərdə gəzdiyini bilsəydilər nə deyərdilər?*

*Qalan bütün qoyunlar yatanda o, öz gizli yerinə qaçıb aya baxırdı. Hətta Cek də fərqinə varmadı. Ancaq o, bu günlərdə çox yaxşı eşitmirdi.*

3. *Şarlottanın digər qoyunlardan fərqli olduğunu sübut edən 2 məqamı söylə.*

---

4. *Nə üçün Şarlottanın gecələr gəzintiyə çıxmasından Cekin xəbəri yox idi?*

---

*Bir gün dəhşətli bir şey oldu. Çoban yıxılaraq ayağını sındırdı. Cek hürdü və ətrafında dövrə vurdu, amma bu heç bir kömək etmədi. Çoban nə edəcəyini bilmədən çəmənlikdə uzandı. Yaşlı qoyunlar: "Ay canım, ah canım" dedi. "Kimsə vadidəki fermerin evinə gedib kömək çağırmalıdır".*

*"Cek getməlidir. Yolu bilən təkcə odur".*

*"Ancaq yol çox uzaqdır. O isə bu günlərdə sürü ilə çətinliklə məşğul olur".*

*"Bəli, bu doğrudur" deyən digərləri ümidsizliklə başlarını yellədilər.*

5. *Çoban nə üçün çəmənlikdə uzanmışdı?*

A) *O, fermerə baş çəkmək istəmirdi.*

B) *O, ayağını sındırmışdı.*

*C) O, yatmaq istəyirdi.*

*D) O, aya tamaşa edirdi.*

*6. Heyvanlar köməyi hardan tapmağı fikirləşirdilər?*

---

*7. Nə üçün kömək çağırmaq üçün Cek ən yaxşı namizəd idi?*

---

*8. Nə üçün Cek kömək çağırmaq üçün uyğun deyildi?*

---

*Sonra Şarlotta dedi: "Mən gedərəm".*

*"Şarlotta?" deyə mızıldandı yaşlı qoyunlar.*

*"Bu müzakirədən kınardı. Qoyunlar heç vaxt vadiyə tək getməyiblər".*

*Yaşlı qoyunlar narahat idilər. Ancaq Şarlotta onları eşitmədi. O, artıq vadiyə doğru yolu tapmaq üçün ayrılmışdı.*

*O, tarlalardan, dərədən və dağın üstündən keçdi.*

*9. Şarlotta getdikdən sonra yaşlı qoyun hansı hissləri keçirirdilər?*

*A) Xoşbəxt*

*B) Rahat*

*C) Narahat*

*D) əsəbi*

*Şarlotta sıx yola çatanda gecəyarısı idi. O, ayağa qalxdı və yoldan keçən maşınlara baxdı. Yük maşını sürücüsü Şarlottanı görüb yolda dayandı.*

*"Vadiyə gedirsən?" deyə soruşdu. Şarlotta başını tərpətdi.*

*10.Şarlotta yola nə vaxt çatdı?*

---

*11.Şarlotta yola çatanda nə etdi?*

*A) O, fermerin evinə tərəf getdi.*

*B) O, dayandı və maşınlara baxdı.*

*C) O, yolu keçməyə çalışdı.*

*D) O, yük maşınını dayandırmaq üçün əl yellədi.*

*Yük maşını ilə sürətlə getmək o qədər gözəl idi ki, Şarlotta fermerin evinə çatanda az qala kefi pozulmuşdu.*

*Şarlotta burnu ilə pəncərəsinə vurduqda fermer yuxuda idi. "Bu Şarlottadır" dedi fermer, "o təkdir. Deyəsən nə isə problem var".*

*12.Şarlotta fermerin evinə çatanda niyə pis olmuşdu?*

*A) O, digər qoyunlar üçün darıxırdı.*

*B) O, fermeri oyatmalı olacaqdı.*

*C) O, yük maşınında getməyi xoşlamışdı.*

*D) O, çoban üçün narahat idi.*

*13.Fermer problem olduğunu necə başa düşdü?*

*A) Şarlotta tək idi.*

*B) Şarlotta ona dedi.*

*C) Şarlotta yük maşınında gəlmişdi.*

*D) Şarlotta qəmgin görünürdü.*

*Şarlotta və fermer traktora minərək digər qoyunları tapdılar. Onlar gələndə yazıq çoban hələ də otun üstündə uzanmışdı. Fermer onu dərhal xəstəxanaya apardı.*

*Çoban, qoyunların yanına qayıtmazdan əvvəl altı ay ərzində gipsdə qaldı. Qayıdanda Şarlottaya gülümsədi. O vaxtdan etibarən Şarlotta istədiyi kimi sərbəst gəzə bildi.*

*14.Fermer Şarlotta ilə birlikdə nə etdilər?*

___

*15.Çobanın ayağı neçə müddət gipsdə qaldı?*

---

*16.Çoban nə üçün Şarlottaya gülümsədi?*

---

***Mənbə:*** *M.O.Martin, İ.V.S.Mullis. Assessment Framework – 2ci nəşr. 2015, s.142-155*

Bu nümunədən göründüyü kimi PİRLS proqramında şagirdlərə əvvəlcə mətn verilir və daha sonra bu mətnə aid sualların olduğu vərəq verilir. Beləliklə, şagirdlərin oxuyub anlama bacarıqları müəyyən edilir. Hazırda ölkəmizdə istər xarici dil dərsliklərində, istərsə də Azərbaycan dili dərsliklərində bu tipdə oxu materialları və tapşırıqlarının verilməsi xüsusi diqqət mərkəzindədir. Magistr dissertasiya işində bununla bağlı sonrakı yazılarda daha ətraflı məlumat verilmişdir.

## II Fəsil. 4-cü sinif Azərbaycan dili dərsliyində verilmiş mətn və tapşırıqların PİRLS tədqiqatının səviyyələri baxımından təhlil olunması

### 2.1. Dərslikdəki mətn və tapşırıqların PİRLS-dəki mətn və tapşırıqların səviyyəsinə uyğunluğu

Oxu – insanın anadangəlmə bacarıqları sırasına daxil olmayıb, sonradan təhsil prosesində formalaşdırdığı bacarıq və sosial tələbatlardan biri olub, onun dünyagörüşünə və kommunikasiya və koqnitiv (idrak) bacarıqlarına bilvasitə təsir göstərən fəaliyyət növüdür. Oxuyub anlama prosesində şagirdlərə yalnız intonasiyalı və sürətli oxu bacarıqları deyil, eləcə də qavrama, oxuduqları mövzulara qısa xülasə vermə, öyrəndikləri yeni bilikləri əvvəlkiləri ilə müqayisə etmə, mətnlərin məzmunundan nəticə çıxarma, hadisələrin gedişatını təxmin etmə kimi bir çox bacarıqları da aşılayır. Elə bu səbəbdən də, oxuyub anlama bacarığının formalaşdırılması və inkişaf etdirilməsinin əhəmiyyəti beynəlxalq səviyyədə müəyyənləşdirilir və onun ayrı-ayrı ölkələrdəki səviyyəsini ölçmək məqsədilə PİRLS tədqiqatı yaradılmışdır [3, s.13].

PİRLS tədqiqatında şagirdlərin oxuyub anlama bacarıqlarını ölçmək üçün aşağı, orta, yaxşı və mükəmməl olmaqla dörd səviyyə ayırd edilir. Bu proqrama 2011-ci ildə qatılmış ölkəmiz, 2011-ci ildə 462, 2016-cı ildə 472 balla orta səviyyədə qərarlaşmışdır. PİRLS tədqiqatının ölkələr üzrə nəticlərinin təhlili göstərir ki, qız şagirdlərin nəticələri oğlan şagirdlərin nəticələrindən daha yaxşı olur. Azərbaycandan da yarışmaya qatılmış şagirdlərdən qızlar oğlanlardan 13 bal daha yüksək nəticə göstərmişlər.

Dissertasiyanın bu hissəsində, dördüncü sinif Azərbaycan dili dərsliyindəki mətnlərin məzmununun və tapşırıqların PİRLS-in səviyyələrinə uyğunluğunun təhlili aparılacaqdır.

### 2.1.1. Məzmun standartlarının PİRLS-lə uyğunluğu

Oxu savadının formalaşdırılmasındakı məqsədlər, "Azərbaycan dili" fənninin kurrikulumuna əsasən belədir: "Oxuyub anlama şagirdlərin dili daha yaxşı duymalarına, hiss etmələrinə, öz emosiyalarını və düşüncələrini daha yaxşı ifadə edə bilmələrinə, danışıq zamanı sözlərdən düzgün istifadə edə bilmələrinə, oxuduqları şeyləri qavramaq bacarıqlarının inkişafına, şagirdlərdə oxumağa marağın inkişafına kömək edir. Beləliklə, bu məzmun xətti ilə ayrı-ayrı üslublarda qələmə alınmış mətnlərin forma, eləcə də məzmun elementlərinin sərbəst şəkildə mənimsənilməsinə şərait yaranır, şagirdlərin öz doğma dillərinə, bu dildə qələmə alınmış həm bədii, həmçinin də informativ mətn növlərinə maraqları artır, onların söz ehtiyatının artırılması nəticəsində ümumi nitq mədəniyyətləri inkişaf edir" [3, s.14].

İbtidai təhsil pilləsi üzrə oxunun məqsədlərinin iki əsas və otuz üç alt standardları ayırd edilir. Başlıca standartların biri ibtidai təhsilin bütün pillələrində şagirdlərin oxuduqları mətnlərdəki sözlərin mənalarını anladıqlarına, ikincisi isə birinci sinif şagirdlərinin oxu texnikası və bacarıqlarını qazanmalarını, ikinci və üçüncü sinif şagirdlərinin oxu bacarıqları qazanmalarını, dördüncü sinif şagirdlərinin oxu vərdişləri qazanmalarını əks etdirir [5].

Bu iki başlıca standarddan birincisinin alt standardlarına şagirdlərin oxu zamanı qarşılaşdıqları yeni sözlərin daşıdıqları mənaları öyrənir, izah edir və fərqləndirirlər. İkinci əsas standardın alt standardlarına isə, şagirdlərin sürətli, intonasiyalı, düzgün oxu bacarığını formalaşdırmaqla şüurlu oxumalarını təmin etmək, müxtəlif şəkillərdən, cədvəllərdən və ya suallardan istifadə etməklə mətnin məzmununun planını hazırlamalarını, mətnin ideya və məzmununun qısa xülasəsini vermələrini və s. təmin etmək aiddir [5].

Ayrı-ayrı ölkələrdəki 4-cü sinif şagirdlərinin oxu savadını müəyyənləşdirmək və bu sahədə inkişafı təmin etmək üçün beynəlxalq qiymətləndirmə proqramlarından biri olan PİRLS tədqiqatı, şagirdlərin məktəb daxilində və xaricində oxu prosesi ilə məşğul olmalarının iki səbəbini müəyyən etmişdir. Bunlardan biri oxu təcrübəsi əldə etmək məqsədilə oxumaq, digəri isə yeni informasiyalar almaq və onlardan istifadəni təmin etmək məqsədilə oxumaqdır. PIRLS qiymətləndirmələri oxumaq üçün bu iki məqsədin hər birində dörd növ anlama prosesini birləşdirir:

1. Açıq şəkildə ifadə olunmuş məlumata fokuslanmaq və qəbul etmək;
2. Birbaşa nəticə çıxarmaq;
3. Məlumat və ideyaları əlaqələndirmək və şərh etmək;
4. Məzmun və mətn elementlərinin qiymətləndirilməsi və tənqidi [17, s.13].

2016-cı ildə təşkil olunmuş PİRLS tədqiqatında istifadə edilmiş iyirmi mətndən onu bədii, onu informativ mətn növündə olmuş, bunlardan səkkizi ənənəvi oxuyub anlama bacarığını, səkkizi oxu savadını, dördü isə həm ənənəvi oxuyub anlamanı, həmçinin də oxu savadını müəyyənləşdirməyə xidmət edirdi.

PİRLS tədqiqatında oxu savadının qiymətləndirilməsi dörd səviyyə üzrə aparılır. Bu səviyyələrin hər birinin öz standardları vardır.

1. ***Ən yüksək səviyyə (625 bal). Nisbətən çətin bədii mətnləri oxuyarkən, şagirdlər aşağıdakıları bacarmalıdır:***

- Mətnə əsaslanaraq, hadisələrin səbəblərini və inkişafını və personajların fəaliyyətlərini, maraqlarını, hisslərini şərh etmək;

- Müəllifin dil və üslub seçimlərinin oxucuya təsirini qiymətləndirmək.

***Nisbətən çətin informativ mətnləri oxuyarkən şagirdlər aşağıdakıları bacarmalıdır:***

- Mətnə əsaslanaraq, onun ayrı-ayrı hissələrindəki mürəkkəb məlumatları ayırd etmək və şərh etmək;
- Mətndəki hadisələrin ardıcıllığını və bir-birləri ilə bağlılığını izah etmək məqsədilə informasiyaları birləşdirmək;
- Yazıçının baxış tərzini müəyyən etmək məqsədilə mətndəki vizual və mətn elementlərini qiymətləndirməyə başlamaq [3, s.15].

2. ***Yüksək səviyyə (550 bal). Nisbətən çətin bədii mətnləri oxuyarkən, şagirdlər aşağıdakıları bacarmalıdır:***

- Mətndə yerləşdirilmiş mühüm hadisələri və sətraltı detalları tapmaq və ayırd etmək;
- Mətndən nümunələr verməklə mətnin məzmunu, mətndəki hadisələr, məqsədlər arasındakı əlaqələri izah etmək;
- Mətndəki hadisələrlə xarakterlərin fəaliyyətlərini, hisslərini əlaqələndirmək və şərh etmək;
- Mətndə istifadə edilmiş dil xüsusiyyətlərini müəyyənləşdirmək.

***Nisbətən çətin informativ mətnləri oxuyarkən şagirdlər aşağıdakıları bacarmalıdır:***

- Mürəkkəb mətn və cədvəllərdəki müvafiq məlumatları müəyyənləşdirmək və ayırd etmək;
- Izahatlar vermək və səbəb gətirmək üçün məntiqi əlaqələr qurmaqla nəticə çıxarmaq;
- Mətnin ideyaları arasında mövcud olan əlaqələri müəyyən etmək məqsədilə mətndəki vizual və yazılı informasiyaları əlaqələndirmək;
- Məzmun və mətn elementlərini ümumiləşdirmək və qiymətləndirmək [3, s.15].

3. ***Orta səviyyə (475 bal). Daha sadə və nisbətən çətin bədii mətnləri oxuyarkən, şagirdlər aşağıdakıları bacarmalıdır:***

- Mətndə açıq-aşkar verilmiş məqamları, hadisələri və duyğuları sərbəst formada müəyyən etmək və şərh etmək;
- Mətndəki baş qəhrəmanların duyğuları, motivasiya və münasibətləri ilə bağlı birbaşa nəticə çıxarmaq;
- Mətndəki hadisələr arasında mövcud olan aşkar səbəb və nəticələri nəql etmək, faktları yada salaraq mətndən nümunələr gətirmək;
- Mətndəki dil xüsusiyyətlərini yada salmağa başlamaq.

***Daha sadə və nisbətən çətin informativ mətnləri oxuyarkən şagirdlər aşağıdakıları bacarmalıdır:***

- Mətndə verilmiş məlumatlardan bir neçəsini tapmaq və qeyd etmək;
- Real, faktiki izahlar vermək məqsədilə birbaşa nəticələr çıxarmaq;
- Hadisələri sıralamaq üçün məlumatları şərh etmək və əlaqələndirməyə başlamaq [3, s.16].

4. ***Aşağı səviyyə (400 bal). Daha asan bədii mətnləri oxuyarkən, şagirdlər aşağıdakıları bacarmalıdır:***

- Mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları tapmaq və mənimsəmək;
- Mətndə qələmə alınan hadisələrin səbəbləri barədə birbaşa nəticə çıxarmaq;
- Mətndəki hadisələri və onun başlıca ideyalarını şərh etməyə başlamaq.

***Daha asan informativ mətnləri oxuyarkən şagirdlər aşağıdakıları bacarmalıdır:***

- Mətndən və ya cədvəl, diaqram və s. kimi digər formatlardan açıq-aşkar ifadə edilmiş informasiyaların tapılması və yazılması;
- Izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmağa başlamaq [3, s.16].

Cədvəl 3. PİRLS-in səviyyələri üzrə meyarlar [3, s.16-17]

| | | |
|---|---|---|
| 625 | Ən yüksək səviyyə | **Nisbətən mürəkkəb ədəbi mətnləri oxuduğu zaman şagird bacarmalıdır:** |
| | | — hekayəyə əsaslanaraq obrazların səciyyəvi xüsusiyyətlərini, hisslərini, motivsiyalarını və hadisələrin səbəblərini təsvir etmək üçün obrazların hərəkətlərini və hekayədəki hadisələri şərh etməyi;<br>— müəllifin dil və üslubi xüsusiyyətlərinin oxucu üzərindəki təsirini dəyərləndirməyi. |
| | | **Nisbətən mürəkkəb məlumatlandırıcı mətnləri oxuduğu zaman şagird bacarmalıdır:** |
| | | — mətnə əsaslanaraq, mətnin müxtəlif hissələrindəki kompleks məlumatı şərh etməyi və fərqləndirməyi;<br>— hadisələrin ardıcıllığını və əlaqələrini açıqlamaq üçün mətndəki məlumatları əlaqələndirməyi;<br>— müəllifin mövqeyini müəyyənləşdirmək üçün mətndəki yazılı və vizual elementləri dəyərləndirməyi. |
| 550 | Yüksək səviyyə | **Nisbətən mürəkkəb ədəbi mətnləri oxuduğu zaman şagird bacarmalıdır:** |
| | | — mətndə sətraltı verilmiş detalları və mühüm məqamları müəyyənləşdirməyi və fərqləndirməyi;<br>— mətndəki hadisələr, məqamlar, məqsədlər arasındakı əlaqələri açıqlamaq üçün məna çıxarmağı və bunlara dair mətndən nümunələr verməyi;<br>— hekayədəki hadisələri, obrazların xarakterlərini, mətndəki səciyyəvi xüsusiyyətlərini, hiss və duyğularını əlaqələndirməyi və şərh etməyi;<br>— mətnin məsələn, bənzətmə, obrazlılıq kimi bəzi dil xüsusiyyətlərini xatırlamağı. |
| | | **Nisbətən mürəkkəb məlumatlandırıcı mətnləri oxuduğu zaman şagird bacarmalıdır:** |
| | | — qarışıq cədvəllər və anlaşılması çətin mətnlərdəki məlumatları ayırd etdirməyi və müəyyənləşdirməyi;<br>— məlumatla əlaqədar səbəbləri göstərmək və izahatlar vermək üçün məntiqi əlaqələr quraraq nəticə çıxarmağı;<br>— ideyalar arasındakı əlaqələri şərh etmək üçün vizual və mətndəki məlumatları əlaqələndirməyi;<br>— məzmun və mətn xüsusiyyətlərini ümumiləşdirməyi və dəyərləndirməyi. |
| 475 | Orta səviyyə | **Sadə və nisbətən mürəkkəb ədəbi mətnləri oxuduğu zaman şagird bacarmalıdır:** |
| | | — mətndə açıqca ifadə olunmuş hiss, hadisə və məqamları xatırlamağı, müstəqil şəkildə təyin etməyi və ortaya çıxarmağı;<br>— mətndəki atributlardan, hislər və əsas obrazların motivasiyalarından birbaşa məna çıxarmağı;<br>— bariz səbəb-nəticələri şərh etməyi, faktları xatırlamağı və nümunələr verməyi;<br>— mətnin dil xüsusiyyətlərini (frazeoloji birləşmələr, çoxmənalılıq və s.) xatırlamağı. |
| | | **Sadə və nisbətən mürəkkəb məlumatlandırıcı mətnləri oxuduğu zaman şagird bacarmalıdır:** |
| | | — mətndəki məlumatın 2 və ya 3 hissəsini təyin edib ortaya çıxarmağı;<br>— faktlara əsaslanan izahatlar vermək üçün mətndən birbaşa nəticə çıxarmağı;<br>— məlumatları hadisələrə görə uyğunlaşdırıb şərh etməyi. |

| | | |
|---|---|---|
| 400 | Aşağı səviyyə | Sadə ədəbi mətnləri oxuduğu zaman şagird bacarmalıdır: |
| | | – mətndə açıq ifadə olunmuş məlumatı, davranış və məqamları və ya ideyanı təyin etməyi və ya xatırlamağı;<br>– mətndə baş verən hadisələr, hərəkət və davranışların səbəbi haqqında birbaşa nəticə çıxarmağı;<br>– hekayədəki hadisələri və əsas ideyaları şərh etməyi. |
| | | Sadə məlumatlandırıcı mətnləri oxuduğu zaman şagird bacarmalıdır: |
| | | – açıq şəkildə ifadə olunmuş məlumatın mətndə və ya diaqram, cədvəl, sxem və s. formada müəyyənləşdirməyi;<br>– mətndəki açıqlamalar, hərəkətlər və təsvirlər haqqında birbaşa nətcə çıxarmağı. |

**Cədvəl 4.** Azərbaycanlı şagirdlərin PİRLS 2011 tədqiqatında iştirakının nəticələrinin beynəlxalq ortalama ilə müqayisəsi:

| **PİRLS-in səviyyələri** | **Ən yüksək səviyyə (625 bal)** | **Yüksək səviyyə (550 bal)** | **Orta səviyyə (475 bal)** | **Aşağı səviyyə (400 bal)** |
|---|---|---|---|---|
| **Azərbaycanlı şagirdlərin nəticələri** | 0 | 9 (0,7) | 27 (2,5) | 92 (1,1) |
| **Beynəlxalq ortalama** | 10 | 56 | 76 | 89 |

Cədvələ nəzər saldığımız zaman 2011-ci ildə Azərbaycanlı şagirdlərin PİRLS tədqiqatı üzrə nəticələrində aşağı səviyyə üzrə nəticə ən yüksək olduğu halda, ən yüksək səviyyədə 0 nəticə göstərilmişdir. Orta səviyyə üzrə beynəlxalq ortalama 76, azərbaycanlı şagirdlərin nəticələri isə 27 olmuşdur. Ən yüksək səviyyə üzrə şagirdlərimizin nəticəsi beynəlxalq ortalamadan təqribən 6 dəfə aşağıdır.

**Cədvəl 5.** Azərbaycanlı şagirdlərin PİRLS 2016 tədqiqatında iştirakının nəticələrinin beynəlxalq ortalama ilə müqayisəsi[3, s.17]:

| PİRLS-in səviyyələri | Ən yüksək səviyyə (625 bal) | Yüksək səviyyə (550 bal) | Orta səviyyə (475 bal) | Aşağı səviyyə (400 bal) |
|---|---|---|---|---|
| **Azərbaycanlı şagirdlərin nəticələri** | 2(0.3) | 18 (1.1) | 54 (2.0) | 81 (1.7) |
| **Beynəlxalq ortalama** | 10 | 47 | 82 | 96 |

Buradan da məlum olduğu üzrə, 2016-cı ildə ən yüksək səviyyə üzrə beynəlxalq ortalama 10 olduğu halda, Azərbaycanlı şagirdlərin əldə etdiyi nəticə 2, yüksək səviyyə üzrə beynəlxalq ortalama 47 olduğu halda şagirdlərimizin nəticəsi 18, orta səviyyə üzrə beynəlxalq ortalama 82 olduğu halda, şagirdlərimizin əldə etdiyi nəticə 54, aşağı səviyyə üzrə beynəlxalq ortalama 96 olduğu halda, şagirdlərimizin nəticəsi 81 olmuşdur. Beləliklə, Azərbaycanlı şagirdlərin heç bir səviyyədə, hətta aşağı səviyyədəki ortalamaya çata bilmədiyinin şahidi oluruq [3, s.17].

PİRLS-in səviyyələri üzrə standardlarından məlum olduğu üzrə, bu proqram, şagirdlərdən şərh etmək, mətnin məzmun və ideyasını qavrayaraq nəticə çıxarmaq, mətndəki məlumatları yadda saxlamaq, təhlil etmək, əlaqələndirmək və onlara tənqidi yanaşmaq kimi mühüm bacarıqlar tələb edir. Odur ki, ölkəmizdəki dördüncü sinif şagirdlərinin oxu savadı nəticələrini inkişaf etdirmək üçün PİRLS-lə Azərbaycan dili fənninin oxu standardlarında qeyd olunmuş bacarıqları və məzmununun qarşılıqlı müqayisəsini aparmaq lazımdır.

Yuxarıda PİRLS-in səviyyələri üzrə şagirdlərdən tələb olunan bacarıqlardan aşağı səviyyəyə daxil olan bacarıqlardan yalnız "mətndəki hadisələri və başlıca ideyaları şərh etmək" bacarığı dördüncü sinif üzrə oxu standardlarındakı yalnız "mətnin başlıca ideyasının müəyyən edilməsi və mətndəki personajların sadə formada şərh edilməsi" bacarığı ilə qismən uyğunluq təşkil edir. Bu bacarıqlardan "mətndə açıq-

aşkar verilmiş informasiya, hadisə və ideyaları tapmaq və mənimsəmək” bacarığı isə, birinci sinif oxu standardlarındakı “mətndəki başlıca fikri müəyyən etmək və sadə şəkildə şərh etmək” bacarığına uyğun gəlir [3, s.18].

PİRLS-in orta səviyyəsi üzrə şagirdlərdən gözlənilən bacarıqlardan “mətnin dil xüsusiyyətlərini ayırd etmək” bacarığı ölkəmizdə ibtidai siniflər üçün müəyyən edilmiş oxu standardlarına uyğun gəlir [3, s.18].

PİRLS-in yüksək səviyyəsi üzrə şagirdlərdən gözlənilən bacarıqlardan “mətndəki hadisələrlə xarakterlərin fəaliyyətlərini, hisslərini əlaqələndirmək və şərh etmək” və “mətndə istifadə edilmiş dil xüsusiyyətlərini müəyyənləşdirmək” bacarıqları ölkəmizdəki dördüncü sinif şagirdləri üçün müəyyənləşdirilmiş oxu standardlarına uyğun gəlir [3, s.18].

PİRLS-in ən yüksək səviyyəsi üzrə şagirdlərdən tələb olunan bacarıqların heç biri ölkəmizdəki ibtidai sinif şagirdləri üçün müəyyən edilmiş oxu standardlarına uyğun gəlmir [3, s.18].

4-cü sinif Azərbaycan dili metodiki vəsaiti təhlil edildiyi zaman məlum olur ki, şagirdlərdən gözlənilən oxu bacarıqları “Ümumi təhsilin məzmun standartları”nda qeyd olunan standartlara uyğun təşkil edilmişdir. Belə ki, dərslikdə 2.1 standartına daxil olan 2.1.1, 2.1.2, 2.1.3 alt standartlarının, 2.2 standartına daxil olan 2.2.2, 2.2.3, 2.2.4 və 2.2.5 alt standartlarının tətbiqi nəzərdə tutulmuşdur.

### 2.1.2. Dərslikdəki mətn və tapşırıqların PİRLS tədqiqatının məzmunu ilə müqayisəli təhlili

PİRLS təədqiqatında tələbələrə təqdim edilən mətnlər artıq qeyd etdiyimiz kimi, dörd səviyyədə olur: aşağı, orta, yüksək və ən yüksək səviyyələrdə. Mətnlərin məzmunu səviyyələrə uyğun olaraq sadə, əsasən bir qəhrəmanın və hadisənin ətrafında baş verə və ya mürəkkəb olub, bir neçə obrazdan və hadisələrin şaxələnməsindən ibarət ola bilər. Mətnlərdə dialoqlar, rəsmlərdən, diaqramlardan, cədvəllərdən və s. istifadə

edilə bilər. İnformativ mətnlərdə səviyyələrindən asılı olaraq, şagirdlərin mənasını bilmədikləri, onlara tanış olmayan sözlər, terminlər ola bilər.

Dördüncü sinif “Azərbaycan dili” fənni üzrə hazırlanmış mətnləri təhlil etdiyimiz zaman, buradakı bədii və informativ mətnlərin böyük əksəriyyətinin PİRLS tədqiqatında təqdim edilmiş mətnlərin orta və yüksək səviyyəsinə daha çox uyğun olduğunu görə bilərik. Bu hissədə mətnlərin və onlarla bağlı verilmiş tapşırıqların PİRLS-in hansı səviyyələrinə uyğun olduğunu nümunələrlə izah etməyə çalışacağıq. PİRLS 2016da şagirdlərə təqdim edilmiş mətnlərlə bağlı tapşırıqlar onlardan PİRLS-in səviyyələri üzrə müvafiq bacarıqlar tələb edir.

Dərslikdəki ilk mövzu iki hissədən ibarət olan **“Futbol topu”** hekayəsidir. Bu mövzu ilə bağlı dərslikdə verilmiş 14 tapşırıq içərisindən 1-ci, 2-ci və 6-cı tapşırıq alt standartlardan 2.2.4-ə, PİRLS-in aşağı səviyyəsindəki “mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları tapmaq və ya xatırlamaq” bacarığına, 5-ci tapşırıq 2.1.2-yə, PİRLS-in orta səviyyəsindəki “mətndəki dil xüsusiyyətlərini yada salma” bacarığına, 8-ci tapşırıq PİRLS-in aşağı səviyyəsindəki “mətndəki hadisələri və onun başlıca ideyalarını şərh etmək” bacarığına, 9-cu tapşırıq 2.2.5 standartına və PİRLS-in yüksək səviyyəsindəki “mətndəki hadisələrlə obrazların xarakterlərini, fəaliyyətlərini, hisslərini əlaqələndirmək və şərh etmək” bacarığına uyğun gəlir.

*Şəkil 1. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar*

1 Səncə, bu əsərin baş qəhrəmanı kimdir: Ramiz, yoxsa Adil? Cavabını əsaslandırmaq üçün mətndən parçalar seç və oxu.

2 Uyğunluğu müəyyən et.

| | | | |
|---|---|---|---|
| 1 | tünd-yaşıl | A | divarlar |
| 2 | yamyaşıl | B | yazı lövhəsi |
| 3 | rahat | C | meydança |
| 4 | ağappaq | Ç | plakatlar |
| 5 | rəngli | D | partalar |

5 Mətndən çıxış edərək “aut” və “penalti” sözlərinin mənalarını izah et.

**YADDA SAXLA!**

Hər hansı elm, texnika, mədəniyyət və s. sahələrinə aid olan sözlərə **termin** deyilir. Termin həmin sahələrlə bağlı olan müəyyən anlayışı ifadə edir.

6 Futbol oyunu ilə bağlı başqa terminləri xatırla və mənasını müəyyənləşdir.

8 Mətnin məzmununa uyğun fikri seç. Seçimini izah et.

A) Atası dərs ilinin ilk günündə Adilə saat bağışlamışdı.
B) Adil futbol oyununda qapıçı olmağı sevmirdi.
C) Aptek idman malları mağazasının qarşısında yerləşirdi.

9 Adil haqqında bunlardan hansını demək olmaz?

A) Xeyirxahdır. B) Mərhəmətlidir. C) Məsuliyyətsizdir.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

Dərsliyin “Baba və nəvə” adlı ikinci mövzusu bir hissəli olub, 7 tapşırıqdan ibarətdir. Bu tapşırıqlardan 2.2.4 standartlarına uyğun gələn 1-ci tapşırıq PİRLS-in aşağı səviyyəsindəki “mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları tapmaq və ya xatırlamaq” bacarığına, 2.1.2 standartına uyğun gələn 3-cü və 4-cü tapşırıqlar PİRLS-in orta səviyyəsindəki “mətndəki dil xüsusiyyətlərini yada salma” bacarığına uyğun gəlir.

*Şəkil 2. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar*

1 Mətndəki hansı cümlələr əsərin ideyasını ifadə edir?

2 Mətnin sonundakı nöqtələrin yerinə daha hansı fikirləri əlavə edərdin?

3 Mətnin ikinci cümləsində hansı söz məcazi mənada işlənib?

4 Mətndən çıxış edərək hansı ifadənin düzgün izah edilmədiyini müəyyənləşdir. Həmin ifadənin mənasını söylə.

1. Yaman yerdə axşamlamaq – gözlənilmədən qaranlığa düşmək
2. Köks ötürmək – fikirdən, dərddən və s.-dən dərindən nəfəs almaq
3. Ürəyi atlanmaq – həsrətində olmaq, istəmək

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

“Beş qiyməti” şeiri dərslikdəki 3-cü mövzu olub, 4 bənddən ibarətdir. Bu şeirlə bağlı dərslikdə 3 tapşırıq verilmişdir ki, bunlardan da yalnız 1-ci tapşırıq 2.1.2 standartına və PİRLS-in orta səviyyəsindəki “mətndəki dil xüsusiyyətlərini yada salma” bacarığına uyğun gəlir.

Şəkil 3. Şeirlə bağlı dərslikdə verilmiş tapşırıq

1 “Ürəyi dağa dönmək” ifadəsinin mənasını izah et.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

Dərslikdəki növbəti mövzu 7 tapşırıqlı, bir hissəli “Kitab daha maraqlıdır” hekayəsidir. Bu hekayənin tapşırıqlarından 2.1.2 alt standartına cavab verən 1-cisi qismən PİRLS-in orta səviyyəsindəki “mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək” bacarığına, 2-ci və 3-cü tapşırıqlar isə qismən PİRLS-in aşağı səviyyəsindəki “mətndəki məlumatları xatırlamaq və şərh etmək” bacarığına uyğun gəlir.

Şəkil 4. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1. Əvvəlcə mətndən çıxış edərək *"aludəçilik"* və *"yeniyetmə"* sözlərinin mənalarını araşdır. Sonra gəldiyin nəticəni lüğətin köməyi ilə yoxla.

2. Cümlələri tamamla.

1. Fərid "Hörümçək adam" kitabını oxumağa başladı, çünki ...
2. Fərid kitabdan ayrıla bilmirdi, çünki ...
3. Piterdə hörümçəyə xas olan bacarıqlar yaranmışdı, çünki ...
4. Hörümçək adam köməksizləri müdafiə edirdi, çünki ...

3. Doğru, yoxsa yanlış?

1. Fərid kompüter oyunlarına aludə olduğundan dərslərini yaxşı oxumurdu. **D Y**
2. Fərid müəllimin tapşırığı ilə bədii əsərlər oxumağa başladı. **D Y**
3. Fərid Hörümçək adam haqqında kitabdan daha çox məlumat əldə etdi. **D Y**
4. Fərid bir həftədə dörd kitab oxudu. **D Y**
5. Atası kompüteri gətirəndə Fərid artıq üçüncü kitabı oxuyurdu. **D Y**

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

"Ruminin məsləhəti" adlı mövzu dərslikdəki 5-ci mövzu olub bir hissəlidir və bu mövzuya dair dərslikdə 5 tapşırıq verilmişdir. Oxu standartlarından 2.2.4-ə rast gəlinir. Bu tapşırıqlardan 2-cisi və 3-cüsü PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları tapmaq və ya xatırlamaq" bacarığına uyğun gəlir.

Şəkil 5. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

**2** Mətndən çıxış edərək uyğunluğu müəyyən et.

| | | | |
|---|---|---|---|
| 1 | müdrik | A | ölkə |
| 2 | faydalı | B | qonşu |
| 3 | uzaq | C | adam |
| 4 | qərib | Ç | şəxsiyyət |
| 5 | yaxın | D | məsləhət |

**3** Hansı fikir mətnin ideyasına daha çox uyğun gəlir?

A) Müdrik insanların sözünə əməl etmək lazımdır.

B) Başqalarına verdiyin məsləhətə əvvəlcə özün əməl etməlisən.

C) Yaxın qonşu uzaq qohumdan yaxşıdır.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

5 hissəli "Birinci addım" hekayəsi dərslikdəki 6-cı mövzu olub, 17 tapşırıqdan ibarətdir. Bu tapşırıqlardan bəziləri oxu standartlarından 2.2.4, 2.2.5, 2.1.3 və 2.1.2 ilə uyğunluq təşkil edir. 1-ci, 2-ci, 5-ci, 8-ci və 13-cü tapşırıqlar PİRLS-in orta səviyyəsindəki "mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək" bacarığına, 3-cü və 10-cu tapşırıqlar PİRLS-in aşağı səviyyəsindəki "mətndəki hadisələri və onun başlıca ideyalarını şərh etmək" bacarığına, 4-cü və 12-ci "mətndəki hadisələri gündəlik həyatla əlaqələndirmə və qiymətləndirmə" bacarığına, 9-cu tapşırıq PİRLS-in ən yüksək səviyyəsindəki "mətnə əsaslanaraq, hadisələrin səbəblərini və inkişafını və personajların fəaliyyətlərini, maraqlarını, hisslərini şərh etmək" bacarığına, 11-ci tapşırıq PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları tapmaq və ya xatırlamaq" bacarığına uyğun gəlir.

Şəkil 6. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

A Z **1** Mətndən çıxış edərək "Özünü o yerə qoymamaq" ifadəsinin mənasını izah et.

**2** Altından xətt çəkilmiş sözlərin həqiqi və məcazi mənalarını izah et.

**3** Hekayənin 2-ci hissəsinin məzmununa hansı atalar sözü uyğun gəlir?

A) Yaxşılıq eləyib bir şey umursansa, eləməsən yaxşıdır.
B) Bilməmək eyib deyil, bilməyib soruşmamaq eyibdir.
C) Ağıl yaşda deyil, başdadır.

**4** Aşağıdakı insani keyfiyyətlər arasındakı fərqi həyatdan misallar gətirməklə izah et:

– *məğrurluq;*
– *özündənrazılıq;*
– *lovğalıq.*

Bu keyfiyyətlərdən hansını Vaqifin xarakterinə aid etmək olar? Cavabını əsaslandır.

**5** Lüğətin köməyi ilə "suflyor" sözünün mənasını izah et.

**6** Sən Arifin yerində olsa idin, Vaqifə kömək edərdinmi? Cavabını əsaslandır.

**8** Mətnin məzmunundan çıxış edərək "bərk ayaqda" ifadəsinin mənasını izah et.

**9** Səncə, Vaqif dostundan inciməkdə haqlı idimi? Cavabını əsaslandır.

**10** Bunlardan biri mətnin məzmununa uyğun deyil:

A) Azərbaycan dili birinci dərs idi.
B) Azərbaycan dili ikinci dərs idi.
C) Azərbaycan dili üçüncü dərs idi.

**11** Cümlələri tamamla.

1. İngilis dili müəllimi dərsə gəlməmişdi, odur ki ...
2. ... ona görə də Vaqifdən başqa hamı dərsə hazır idi.
3. ..., çünki dostu ona suflyorluq etmədi.

**12** Arifin atası haqqında nə deyə bilərsən? Onun hansı cəhətləri xoşuna gəldi? Bəs sən çətin anlarda kiminlə məsləhətləşirsən?

**13** Uyğunluğu müəyyən et.

| | | | | |
|---|---|---|---|---|
| 1 | Göz-qaş eləmək | | A | imtina etmək |
| 2 | Vəziyyətdən çıxmaq | | B | işarə etmək |
| 3 | Boyun qaçırmaq | | C | narahatlıq keçirmək, çox düşünmək |
| 4 | Götür-qoy eləmək | | Ç | çətin situasiyadan çıxış yolu tapmaq |
| 5 | Fikir götürmək | | D | ətraflı fikirləşmək |

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

"Ən qiymətli" hekayəsi dərslikdəki 7-ci mövzu olub, 2 hisseden, 12 tapşırıqdan ibarətdir. Oxu standartlarından 2.1.2 və 2.2.4-ün tələblərinə uyğunluğun görüldüyü bu tapşırıqlardan 1-ci tapşırıq PİRLS-in orta səviyyəsindəki "mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək və şərh etmək" bacarığına, 3-cü tapşırıq PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək" bacarığına, 4-cü tapşırıq PİRLS-in aşağı səviyyəsindəki "mətndə qələmə alınan hadisələrin səbəbləri barədə birbaşa nəticə çıxarmaq" bacarığına, 5-ci tapşırıq isə "mətndəki hadisələri gündəlik həyatla əlaqələndirmə və qiymətləndirmə" bacarığına uyğun gəlir.

Şəkil 7. Mətnlə bağlı dərslikdəki tapşırıqlar

**1** "Göz dikmək" ifadəsinin mətnə uyğun izahını seç.

A) Bir şeyi ələ keçirmək arzusunda olmaq, sahib olmağa çalışmaq.
B) Yeganə ümid yeri olmaq, arxayın olmaq.
C) Diqqətlə baxmaq.

3 Hansı fikir mətnin məzmununa uyğun deyil?

A) Əhmədin qızı üçün ən qiymətli şey kitab-dəftəri idi.
B) Anası qızının dalınca evə qaçdı.
C) Ermənilər kəndi atəşə tutmuşdular.

4 Əhmədin gözləri niyə dolmuşdu?

5 “Çəkidə yüngül, qiymətdə ağır” ifadəsinin mənasını izah et. Səncə, evi qəfildən tərk etmək lazım gələrsə, ilk növbədə nələri götürmək lazımdır? Fikrini əsaslandır.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

Dərslikdəki 8-ci mövzu olan “Tom özünü fəda edir” mətni 4 hhissədən ibarətdir və mətnlə bağlı dərslikdə 16 tapşırıq verilmişdir ki, bunlardan oxu bacarığına aid olanları, əsasən, 2.1.2 və 2.2.5 standartları tətbiq edilmişdir. Bu tapşırıqlardan 1-ci, 3-cü və 7-ci tapşırıqlar PİRLS-in orta səviyyəsindəki “mətndəki dil xüsusiyyətlərini müəyyən etmək” bacarığına, 4-cü, 6-cı və 9-cu tapşırıqlar PİRLS-in aşağı səviyyəsindəki “mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək” bacarığına, 5-ci tapşırıq PİRLS-in yüksək səviyyəsindəki “mətndəki hadisələrlə obrazların xarakterlərini, fəaliyyətlərini, hisslərini əlaqələndirmək və şərh etmək” bacarığına, 8-ci tapşırıq isə PİRLS-in orta səviyyəsindəki “mətndəki baş qəhrəmanların duyğuları, motivasiya və münasibətləri ilə bağlı birbaşa nəticə çıxarmaq” bacarığına uyğun gəlir.

Şəkil 8. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 Uyğunluğu müəyyən et.

| | | | | |
|---|---|---|---|---|
| 1 | Ürəyi getmək | | A | hirslənmək, coşmaq |
| 2 | Özündən çıxmaq | | B | xoşlanmaq, bəyənmək |
| 3 | Əzab çəkmək | | C | həddən çox istəmək |
| 4 | Ləzzət almaq | | Ç | sıxıntı içində olmaq |

**3** Uyğunluğu müəyyən et.

| | | | |
|---|---|---|---|
| 1 | Acıq vermək | A | təsadüfən görmək, birdən görmək |
| 2 | Gözünə sataşmaq | B | çaşmaq, nə edəcəyini bilməmək |
| 3 | Özünü toplamaq | C | qəsdən hirsləndirmək, acıqlandırmaq |
| 4 | Özünü itirmək | Ç | var-qüvvəsini yığmaq, səfərbər olmaq |

**4** Tomun kitabına Alfred niyə mürəkkəb tökdü?

**5** Aşağıdakı hərəkətlərinə görə Bekkinin xarakteri barədə nə demək olar?

- Alfredin Toma qarşı pis hərəkətini görüb heç nə etməməsi;
- Tomun üzrxahlığını qəbul etməməsi.

**6** Doğru, yoxsa yanlış?

1. Müəllim kitabı stolun siyirməsində saxlayırdı. D Y
2. Bekki kitabın stolun üstündə qaldığını gördü. D Y
3. Tom hiss etdirmədən kitaba baxan qıza yaxınlaşmışdı. D Y
4. Bekki kitabın səhifəsini cırdığı üçün cəzalandırıldı. D Y
5. Tom cəzalandırılmağa adi bir iş kimi baxırdı. D Y

**7** Səncə, anatomiya elmi nədən bəhs edir?

**8** Mətndə deyilir ki, *"Tomun ağlına parlaq bir fikir gəldi"*. Bundan sonra o başqasının günahını öz boynuna götürdü. Səncə, Tomun ağlına gələn parlaq fikir nədən ibarət idi? Seçimini mətndən çıxış edərək əsaslandır.

A) Bir gündə iki dəfə cəzalanmaqla o, rekord vurmuş olacaqdı.
B) Bekkini cəzadan qurtarmaqla onun rəğbətini qazanacaqdı.
C) Cəzalandığı üçün dərs danışmaq məcburiyyətindən azad olacaqdı.

**9** Cümlələri davam etdir.

1. Bekki Tomu cəzadan qurtara bilərdi, çünki ...
2. Bekki Tomu cəzadan qurtarmaq üçün həqiqəti demədi, çünki ...
3. Mister Dobbins ikinci dəfə Tomu daha bərk cəzalandırdı, çünki ...

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

"Natiqlik məharəti haqqında" adlı mövzu qısa bir hissədən ibarət olub, dəsrslikdəki 9-cu mövzunu təşkil edir. Mövzu ilə bağlı 4 tapşırıq verilmişdir. Bu tapşırıqlar oxu standartlarından 2.1.3 və 2.2.4-ə, PİRLS-in səviyyələrindən isə 1-ci

tapşırıq PİRLS-in aşağı səviyyəsindəki “mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək” bacarığına, 3-cü tapşırıq isə PİRLS-in orta səviyyəsindəki “mətndəki dil xüsusiyyətlərini müəyyənləşdirmək” bacarığına uyğun gəlir.

Şəkil 9. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar


1 Nə üçün hökmdar birinci yuxuyozanı cəzalandırdığı halda, ikinci yuxuyozanı mükafatlandırdı?

3 Qırmızı rəngli abzasda hansı söz məcazi mənada işlədilmişdir? Həmin sözü həqiqi mənada cümlədə işlət.

A) yüz B) ağır C) pis

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

Nizami Gəncəvinin “Az danışmağın gözəlliyi” adlı şeir parçası dəsrlikdəki 10-cu mövzu olub, bu mövzu ilə bağlı 4 tapşırıq verilmişdir. Bu tapşırıqlardan yalnız biri həm oxu standartlarına (2.1.2), həm də PİRLS tədqiqatının səviyyələrindən birinə uyğun gəlir (PİRLS-in orta səviyyəsindəki “mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək”).

Şəkil 10. Şeirlə bağlı dərslikdə verilmiş tapşırıq


1 Hansı sözün yaxınmənalı qarşılığı mətnə uyğun deyil?

A) saflıq – təmizlik B) artıq – çox

C) oxşamaq – bənzəmək D) göy – səma

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

Bir hissədən, 6 tapşırıqdan ibarət olan “Sözün qüdrəti” rəvayəti dərslikdəki 11-ci mövzudur. Bu mövzu ilə bağlı dərslikdə verilmiş 2-ci və 3-cü tapşırıqlar oxu standartlarında 2.2.2-ə, PİRLS-in orta səviyyəsindəki “mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək” bacarığına uyğun gəlir.

Şəkil 11. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

**2** "Qabağa düşmək" ifadəsinin mətnə uyğun izahını seç.
A) irəliləmək, inkişaf etmək
B) rəhbərlik etmək
C) gözlənildiyindən çox qazanc götürmək

**3** *"Özündən küs"* , *"pişvazına çıxır"* ifadələrinin mənasını izah et.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

İnformativ mətn növünə aid olan "Hikmət xəzinəsi" adlı mövzu ilə bağlı dərslikdə sadəcə 2 tapşırıq verilmişdir ki, bunlardan heç biri oxu standartlarına və də PİRLS tədqiqatının səviyyələrinə uyğun gəlmir.

"Heydər Əliyevin kəlamları" adlı növbəti informativ tipli mətnlə bağlı dərslikdə 4 tapşırıq verilmişdir. Bu tapşırıqlardan yalnız 1-ci tapşırıq oxu standartlarından 2.1.2-ə və PİRLS-in orta səviyyəsindəki "mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək" bacarığına uyğundur.

Şəkil 12. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıq

**1** Mətndə göy rənglə verilmiş feillərə uyğun mənaları seç.
a) Hesab etmək, bilmək
b) Hörmətə layiq olmaq

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

Bəxtiyar Vahabzadənin "Azərbaycan-Türkiyə" şeiri dərslikdəki növbəti mövzudur və bu mövzu ilə bağlı verilmiş 4 tapşırıqdan 2.1.2 oxu standartına uyğun gələn 1-ci tapşırıq PİRLS-in orta səviyyəsindəki "mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək" bacarığı, 2.2.4 standartına uyğun gələn 3-cü tapşırıq isə PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək" bacarığı ilə uyğunluq təşkil edir.

Şəkil 14. Şeirlə bağlı dərslikdə verilmiş tapşırıqlar

**1** İzahlı lüğətdən istifadə edərək "cümhuriyyət" və "hilal" sözlərinin mənasını açıqla.

3 Şeirin ideyasını öz sözlərinlə ifadə et.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

Dərslikdəki 15-ci mövzu "Bayrağım" adlı qısa hekayədir. Bu hekayəylə bağlı dərslikdə verilmiş 2 tapşırıqdan yalnız biri 2.2.2 standartına və PİRLS-in orta səviyyəsindəki "mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək" bacarığına uyğun gəlir.

Şəkil 15. Mətnlə bağlı dərslikdə verilmiş çalışma

1 "Gözünü çəkə bilməmək", "gözdən itmək" ifadələrinin mənasını öz sözlərinlə izah et.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

"Əsgər marşı" mövzusu ilə bağlı dərslikdə verilmiş 3 tapşırıqdan sadəcə biri – 2-ci tapşırıq 2.1.2 standartına və PİRLS-in orta səviyyəsindəki "mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək" bacarığına uyğun gılir.

Şəkil 16. Mövzu ilə bağlı dərslikdəki tapşırıq

2 "İsmarladı" sözünün şeirdəki mənasına uyğun olanını müəyyən et.

A) tapşırdı B) dedi C) dua etdi

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

Dərslikdəki 17-ci mövzu "İtə ataram, yada satmaram" mətnidir. Bu mətnlə bağlı verilmiş 6 tapşırıqdan 3-cüsü 2.2.5 standartına uyğun gəlir. Bu tapşırıqlardan 1-ci, 2-ci və 4-cü tapşırıqlar PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək" bacarığına, 3-cü tapşırıq PİRLS-in yüksək səviyyəsindəki "mətndəki hadisələrlə obrazların xarakterlərini, fəaliyyətlərini, hisslərini əlaqələndirmək və şərh etmək" bacarığına, 5-ci tapşırıq isə PİRLS-in orta səviyyəsindəki "mətndəki hadisələr arasında mövcud olan aşkar səbəb və nəticələri nəql etmək, faktları yada salaraq mətndən nümunələr gətirmək" bacarığına qismən uyğun gəlir.

Şəkil 17. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

**1** Doğru, yoxsa yanlış?

1. Sona artıq neçənci dəfə idi ki, həftəbazarına gedirdi. D Y
2. Həftəbazarı mal alıb-satanlarla dolu idi. D Y
3. “Yusif–Züleyxa” xalçası Sonaya anasından qalmışdı. D Y
4. İngilis “Yusif–Züleyxa” xalçasını çox bəyənmişdi. D Y
5. Sona xalçası üçün ingilisə ilk ağlına gələn qiyməti dedi. D Y
6. Sona təklif olunan qiymətlə razılaşmayıb xalçanı satmadı. D Y
7. Sonanın qərarı bazardakıların ürəyincə oldu. D Y

**2** Aşağıdakı abzas nömrələnmiş boşluqlardan hansına uyğun gəlir?

*Sona ev şeyləri satılan yerdə bir daşın üstündə oturmuşdu. Xalçası da qabağında idi. Xalça gedib-gələnlərin nəzərini cəlb edirdi. Adamlar durub bu gözəlliyə heyran-heyran baxırdılar.*

**3** Sarı fonda verilmiş hissələrə əsasən Sona obrazı haqqında nə deyə bilərsən?

**4** Hansı fikir yanlışdır?

A) Əsərdəki hadisələr həftənin bazar günü baş verir.
B) Mərdan Sonanın yeganə oğlu idi.
C) Tacirlərdən biri gödəktuman ingilisə tərcüməçilik edirdi.

**5** Sona ingilisə xalçanı satmadı, çünki ...

A) İngilis az pul təklif edirdi.
B) Tacir ingilisin sözlərini düz tərcümə etmirdi.
C) Sona xalçanın yadelli əlinə düşməsini istəmirdi.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

Dərsliyin 18-ci mövzusu olan “Çünki oldun dəyirmançı” mövzusu 3 hissədən və 14 tapşırıqdan ibarətdir. Bu tapşırıqlardan bəzilərində oxu standartlarından 2.2.4, 2.2.5, 2.2.2 və 2.1.2-yə uyğunluq müşahidə edilir. 2.2.2 standartına cavab verən 1-ci və 11-ci tapşırıqlar və 2.1.2 standartına cavab verən 8-ci tapşırıq PİRLS-in orta səviyyəsindəki “mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək” bacarığına, 2.2.4 standartına cavab verən 4-cü tapşırıq qismən PİRLS-in aşağı səviyyəsindəki “mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək” bacarığına, 2.2.5 standartına

cavab verən 5-ci, 6-cı və 7-ci tapşırıqlar isə PİRLS-in yüksək səviyyəsindəki “mətndəki hadisələrlə obrazların xarakterlərini, fəaliyyətlərini, hisslərini əlaqələndirmək və şərh etmək” bacarığına uyğun gəlir.

Şəkil 18. Mətnlə bağlı dərslikdə verilmi. Tapşırıqlar

**1** Altından xətt çəkilmiş *“qoşun çakək”* ifadəsinin əvəzinə hansı ifadəni işlətmək olar?

**4** Atla bağlı hansı atalar sözü mətnin məzmununa uyğundur?
A) At yerişindən, igid duruşundan tanınar.
B) At muraddır.
C) At igidi darda qoymaz.
D) At təpiyinə at dözər.

**5** Oxuduğun hissəyə əsasən Koroğlu haqqında nə deyə bilərsən?

**6** Səncə, Koroğlu Həmzəni Çənlibelə gətirməkdə haqlı idimi? Cavabını əsaslandır.

**7** Məqsədinə çatmaq üçün Həmzənin hərəkətlərini ardıcıllıqla danış və onun haqqında fikrini söylə.

**8** Mətndən çıxış edərək sözlər və izahlar arasında uyğunluğu müəyyənləşdir.
A. Süvarinin ayağını dirəməsi üçün atın yanlarından asılan dəmir halqa.
B. Üstündə oturmaq üçün qayışlarla atın belinə bağlanan oturacaq.
C. Atın başına keçirilən qoşqu ləvazimatı.

| | |
|---|---|
| Yüyən | A B C |
| Üzəngi | A B C |
| Yəhər | A B C |

**11** Mətndə “boynuna götürmək” ifadəsi hansı mənada işlədilmişdir?
1. Bir işi görmüş olduğunu etiraf etmək, açıb söyləmək
2. Öhdəsinə götürmək, bir işi görməyə razılıq vermək

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

19-cu mövzu olan “Qədim Yunan sözləri” adlı mətn informativ mətn növünə aid olub, 3 tapşırıqdan ibarətdir. 2-ci tapşırıq 2.1.2 standartına cavab verir və PİRLS-in orta səviyyəsindəki “mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək” bacarığı ilə uyğunluq

təşkil edir. 1-ci tapşırıq, həmçinin, PİRLS-in orta səviyyəsindəki "mətndəki hadisələr arasında mövcud olan aşkar səbəb və nəticələri nəql etmək, faktları yada salaraq mətndən nümunələr gətirmək" bacarığı ilə də uyğunluq təşkil edir.

Şəkil 19. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 Mətnin məzmunundan çıxış edərək Qədim Yunanıstanda keçirilən Olimpiya oyunlarının müasir dövrdə nə üçün Beynəlxalq Olimpiya Oyunları adlandırılmasının səbəbini müəyyənləşdir. "Beynəlxalq" sözünün mənasını izah et.

2 3-cü abzasda altından xətt çəkilmiş *"kök"* sözünü hansı sözlə əvəz etmək olar?

A) mənbə B) mənsəb C) mənşə

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

Dərsliyin 20-ci mövzusu və növbəti informativ mətni "Niyə "siz" deyirik" adlı mətndir. Bu mətnlə bağlı verilmiş 2 tapşırığın heç birində oxu standartları və PİRLS tədqiqatının səviyyələrinin tələbləri qarşılanmır.

"Öz arşınınla ölçmə" adlı mətn dərsliyin 21-ci mövzusu olub, informativ mətn növünə aiddir. Bu mətnlə bağlı mətndə verilmiş 9 tapşırıqdan yalnız 3-ü – 4, 5 və 6-cı tapşırıqlar oxu bacarıqları ilə əlaqədardır. 2.2.4 standartına cavab verən bu tapşırıqlar PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək" bacarığına uyğundur.

Şəkil 21. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

4 Bunlardan hansı ilə daha dəqiq ölçmə aparmaq olar?

A) çarşı arşını ilə B) qarışla C) addımla

5 Ağac və ya metaldan arşın hazırlanmasına səbəb nə oldu?

6 Nöqtələrin yerinə müvafiq sözləri artırmaqla cümlələri oxu.

Əvvəllər hər ... öz arşını var idi. Metal arşınlar peyda olduqdan sonra hər ... öz arşını oldu.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

İki hissədən, 11 tapşırıqdan ibarət olan “Halal pul” adlı hekayə dərslikdəki 22-ci mövzudur. 2.1.2 standartına cavab verən 1-ci və 3-cü tapşırıqlar və 2.2.2 standartına cavab verən 2-ci tapşırıq PİRLS-in orta səviyyəsindəki “mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək” bacarığı ilə, 2.2.5 standartına cavab verən 4-cü tapşırıq PİRLS-in yüksək səviyyəsindəki “mətndəki hadisələrlə obrazların xarakterlərini, fəaliyyətlərini, hisslərini əlaqələndirmək və şərh etmək” bacarığı ilə, 2.2.4 standartına cavab verən 5-ci, 6-cı və 7-ci tapşırıqlar PİRLS-in aşağı səviyyəsindəki “mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək” bacarığı ilə uyğunluq təşkil edir.

Şəkil 22. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

AZ 1 Hansı cümlədə “tay” sözü mətndəki mənasında işlənib?

A) Körpüdən keçəndə qızın çəkməsinin bir tayı suya düşdü.
B) Nağıl söyləməkdə, bayatı deməkdə nənəmin tayı yoxdur.
C) Çayın o tayında çoxlu meyvə bağları var idi.

5 Nəyə görə oğlunun gətirdiyi pulu ata hər dəfə sobaya atırdı?

6 Mətnin ideyasına uyğun atalar sözünü seç.

A) Ata olarsan, ata qədrini bilərsən.
B) Ata malına göz dikən oğul ac qalar.
C) Atalar nə əkiblər, oğullar onu biçiblər.

7 Cümlələri tamamla.

1. Kişinin oğlu işləmək istəmirdi, çünki ...
2. Ananın oğluna yazığı gəlirdi, ona görə də ...
3. Atanın ilk dəfə sobaya atdığı pul oğulu narahat etmədi, çünki ...
4. Oğlan əlləri yana-yana sobadan pulları götürdü, çünki ...

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

“Qurucu” hekayəsi dərslikdəki 23-cü mövzudur. Mövzu ilə bağlı dərslikdə 11 tapşırıq verilmişdir. 2.2.2 standartına cavab verən 1-ci, 2-ci və 3-cü tapşırıqlar PİRLS-in orta səviyyəsindəki “mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək” bacarığı ilə,

2.2.4 standartına cavab verən 5-ci tapşırıq PİRLS-in aşağı səviyyəsindəki “mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək” bacarığı ilə, 6-cı tapşırıq isə PİRLS-in orta səviyyəsindəki “mətndəki hadisələr arasında mövcud olan aşkar səbəb və nəticələri nəql etmək, faktları yada salaraq mətndən nümunələr gətirmək” bacarığı ilə də uyğunluq təşkil edir.

Şəkil 23. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 Uyğunluğu müəyyən et.

| | | | |
|---|---|---|---|
| 1 | Başının üstünü kəsdirmək | A | sevindirmək, şadlandırmaq |
| 2 | Könlünü açmaq | B | öz fikrindən dönməmək |
| 3 | Ürəyini sındırmaq | C | yanından ayrılmamaq |
| 4 | İki ayağını bir başmağa dirəmək | Ç | küsdürmək, xətrinə dəymək |

2 “Yerə-göyə sığmamaq” ifadəsinin mətnə uyğun mənasını seç.

A. Sayı-hesabı çox olmaq

B. Çox sevinmək, xoşbəxt olmaq

C. Özündənrazı, təkəbbürlü olmaq

3 Hansı ifadənin izahı mətndəki mənasına uyğun deyil?

A. Başını qatmaq – *birisini aldatmaq məqsədilə fikrini yayındırmaq*

B. Fərqinə varmamaq – *əhəmiyyət verməmək*

C. Duruş gətirmək – *tab etmək, dözə bilmək*

5 “Halal pul” mətni ilə “Qurucu” mətni arasındakı ideya yaxınlığını müəyyən et.

6 Səncə, Əkrəmdən sonra atası yenidən dominodan ev qursaydı, Əkrəm onu da fikirləşmədən uçurardımı? Fikrini əsaslandır.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

24-cü mövzu “Təndir tikə bilməyən ev tikə bilməz” adlı rəvayətdir. Bu mövzu 2 hissədən və 6 tapşırıqdan ibarətdir. 2.1.2 standartına cavab verən 1-ci tapşırıq PİRLS-in orta səviyyəsindəki “mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək” bacarığı ilə, 2.2.4 standartına cavab verən 3-cü tapşırıq PİRLS-in aşağı səviyyəsindəki “mətndə

açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək” bacarığı ilə, 4-cü tapşırıq isə PİRLS-in orta səviyyəsindəki “mətndəki hadisələr arasında mövcud olan aşkar səbəb və nəticələri nəql etmək, faktları yada salaraq mətndən nümunələr gətirmək” bacarığı ilə də uyğunluq təşkil edir.

Şəkil 24. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar



1 “Kök” sözünün mətndəki mənasını müəyyən et.
A) bitkilərin torpaq altında qalan hissəsi
B) nəsil, əsil-nəsəb, mənşə
C) xarici görünüş, vəziyyət, hal, halət

3 Mətnin mövzusunu və ideyasını müəyyən et.

4 Səncə, niyə Xudaverdinin tikdiyi təndirin divarları ya çat-çat olub dağılırdı, ya da ovxalanıb qum kimi tökülürdü?

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

“Bir boşqab sıyıq” adlı hekayə dərslikdəki 25-ci mövzudur. Hekayə 3 hissədən və 10 tapşırıqdan ibarətdir. 2.2.2 alt standartına cavab verən 1-ci tapşırıq PİRLS-in orta səviyyəsindəki “mətnin dil xüsusiyyətlərini müəyyənləçdirmək” bacarığı, 2.2.5 standartına cavab verən 3-cü, 4-cü və 5-ci tapşırıqlar PİRLS-in yüksək səviyyəsindəki “mətndəki hadisələrlə obrazların xarakterlərini, fəaliyyətlərini, hisslərini əlaqələndirmək və şərh etmək” bacarığı ilə, 2.2.4 standartına cavab verən 6-cı tapşırıq PİRLS-in aşağı səviyyəsindəki “mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları tapmaq və şərh etmək” bacarığı ilə qismən uyğunluq təşkil edir.

Şəkil 25. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 Mətnin məzmunundan çıxış edərək “korluq çəkmək” ifadəsinin mənasını izah et.

3 Mehri xalanın xarakterini səciyyələndir və fikirlərini mətndən seçdiyin hissələrlə əsaslandır.

4 Elxanın xarakteri haqqında deyilənləri mətndən müvafiq parçalar gətirməklə təsdiq elə.
Elxan qayğıkeş idi.
Elxan qürurlu idi.

5 Oxuduğun hissədə Elxanın daha hansı xüsusiyyəti üzə çıxdı?

6 Mətnin məzmununa uyğun atalar sözləri de.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

“Ən böyük xəzinə” hekayəsi dərslikdəki 26-cı mövzu olub, bir hissədən, 5 tapşırıqdan ibarətdir. Bu tapşırıqlardan 2.2.5 standartına cavab verən 2-ci tapşırıq PİRLS-in yüksək səviyyəsindəki “mətndəki hadisələrlə obrazların xarakterlərini, fəaliyyətlərini, hisslərini əlaqələndirmək və şərh etmək” bacarığı ilə, 2.1.2 standartına cavab verən 3-cü tapşırıq isə PİRLS-in orta səviyyəsindəki “mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək” bacarığı ilə qismən üst-üstə düşür.

Şəkil 26. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

2 Gənc nəyin hesabına xəzinəyə sahib oldu? Verilmiş keyfiyyətlər arasından uyğun gələnləri seç.

*hiyləgərlik, dözüm, xeyirxahlıq, əməksevərlik, inadkarlıq*

3 Uyğunluğu müəyyən et.

| | | | |
|---|---|---|---|
| 1 | səma cisimləri | A | əkinçilik |
| 2 | qiymətli daşlar | B | iqtisadiyyat |
| 3 | xəzinənin idarə olunması | C | astronomiya |
| 4 | təbiət | Ç | gəmiçilik |
| 5 | texnika | D | zərgərlik |

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

Dərslikdəki 27-ci mövzu "İlk dərs" adlı rəvayətdir. Bu mövzu ilə verilmiş 6 tapşırıqdan 1-ci və 2-ci tapşırıqlar PİRLS-in orta səviyyəsindəki "mətndəki hadisələr arasında mövcud olan aşkar səbəb və nəticələri nəql etmək, faktları yada salaraq mətndən nümunələr gətirmək" bacarığı ilə uyğunluq təşkil edir.

Şəkil 27. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 Nə üçün müdrik qoca gənci şagirdliyə götürmək istəmirdi?

2 Səncə, müəllimin verdiyi dərsdən sonra gəncin xarakterində hansı dəyişiklik ola bilər?

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

28-ci mövzu "Hədiyyə" hekayəsidir. Bu mövzu ilə bağlı dərslikdə 6 tapşırıqdan sadəcə 2-si oxu standartlarına və PİRLS tədqiqatının müvafiq səviyyəsinə uyğundur. Belə ki, 2.2.4 standartına cavab verən 1-ci və 2-ci tapşırıq PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları tapmaq və şərh etmək" bacarığını reallaşdırmağa şərait yaradır.

Şəkil 28. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 Hansı sözün qarşılığı mətnin məzmununa uyğun deyil?

A) guşə – hissə
B) etibarsızlıq – vəfasızlıq
C) könülsüz – həvəssiz

2 Söz mücrüsündən istifadə etməklə mətnin ideyası barədə fikir yürüt.

*peşəkarlıq, məsuliyyət, peşə vicdanı,*
*düzgünlük, öz işinə hörmət*

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

Bir hissədən, 5 tapşırıqdan ibarət olan "İki qardaş" hekayəsi dərslikdəki 29-cu mövzudur. Bu tapşırıqlardan 2.2.2 alt standartına cavab verən 1-ci tapşırıq PİRLS-in orta səviyyəsindəki "mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək" bacarığını, 2.2.4 standartına cavab verən 2-ci tapşırıq isə PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-

aşkar verilmiş informasiya, hadisə və ideyaları tapmaq və şərh etmək" bacarığını tətbiq etməyə imkan verir.

Şəkil 29. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 Mətnin sonunda işlənmiş "üzü olmadı" ifadəsini hansı sözlərlə əvəz etmək olar?

2 Hansı atalar sözü mətnin ideyasına daha çox uyğundur?

A) Adamın başına nə gəlsə, dilindən gələr.
B) Elə hərəkət et ki, sonra xəcalət çəkməyəsən.
C) Tənbəl deyər: "Ver yeyim, ört yatım, gözlə canım çıxmasın".
D) İşləməyən dişləməz.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

"Hökmdar qardaşlar" hekayəsi 4 hissədən, 9 tapşırıqdan ibarət olub dərsliyin 30-cu mövzusudur. Bu tapşırıqlardan 1-ci, 2-ci, 3-cü, 4-cü və 5-ci tapşırıqlar PİRLS-in orta səviyyəsindəki "mətndəki hadisələr arasında mövcud olan aşkar səbəb və nəticələri nəql etmək, faktları yada salaraq mətndən nümunələr gətirmək" bacarığı ilə uyğunluq təşkil edir.

Şəkil 30. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 Səncə, nə üçün Teymur kiçik qardaşını sarayda saxlamadı? Onun hərəkəti ilə razısanmı? Sən onun yerinə olsa idin, nə edərdin?

2 Səməd qardaşına cəmi neçə qoyun qaytarmalı idi?

3 Doğrudanmı, Səmədin bəxti yox idi?

4 Mətnin sonunda Teymurun cümləsini tamamla.

A) Canavardan qorxan adam düşmən qarşısında tab gətirə bilməz.
B) Bir sürü qoyunu qoruyub saxlaya bilməyən adam ölkəni idarə edə bilməz.
C) Süddən yağ ala bilməyən xalqını dolandıra bilməz.

5 Səməd qardaşına çatacaq qoyunları qaytarandan sonra özünə nə qədər qoyun qaldı?

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

“Kirpinin düz sözü” təmsili dərsliyin 31-ci mövzusudur. Bu mövzu ilə bağlı verilmiş 3 tapşırıqdan 2.2.4 standartına cavab verən 1-ci tapşırıq PİRLS-in aşağı səviyyəsindəki “mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək” bacarığını reallaşdırmağa imkan verir.

Şəkil 31. Mövzu ilə bağlı dərslikdəki tapşırıq.

1 Şeirin ideyasına uyğun atalar sözünü seç.
A) Qurd adını dəyişər, xasiyyətini dəyişməz.
B) Bağa bax, üzüm olsun, yeməyə üzün olsun.
C) Armudun yaxşısını meşədə ayı yeyər.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

“Niyə” şeiri dərslikdəki 33-cü mövzudur. Bu mövzu ilə bağlı dərslikdə verilmiş 4 tapşırıqdan heç biri PİRLS tədqiqatı səviyyələrinə uyğun təşkil olunmamışdır.

Dərslikdəki 34-cü mövzu olan “Qazların uçuşu” mətni informativ mətn növünə aiddir. Mətnlə bağlı verilmiş 5 tapşırıqdan 2.2.2 alt standartına cavab verən 1-ci tapşırıq PİRLS-in orta səviyyəsindəki “mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək” bacarığı ilə, 2.2.5 standartına cavab verən 2-ci tapşırıq PİRLS-in yüksək səviyyəsindəki “mətndəki hadisələrlə obrazların xarakterlərini, fəaliyyətlərini, hisslərini əlaqələndirmək və şərh etmək” bacarığı ilə, 3-cü tapşırıq isə PİRLS-in aşağı səviyyəsindəki “mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək” bacarığı ilə uyğunluq təşkil edir.

Şəkil 33. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

A Z 1 Hansı ifadənin izahı mətnin məzmununa uyğun deyil? Həmin ifadənin mətnə uyğun izahını söylə.
A) Qanad çalmaq – pərvazlanmaq, uçmaq.
B) Hökm sürmək – ağalıq etmək, hökm etmək.
C) Qayğısını çəkmək – himayə etmək, yardım göstərmək.

**2** Köçəri qazlara xas olan keyfiyyətləri seç.

*hiyləgərlik, əməkdaşlıq, nizam-intizam, qayğıkeşlik, vəfasızlıq, ədalət*

**3** Sonuncu cümləni tamamla.

Qazlar köç edərkən < şəklində düzülərək uçurlar. Bu onlara güclərinə qənaət etməyə imkan verir. Belə ki, ...

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

Dərslikdəki 35-ci mövzu "Meynə niyə ağlayır" hekayəsidir. Hekayəylə bağlı dərslikdə 9 tapşırıq verilmişdir. 1-ci və 2-ci tapşırıqlar PİRLS-in aşağı səviyyəsindəki "mətndən və ya cədvəl, diaqram və s. kimi digər formatlardan açıq-aşkar ifadə edilmiş informasiyaların tapılması və yazılması" bacarığı ilə, 2.1.2 standartına cavab verən 3-cü, 4-cü və 5-ci tapşırıqlar PİRLS-in orta səviyyəsindəki "mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək" bacarığını tətbiq etmək imkanı verir.

Şəkil 34. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

**2** Səbəb-nəticə cədvəlini tamamla.

| Səbəb | Nəticə |
|---|---|
| Elşənin atası meynəni budadı. | |
| | Elşənin kəsdiyi budaqlardan su damırdı. |

**3** *"Zoğ"* sözünün işləndiyi cümləyə diqqət yetir və bu sözün mənasını izah etməyə çalış.

**4** Hansı cümlədə *"budamaq"* sözünün mənası izah olunub?

A) Ağacların artıq qol-budaqlarını kəsmək
B) Ağacların dibini yumşaltmaq
C) Ağacın gövdəsini əhəngləmək

**5** *"Şkaf"* sözünü hansı sözlə əvəz etmək olar?

A) stol B) kreslo C) dolab

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

Bəxtiyar Vahabzadənin "Üşümürmü, görəsən" şeiri dərslikdəki 36-cı mövzudur. Şeirlə bağlı verilmiş 4 tapşırıqdan 2.1.3 standartına cavab verən 2-ci tapşırıq PİRLS-in orta səviyyəsindəki "mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək" bacarığına uyğundur.

Şəkil 35. Şeirlə bağlı dərslikdə verilmiş tapşırıq

2 Hansı ifadədə hərəkət bildirən söz məcazi mənada işlədilmişdir?

A) torpaq donur B) yel əsir C) şaxta kəsir

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

"Niyə məhz sual işarəsi" informativ mətni dərslikdəki 37-ci mövzudur. Mövzu ilə bağlı verilmiş 2 tapşırıqdan sadəcə biri 2.2.4 standartına cavab verir. 1-ci və 2-ci tapşırıq PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları tapmaq və şərh etmək" bacarığını reallaşdırmağa imkan verir.

Şəkil 36. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 Hansı abzasın mətnin məzmunu ilə bağlılığı zəifdir?

2 Cümlələri tamamla.

1. Sonunda durğu işarəsi olmayan cümlələri oxumaq çətin idi, çünki ...
2. Manutsi oxucuların işini asanlaşdırmaq istədi, buna görə də ...
3. Manutsinin tətbiq etdiyi qayda da çətinlik yaradırdı, çünki ...
4. İtalyan dilində "sual" sözü "q" hərfi ilə başlanır, ona görə də ...

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

Dərsliyin 38-ci mövzusu 6 tapşırıqdan ibarət olan "Lampa niyə söndü?" hekayəsidir. Mövzu ilə bağlı verilmiş tapşırıqlardan 2-cisi PİRLS-in orta səviyyəsindəki "hadisələri sıralamaq üçün məlumatları şərh etmək və əlaqələndirməyə başlamaq" bacarığı, 2.2.2 alt standartı və 2.2.4 standartına cavab verən 3-cü tapşırıq PİRLS-in orta səviyyəsindəki "mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək" bacarığı ilə uyğunluq təşkil edir.

Şəkil 37. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

**2** Səbəb-nəticə əlaqəsinə görə cümlələrin ardıcıllığını müəyyən et.

- Kamilgilin evindəki lampalar yandı.
- Elektrik stansiyası işlədi.
- Çoxlu yağış yağdı.
- Çayın suyu artdı.

**3** Hansı ifadənin izahı mətnin məzmununa uyğun deyil?

1. Qanı qaralmaq – bikefləmək, əhvalı pozulmaq
2. Cəh-cəh vurmaq – gözəl səslə nəğmə oxumaq
3. Üz tutmaq – müəyyən istiqamətdə getməyə başlamaq
4. Həsrət qoymaq – arzu etdiyi bir şeyə nail olmağa imkan verməmək
5. Acığı gəlmək – xoşlamamaq, bəyənməmək

***Mənbə:** Azərbaycan dili 4. Dərslik. 2019*

"Tülkü niyə suya girir" hekayəsi dərslikdəki 39-cu mövzu olub 4 tapşırıqdan ibarətdir. Bu tapşırıqlardan 1-cisi PİRLS-in yüksək səviyyəsindəki "izahatlar vermək və səbəb gətirmək üçün məntiqi əlaqələr qurmaqla nəticə çıxarmaq" bacarığı ilə, 2-cisi PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları tapmaq və şərh etmək" bacarığı ilə və 2.2.5 standartına cavab verən 3-cü tapşırıq isə PİRLS-in yüksək səviyyəsindəki "mətndəki hadisələrlə obrazların xarakterlərini, fəaliyyətlərini, hisslərini əlaqələndirmək və şərh etmək" bacarığı ilə uyğun gəlir.

Şəkil 38. Mövzu ilə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 Uyğunluğu müəyyən et.

A. Sualın cavabı mətndə var.
B. Sualın cavabı mətndə yoxdur, lakin təxmin etmək olar.
C. Sualın cavabı mətndə yoxdur, təxmin etmək mümkün deyil.

1. Ovçular niyə uzunboğoz rezin çəkmələr geyinmişdilər? A B C
2. Tülkü ölü göyərçini haradan tapmışdı? A B C
3. Ovçular nə üçün tülkünü ovlamadılar? A B C
4. Ovçular həmin gün qaban ovlaya bildilərmi? A B C

2 Cümləni tamamla.

Qoca ovçu təcrübəli, dünyagörmüş adam idi, buna görə də ...

3 Mətndə tülkünün hansı xüsusiyyətindən danışılır?

A) qorxaqlığından
B) suda üzmək bacarığından
C) təmizkarlığından

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

Dərslikdəki 40-cı mövzu "Yarasa nə üçün gecə ova çıxır" əfsanəsidir. Bu mövzu ilə bağlı dərslikdə verilmiş 7 tapşırıqdan sadəcə 2-si PİRLS tədqiqatının müvafiq səviyyələrinə uyğundur. Belə ki, 1-ci və 2-ci tapşırıq PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları tapmaq və şərh etmək" bacarığını tətbiq etməyə şərait yaradır.

Şəkil 39. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 Yarasa quş deyil, heyvan olmasını nə ilə izah edirdi? Bəs sən bunu başqa nə ilə izah edə bilərsən?

2 Heyvanların şahı quşların şahına göndərdiyi məktubda nə yazmışdı?

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

"Yarasa" adlı mətn dərslikdəki 41-ci mövzudur və informativ mətn növünə aiddir. Bu mətnlə bağlı dərslikdə 3 tapşırıq verilmişdir. Hər üç tapşırıq PİRLS-in aşağı

səviyyəsindəki “izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmağa başlamaq” bacarığı ilə qismən uyğunluq təşkil edir.

Şəkil 40. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 Yarasa haqqında məlumatlarla bağlı uyğunluğu müəyyən et.
A) Birinci mətndə verilib. C) Hər iki mətndə verilib.
B) İkinci mətndə verilib. D) Mətnlərin heç birində verilməyib.

1. Yarasa yumurta qoymur, balalamaqla çoxalır. A B C D
2. Yarasaların dişləri olur. A B C D
3. Yarasalar, əsasən, həşəratlarla qidalanır. A B C D
4. Yarasalar ova gecələr çıxır. A B C D

2 Mətndən çıxış edərək hansı sualın cavabını təxmin etmək olar?
A) Yarasanın hansı növləri məlumdur?
B) Yarasanın qulaqları nə üçün böyük olur?
C) Yarasa nə ilə qidalanır?

3 Hansı fikir mətndə öz əksini tapmayıb, amma ola bilər?
A) Yarasaların görmə qabiliyyəti zəifdir.
B) Lap tez qayıdan səs dalğası maneənin yaxında olmasına işarədir.
C) Uçarkən maneəni qanadları vasitəsilə müəyyən edir.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

“İlanlar niyə rəqs edir” informativ mətni dərslikdəki 42-ci mövzudur. Mövzu ilə bağlı dərslikdə 5 tapşırıq verilmişdir. Bu tapşırıqlardan 2.1.2 standartına cavab verən 1-ci və 2-ci tapşırıqlar PİRLS-in orta səviyyəsindəki “mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək” bacarığına uyğundur.

Şəkil 41. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 Lüğətdən istifadə etməklə *“elastik”* və *“refleks”* sözlərinin mənasını izah et.

2 Mətndəki “əksini” sözünü hansı sözlə ifadə etmək olar?
A) şəklini B) ifadəsini C) tərsini

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

Dərslikdəki 43-cü mövzu "Dünyagörmüş baba" hekayəsidir. Bu mövzu ilə bağlı dərslikdə verilmiş 3 tapşırıqdan 2.1.2 alt standartına cavab verən 1-ci tapşırıq PİRLS-in orta səviyyəsindəki "mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək" bacarığını, 2-ci tapşırıq isə PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları tapmaq və şərh etmək" bacarığını tətbiq etmək üçün zəmin yaradır.

Şəkil 42. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 Hansı cümlədə *şər* sözü mətndəki mənasında işlədilmişdir?

A) Deyirlər, xeyirlə şər həmişə bir-birini izləyir.
B) Kəndə axşamdan xeyli keçmiş, şər düşəndə çatdıq.
C) Allah səni xata-baladan, şərdən, böhtandan qorusun.

2 Babanın sözlərinə əsaslanaraq aşağıdakı cədvəli tamamla.

| Fikir | Əsaslandırma |
|---|---|
| Şamı yuxarı qaldıranda onun alovu çölə əyilir. | |
| | Bayırdan gələn soyuq hava ağırdır, otağa aşağıdan dolur. |

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

44-cü mövzu olan "Möcüzələr niyə yox olur" mətni informativ mətn növünə aiddir. Dərslikdə bu mətnlə bağlı 8 tapşırıq verilmişdir. Bu tapşırıqlardan 2.2.2 alt standartına cavab verən 1-ci tapşırıq PİRLS-in orta səviyyəsindəki "mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək" bacarığını, 3-cü tapşırıq PİRLS-in aşağı səviyyəsindəki "izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmağa başlamaq" bacarığını, 4-cü və 5-ci tapşırıqlar isə PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları tapmaq və şərh etmək" bacarığını reallaşdırmağa imkan verir.

Şəkil 43. Mətnlə bağlı dərslikdəki tapşırıqlar

**1** Uyğunluğu müəyyən et.

| | | | |
|---|---|---|---|
| 1 | Lərzəyə gətirmək | A | tarixin yaddaşında qalmaq, unudulmamaq |
| 2 | Tarixə yazmaq | B | xoşbəxtlik arzulamaq, uğurlar diləmək |
| 3 | Xeyir-dua vermək | C | qorxutmaq, sarsıtmaq |
| 4 | Ömür sürmək | Ç | vəziyyəti ilə maraqlanmaq, qayğı göstərmək |
| 5 | Qeydinə qalmaq | D | yaşamaq |

**3** Mətndəki məlumatlar hansı sualın cavabını tapmağa imkan verir? Seçimini izah et.

A) Artemis məbədindən əvvəlki iki möcüzə harada yerləşrdi?
B) Artemis məbədini uçurub dağıdan yadelli düşmənlər kimlər idi?
C) Bu gün Efes şəhəri hansı ölkənin ərazisinə daxildir?

**4** Efesdən Egey dənizinə kimi dəmir yolu çəkməkdə ingilislərin məqsədi nə idi? Onlar öz məqsədlərinə nail oldularmı?

**5** Artemis məbədinin tədricən yer üzündən yox olmasının səbəblərini sadala.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

Dərslikdəki 45-ci mövzu olan “Peyvənd niyə vacibdir” mətni növbəti informativ mətndir. Bu mövzu ilə bağlı verilmiş 7 tapşırıqdan 2.1.2 alt standartına cavab verən 1-ci tapşırıq PİRLS-in orta səviyyəsindəki “mətnin dil xüsusiyyətini müəyyənləşdirmək” bacarığı ilə, 2-ci və 3-cü tapşırıqlar isə PİRLS-in aşağı səviyyəsindəki “mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları tapmaq və şərh etmək” bacarığı ilə uyğunluq təşkil edir.

Şəkil 44. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

**1** Sözlərlə izahları uyğunlaşdır.

| | |
|---|---|
| 1. İmmunitet | A. Yoluxucu xəstəlik törədən mikrob. |
| 2. Virus | B. Orqanizmin xəstəliklərə müqaviməti. |
| 3. Epidemiya | C. Yoluxucu xəstəliyin kütləvi şəkildə yayılması. |

**2** Mətnin məzmununa görə ardıcıllığı müəyyən et.

A. Nəticəsiz axtarışlar.
B. İlk eksperiment və dünyanın xilası.
C. Ölüm qoxuyan "çiçək".
D. İnəklər insanların köməyinə necə çatdılar?

**3** Doğru, yoxsa yanlış?

1. Keçmişdə çiçək xəstəliyi çox geniş yayılmışdı. D Y
2. Çiçək insanlar və heyvanlar arasında yayılan xəstəlikdir. D Y
3. Çiçəyə qarşı peyvənd XIX əsrdə edilməyə başladı. D Y
4. İnsan çiçək xəstəliyinə yalnız bir dəfə tutula bilər. D Y
5. Ceyms çiçək xəstəliyini yüngül formada keçirdi. D Y

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

“Bağban sincab” hekayəsi dərslikdəki 46-cı mövzudur. Bu mövzu ilə bağlı 4 tapşırıq verilmişdir ki, bunlardan da sadəcə 2.2.2 alt standartına cavab verən 1-ci tapşırıq PİRLS-in orta səviyyəsindəki “mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək” bacarığına uyğundur.

Şəkil 45. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıq

**1** Uyğunluğu müəyyən et.

| | | | |
|---|---|---|---|
| 1 | Gözü sataşmaq | A | təsadüfən bir şey görmək, birdən görmək |
| 2 | Nəzər salmaq | B | təəccüblənmək, heyrət etmək |
| 3 | Fikrindən çıxmaq | C | zahiri görkəmi ilə diqqəti cəlb etmək |
| 4 | Gəl-gəl demək | Ç | baxmaq, nəzərdən keçirmək, yoxlamaq |
| 5 | Mat qalmaq | D | unudulmaq, xatırlanmamaq |

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

“Üç mirvari” adlı əfsanəvi hekayə dərslikdəki 47-ci mövzudur. Bu mövzu ilə bağlı verilmiş 6 tapşırıqdan 2.2.2 standartına cavab verən 1-ci və 4-cü tapşırıqlar, 2.1.2

standartına cavab verən 3-cü və 5-ci tapşırıqlar PİRLS-in orta səviyyəsindəki “mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək” bacarığına uyğun gəlir.

Şəkil 46. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 İkinci abzasda altından xətt çəkilmiş ifadəni izah et.

3 Mətndə hansı rəngdə verilmiş “ətək” sözünün məcazi mənada işləndiyini söylə. Fikrini əsaslandır.

4 Uyğunluğu müəyyən et.

| | | | |
|---|---|---|---|
| 1 | Qərar tutmaq | A | dərk etmək, qəbul etmək, inanmaq |
| 2 | Daşını atmaq | B | kömək etmək, çətin vəziyyətdən çıxarmaq |
| 3 | Ağlına batmaq | C | məhəbbətlə, nəvazişlə qucaqlamaq |
| 4 | Karına gəlmək | Ç | bir yerdə sabitləşmək, dayanmaq |
| 5 | Bağrına basmaq | D | əl çəkmək, boşlamaq, yaxa qurtarmaq |

5 Mətndə işlənmiş hansı sözləri yaxınmənalı hesab etmək olmaz?
A) mirvari, inci B) ləpir, iz C) dostluq, doğruluq

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

Dərslikdəki 48-ci mövzu “Yoldaşlıq köməyi” adlı şeirdir. Dərslikdə şeirlə bağlı verilmiş 4 tapşırıqdan 2-si oxu bacarıqlarının inkişafına xidmət edir. Belə ki, 2.1.3 alt standartına cavab verən 1-ci tapşırıq PİRLS-in orta səviyyəsindəki “mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək” bacarığını, 2-ci tapşırıq isə PİRLS-in aşağı səviyyəsindəki “izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmaq” bacarığını tətbiq etməyə şərait yaradır.

Şəkil 47. Şeirlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 Şeirin ilk dörd misrasında işlənmiş sifətlərdən hansı məcazi məna daşıyır? Həmin sözün həqiqi mənada işləndiyi cümlə qur.

2 Şeirə əsasən Ənvərin, Sərvərin, Elxanın şəkillərini müəyyən et.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

3 hissədən, 11 tapşırıqdan ibarət olan “Qaraca qız və Ağca xanım” hekayəsi dərslikdəki 49-cu mövzudur. Bu mövzu ilə bağlı verilmiş tapşırıqlar 2.1.2, 2.2.2 və 2.2.4 standartlarını tətbiq etməyə imkan verir. Bu tapşırıqlardan 2-ci və 4-cü tapşırıqlar PİRLS-in orta səviyyəsindəki “mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək” bacarığını, 5-ci tapşırıq PİRLS-in orta səviyyəsindəki “mətndəki hadisələr arasında mövcud olan aşkar səbəb və nəticələri nəql etmək, faktları yada salaraq mətndən nümunələr gətirmək” bacarığını, 6-cı, 7-ci, 8-ci və 9-cu tapşırıqlar qismən PİRLS-in aşağı səviyyəsindəki “mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları tapmaq və şərh etmək” bacarığını reallaşdırmağa xidmət edir.

Şəkil 48. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

A Z **2** Oxuduğun hissənin əvvəlində fərqləndirilmiş hansı sözün izahı mətnin məzmununa uyğun deyil? Həmin sözün mətndəki mənasını müəyyən et.

A) Asudə olmaq – rahat olmaq, boş vaxtı olmaq.
B) Rəiyyət – aşağı təbəqədən olan, yoxsul adam.
C) Pərişan olmaq – dağınıq olmaq, qatma-qarış olmaq.

A Z **4** Biri fərqli məna bildirir.

A) rişxənd B) tənə C) istehza Ç) təkəbbür D) kinayə

**5** Qaraca qızın rəfiqəsi ilə gizlicə görüşməsinə səbəb nə idi?

6 Doğru, yoxsa yanlış?

1. Bağçadan gələn səsləri birinci Qaraca qız eşitdi. D Y
2. Qaraca qız Pəricahan xanımın səsini tanıyıb bağçaya qaçdı. D Y
3. Qaraca qız Ağca xanımı anasına rəhmi gəldiyi üçün xilas etmək istəyirdi. D Y
4. Pəricahan xanım şəhərə zəng edib həkim çağırmışdı. D Y
5. Piri baba Qaraca qızı görən kimi vəziyyətinin ağır olduğunu başa düşdü. D Y

7 Suallarla bağlı uyğunluğu müəyyənləşdir.

A) Sualın cavabı mətndə var.
B) Sualın cavabı mətndə yoxdur, amma təxmin etmək olar.
C) Sualın cavabı mətndə yoxdur, təxmin etmək mümkün deyil.

1. Qaytanı Ağca xanımın qoluna kim bağlamışdı? A B C
2. Ağcanın qoluna qaytanı nə üçün bağlamışdılar? A B C
3. Ağcanın qoluna qaytanı niyə yaradan yuxarı bağlamışdılar? A B C

8 Hansı atalar sözü hekayənin məzmununa uyğundur?

A) Keçmə namərd körpüsündən, qoy aparsın sel səni.
B) Yaxşı dost yaman gündə tanınar.
C) İlanın ağına da lənət, qarasına da.

9 Hekayənin ideyasını müəyyənləşdir.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

"İki nar" qısa hekayəsi dərslikdəki 50-ci mövzudur. Bu mövzu ilə bağlı verilmiş 3 tapşırıqdan 2.1.2 standartına cavab verən 1-cisi PİRLS-in orta səviyyəsindəki "mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək" bacarığına, 2-ci tapşırıq isə PİRLS-in orta səviyyəsindəki "mətndəki hadisələr arasında mövcud olan aşkar səbəb və nəticələri nəql etmək, faktları yada salaraq mətndən nümunələr gətirmək" bacarığına uyğundur.

Şəkil 49. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

A Z 1 "Hikkə" sözünün mətndəki mənasını seç.

A) lovğalıq B) hirs D) tərslik

2 Sərçə, doğrudanmı, ikinci narın hara aparıldığını bilirdi? O niyə belə deyirdi?

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

3 hissədən, 13 tapşırıqdan ibarət olan “Mauqlinin dostları” mətni dərslikdəki 51-ci mövzudur. Bu tapşırıqlardan 2.1.2 standartına cavab verən 1-ci və 5-ci tapşırıqlar və 2.2.2 standartına cavab verən 6-cı tapşırıq PİRLS-in orta səviyyəsindəki “mən dil xüsusiyyətlərini müəyyənləşdirmək” bacarığını, 2-ci, 3-cü, 8-ci və 10-cu tapşırıqlar PİRLS-in aşağı səviyyəsindəki “izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmaq” bacarığını, 7-ci, 11-ci və 12-ci tapşırıqlar isə PİRLS-in aşağı səviyyəsindəki “mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları tapmaq və şərh etmək” bacarığını tətbiq etməyə imkan verir.

Şəkil 50. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

A Z **1** *“Qaba”* sözünü hansı sözlə əvəz etmək olar?

A) nazik B) arıq C) kobud Ç) tüklü

**2** Oxuduğun hissədə hansı sualın cavabını tapmaq mümkün deyil?

A) Meşədə Mauqliyə valideynlərini kim əvəz etmişdi?
B) Banderloqlar Mauqlini hansı məqsədlə qaçırmışdılar?
C) Banderloqlar nə üçün yalnız Kaadan qorxurdular?

**3** Sən cə, Balunun öyrətdiyi hansı biliklər Mauqliyə xilas olmaqda kömək edəcək?

A Z **5** *“Şöngümək”* sözünün mənasını izah et.

A Z **6** Uyğunluğu müəyyən et.

| | | | |
|---|---|---|---|
| 1 | Öhdəsindən gəlmək | A | xəbəri və ya fikri çatdırmağa ehtiyat etmək |
| 2 | Deməyə dili gəlməmək | B | vaxtı, zamanı çatmaq, fürsət yaranmaq |
| 3 | Od götürmək | C | qışqırmaq, bağırmaq, səsləmək |
| 4 | Məqamı yetişmək | Ç | bir işi yerinə yetirməyə gücü çatmaq |
| 5 | Qıy çəkmək | D | bərk hirslənmək, qəzəblənmək |

**7** Oxuduğun hissədə əfi ilan haqqında hansı məlumatlara rast gəldin?

**8** Nəyə görə Bahirə meymunların Kaanı təhqir etdiyini söyləyirdi?

**10** Səncə, nə üçün Mauqliyə yuxarıdan pişik kimi tullanmağı Balu deyil, məhz Bahirə öyrətmişdi?

**11** Kaa Mauqlini xilas etməyə razılıq verdi, çünki ...
A) Bahirənin sözünü yerə salmaq istəmirdi.
B) İnsan balasını çox istəyirdi.
C) Banderloqları cəzalandırmaq istəyirdi.

**12** Kaanın Mauqli haqqında dediyi son sözləri şərh et.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

2 hissəli "Unudulmuş dost" hekayəsi dərsliyin 52-ci mövzusudur. Mövzu ilə bağlı dərslikdə verilmiş 9 tapşırıqdan 2.2.2 standartına cavab verən 2-ci tapşırıq PİRLS-in orta səviyyəsindəki "mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək" bacarığı, 4-cü tapşırıq PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları tapmaq və şərh etmək" bacarığı, 2.2.5 standartına qismən cavab verən 5-ci tapşırıq isə PİRLS-in yüksək səviyyəsindəki "mətndəki hadisələrlə obrazların xarakterlərini, fəaliyyətlərini, hisslərini əlaqələndirmək və şərh etmək" bacarığı ilə uyğundur.

Şəkil 51. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

**A Z 2** "Qaynayıb-qarışmaq" ifadəsinin mənasını izah et.

**4** Doğru, yoxsa yanlış?
1. Günay ad gününə dəvət edəcəyi dostlarının siyahısını anası ilə birgə tərtib etmişdi. **D Y**
2. Günay ad gününə həm sinif yoldaşlarını, həm də həyətdəki dostlarını çağırmışdı. **D Y**
3. Günayın dostları üçün qonaqlıq bazar günü günortaya təyin edilmişdi. **D Y**
4. Günayın ad gününə dəvət etdiyi dostlarının hamısı qonaqlığa vaxtında gəlmişdi. **D Y**

**5** Günay və Nigarın müsbət və mənfi xüsusiyyətlərini sadala.

*Mənbə:* *Azərbaycan dili 4. Dərslik. 2019*

53-cü mövzu "Şah Abbas və vəzirləri" adlı rəvayətdir. Rəvayətlə bağlı dərslikdə verilmiş 2 tapşırıqdan heç biri PİRLS tədqiqatının səviyyələrinə uyğun deyildir.

"Uşaqlıq dostu" hekayəsi dərslikdəki 54 –cü mövzudur. Mövzu ilə bağlı dərslikdə verilmiş 4 tapşırıqdan 2-si oxu bacarıqlarının inkişafına xidmət edir. Bunlardan 2-ci tapşırıq PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları tapmaq və şərh etmək" bacarığını, 3-cü tapşırıq isə PİRLS-in aşağı səviyyəsindəki "izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmaq" bacarığını reallaşdırmağa imkan verir.

Şəkil 52. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar


2 Suallarla bağlı uyğunluğu müəyyənləşdir.

A) Sualın cavabı mətndə var.
B) Sualın cavabı mətndə yoxdur, amma təxmin etmək olar.
C) Sualın cavabı mətndə yoxdur, təxmin etmək mümkün deyil.

1. Boksçuların məşq etdiyi alət nə üçün "armud" adlanır? A B C
2. "Armud"la məşq etmək boksçuya nə verir? A B C
3. Məxmər ayını uşağa kim bağışlamışdı? A B C
4. Ata nə üçün oğluna boksçu armudu almadı? A B C

3 Mətndə hansı əşyadan söhbət gedir?

A. B. C. D.

*Mənbə:* *Azərbaycan dili 4. Dərslik. 2019*

"Fikrətin dostu" hekayəsi dərslikdəki 55-ci mövzu olub 4 tapşırıqdan ibarətdir. Bu tapşırıqlardan 1-cisi PİRLS-in aşağı səviyyəsindəki "izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmaq" bacarığı, 2.1.2 standartına cavab verən 2-ci tapşırıq isə PİRLS-in orta səviyyəsindəki "mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək" bacarığı ilə uyğunluq təşkil edir.

Şəkil 53. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 Əsərə çəkilmiş illüstrasiyaya bax. Nə baş verdiyini təxmin et. Sonra kitabı tərsinə çevirərək oxu.

2 Mətndəki “həqiqi” sözünü əvəz edə bilər:
A) doğru B) əsl C) real

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

4 hissədən ibarət olan “Səxavətli ağac” hekayəsi dərslikdəki 56-cı mövzudur. Bu mövzu ilə bağlı verilmiş 8 tapşırıqdan 4-ü oxu bacarıqlarının inkişafı üçün nəzərdə tutulmuşdur. Tapşırıqlardan 1-cisi və 6-cısı PİRLS-in aşağı səviyyəsindəki “mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək” bacarığını, 2-ci və 5-ci tapşırıqlar PİRLS-in yüksək səviyyəsindəki “mətndəki hadisələrlə obrazların xarakterlərini, fəaliyyətlərini, hisslərini əlaqələndirmək və şərh etmək” bacarığını reallaşdırmağa zəmin yaradır.

Şəkil 54. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 Oxuduğun hissədə hansı sualın cavabını tapmaq mümkün deyil?
A) Alma ağacı niyə özünü xoşbəxt hiss edirdi?
B) Oğlan hansı əyləncələri nəzərdə tuturdu?
C) Alma ağacı dostuna necə kömək etdi?

2 Alma ağacı və oğlan obrazları haqqında fikir söylə. Onlardan hansı daha çox xoşuna gəldi?

5 Alma ağacı obrazının əsas xüsusiyyətini müəyyən et.

6 Obrazların xarakterindən çıxış edərək əsərin ideyasını müəyyənləşdir.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

57-ci mövzu “İki qonşu” adlı rəvayətdir. Bu rəvayətlə bağlı dərslikdə verilmiş cəmi 2 tapşırıqdan 1-cisi PİRLS-in aşağı səviyyəsindəki “mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək” bacarığına uyğun gəlir.

Şəkil 55. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıq

Biri yanlışdır:
A) Hadisə qış aylarında baş verir.
B) Ənvərlə Səmədin evləri yanaşı idi.
C) Qonşuların evləri arasında hündür barı var idi.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

"Təbiətin dostları" hekayəsi dərslikdəki 58-ci mövzudur. Bu mövzu ilə bağlı dərslikdə verilmiş 7 tapşırıqdan 3-ü oxu bacarıqlarının inkişafı üçün uyğundur. 1-ci tapşırıq PİRLS-in orta səviyyəsindəki "mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək" bacarığını, 2-ci tapşırıq PİRLS-in aşağı səviyyəsindəki "izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmaq" bacarığını, 3-cü tapşırıq isə PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək" bacarığını qismən tətbiq etmək üçün nəzərdə tutulmuşdur.

Şəkil 56. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1. Mətndə nömrələnmiş cümlələrə diqqət yetir. "Çatmaq" sözü ilə əlaqədar uyğunluğu müəyyən et.
A. Məlum olmaq
B. Bir şeyin zamanı gəlmək
C. Nəyə ya kiməsə yetişmək

2. Çəhrayı boşluğun yerinə hansı söz uyğun gəlir?
A) üçüncü B) dördüncü C) beşinci

3. 1-ci abzasdakı *"canlanma"* sözü aiddir:
A) ağaclara B) şagirdlərə C) təbiətə

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

"Meşələrin dostluğu" hekayəsi dərslikdəki 59-cu mövzudur. Bu mövzu ilə bağlı dərslikdə 5 tapşırıq verilmişdir. 2.2.2 alt standartına cavab verən 1-ci tapşırıq PİRLS-in orta səviyyəsindəki "mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək" bacarığına, 2-ci tapşırıq PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək" bacarığına, 4-cü tapşırıq isə PİRLS-in

aşağı səviyyəsindəki "izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmaq" bacarığına uyğundur.

Şəkil 57. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1. Mətndə fərqləndirilmiş ifadənin və sözlərin mənalarını izah et.

2. Cümlələri tamamla.
İnsanların yeni saldıqları meşə məhv olurdu, çünki ... .
Quşları yuvaları ilə birlikdə yeni meşəyə apardılar, çünki ... .

4. Mətndən hansı elmi məlumatları əldə etdin?

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

"Suallar, cavablar" şeiri dərslikdəki 60-cı mövzudur. Şeirlə bağlı dərslikdə sadəcə 1 tapşırıq verilmişdir ki, o da PİRLS-in aşağı səviyyəsindəki "izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmaq" bacarığı ilə uyğunluq təşkil edir.

Şəkil 58. Şeirlə bağlı dərslikdə verilmiş tapşırıq

1. Nöqtələrin yerinə uyğun gələn söz sırasını seç.
A) əkinə, kökünə, kürkünə
B) kökünə, kürkünə, əkinə
C) kürkünə, əkinə, kökünə

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

Dərslikdəki 61-ci mövzu "Çil toyuq" hekayəsidir. Hekayə ilə bağlı dərslikdə verilmiş 5 tapşırıqdan 2-si oxu bacarıqlarının tətbiqi ilə əlaqədardır. 2.2.2 alt standartına cavab verən 1-ci tapşırıq PİRLS-in orta səviyyəsindəki "mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək" bacarığını, 3-cü tapşırıq isə PİRLS-in aşağı səviyyəsindəki "izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmaq" bacarığını reallaşdırmaq üçün zəmin yaradır.

Şəkil 59. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1. Mətndən çıxış edərək "himə bənd olmaq" ifadəsinin mənasını izah et.

3. Səncə, çil toyuğun ölümündə kimi günahlandırmaq olar?

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

3 hissəli "Gülgəz" hekayəsi dərslikdəki 62-ci mövzudur və dərslikdə bu mövzu ilə bağlı 12 tapşırıq verilmişdir. Bu tapşırıqlardan 1-cisi PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək" bacarığını, 2-ci, 6-cı və 11-ci tapşırıqlar PİRLS-in aşağı səviyyəsindəki "izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmaq" bacarığını, 3-cü, 4-cü, 5-ci, 8-ci və 9-cu tapşırıqlar isə PİRLS-in orta səviyyəsindəki "mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək" bacarığını tətbiq etməyə imkan verir.

Şəkil 60. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1. Mətnin məzmununa uyğun cümləni seç.
   A) Baba otağa girəndə Gülgəz bıçaqla əlindəki çubuğu təmizləyirdi.
   B) Gülgəz badam çubuğunu evin qabağındakı bağçada əkmək istəyirdi.
   C) Gülgəz mütaliə etməyi çox sevirdi.

2. Sonuncu abzasda hansı sualın cavabını tapmaq mümkün deyil?
   A) Badam ağacının meyvəsi necə yığılır?
   B) Badam ağacının meyvəsi nə vaxt yetişir?
   C) Badam ağacının meyvəsindən başqa hansı faydaları var?

3. Hansı cümlədə *"qələm"* sözü mətndəki mənasında işlənib?
   A) O, qüdrətli qələm sahibidir.
   B) Qələmlə ən çox limon və sitrus bitkiləri çoxaldılır.
   C) Qələm əyri yonulsa da, doğru yazar.

4. Babanın nitqindəki *"dirək"* sözünü hansı sözlə əvəz etmək olar?

5. Lüğətin köməyi ilə *"botanika"*, *"karsız"*, *"qov"* sözlərinin mənalarını araşdır.

6. Müəllimin dediyi *"canlıdır"* sözünü necə başa düşürsən?

**8** *“Alı baba Gülgəzin gözündə daha da böyüdü”* cümləsindəki *“böyüdü”* sözünü hansı sözlə əvəz etmək olar?

A) iriləşdi B) ucaldı C) yekəldi

**9** Hansı ifadənin izahı mətnə uyğun deyil?

1. Sözünü kəsmək – danışmağa, fikrini bitirməyə imkan verməmək
2. Göydən düşmək – təsadüfən ortaya çıxmaq, əldə edilmək
3. Göz qoymaq – diqqətlə baxmaq, müşahidə etmək
4. Üz tutmaq – müəyyən istiqamətdə getməyə başlamaq
5. Ovcunun içi kimi bilmək – çox yaxşı, dərindən bilmək

**10** Səncə, mətndə mavi boşluğun yerinə nə yazılmışdı? Müəllim nə dedi ki, Gülgəz qızardı?

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

“Tülkü”, “Fil”, “Ayı” adlı üç hissədən ibarət olan “Heyvanlar” şeiri dərslikdəki 63-cü mövzudur. Mövzu ilə bağlı dərslikdə cəmi 3 tapşırıq yer almışdır ki, bunlardan da sadəcə 1-cisi PİRLS-in aşağı səviyyəsindəki “mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək” bacarığı ilə uyğunluq təşkil etməkdədir.

Şəkil 61. Şeirlə bağlı dərslikdə verilmiş tapşırıq

**1** Fikirlərin hansı heyvana aid olduğunu müəyyənləşdir.

1. Ağ növünə nadir hallarda rast gəlinir.
2. Arxa ayaqları üzərində dayana bilir.
3. Qida axtarışına daha çox gecələr çıxır.



***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

“Buğda üşüyürmü” hekayəsi dərslikdəki 64-cü mövzudur. Mövzu ilə bağlı verilmiş 6 tapşırıqdan 2.2.2 alt standartına cavab verən 1-ci tapşırıq PİRLS-in orta səviyyəsindəki “mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək” bacarığı, 3-cü tapşırıq isə PİRLS-in aşağı səviyyəsindəki “izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmaq” bacarığı ilə uyğundur.

Şəkil 62. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

İfadələrin mətnə uyğun mənalarını seç.

*başa gəlmək*

1) tamam olmaq, bitmək 2) əmələ gəlmək, hasil olmaq

*ürək-dirək vermək*

1) ruhlandırmaq 2) cəsarətləndirmək

*qanını qaraltmaq*

1) kədərlənmək, dilxor olmaq 2) pərt olmaq

3 Mətndəki məlumatlardan çıxış edərək payızlıq taxıl üçün qarın xeyrini izah et.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

Dərslikdəki 65-ci mövzu "Novruz bayramı" adlı şeirdir. Bu şeirlə bağlı dərslikdə sadəcə 1 tapşırıq verilmişdir ki, o da PİRLS-in orta səviyyəsindəki "mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək" bacarığını tətbiq etməyə şərait yaradır.

Şəkil 63. Şeirlə bağlı dərslikdə verilmiş tapşırıq

1 İşləndiyi bəndin məzmunundan çıxış edərək "qovut" sözünün mənasını müəyyənləşdir.

A) uzunsov, yaxud girdəşəkilli, şirin və ətirli bostan meyvəsi
B) qovrulmuş buğda və ya noxud unundan hazırlanan çərəz
C) evdən çıxarılmış, qovulmuş adam

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

2 hissəli "Qızıl balıq" hekayəsi dərslikdəki 66-cı mövzudur. Bu mövzu ilə bağlı verilmiş 6 tapşırıqdan 3-ü oxu bacarıqlarının inkişafını nəzərdə tutur. Belə ki, 1-ci və 3-cü tapşırıq PİRLS-in aşağı səviyyəsindəki "izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmaq" bacarığını, 2-ci tapşırıq isə PİRLS-in orta səviyyəsindəki "mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək" bacarığını tətbiq etməyə xidmət edir.

Şəkil 64. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 Oxuduğun hissədən hansı nəticəyə gəlmək olmaz?

1. Arazla Çimnazın babası kənddə yaşayırdı.
2. Akvarium mütləq pəncərənin qabağında qoyulmalıdır.
3. Balıqlar xəstələnəndə, adətən, böyrü üstə dönürlər.

2 Mətndə fərqləndirilmiş ifadələrin mənalarını öz sözlərinlə izah et.

3 Baba Arazla Gülnaza balıqları bağışlayan kimi uşaqlar kitab mağazasından akvarium balıqları haqqında sorğu kitabı alsa idilər, hadisələr necə davam edərdi?

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

Dərsliyin 67-ci mövzusu olan “Sağsağan nə axtarırdı” hekayəsi ilə bağlı sadəcə 2 tapşırıq verilmişdir ki, onlardan da heç biri PİRLS tədqiqatının səviyyələrinə uyğun deyildir.

Dərslikdəki 68-ci mövzu “Yaz” şeiridir. Bu şeirlə bağlı verilmiş 3 tapşırıqdan 1-ci tapşırıq PİRLS-in orta səviyyəsindəki “mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək” bacarığı, 3-cü tapşırıq isə PİRLS-in aşağı səviyyəsindəki “izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmaq” bacarığı ilə uyğundur.

Şəkil 65. Şeirlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 Fərqləndirilmiş cümlədə “qaynaşmaq” feilinin hansı mənada işlədildiyini söylə.

3 Şair şeirin son misraları ilə nə demək istəyir?

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

“Alma ağacı” hekayəsi dərslikdəki 69-cu mövzudur. Mövzu ilə bağlı 6 tapşırıq verilmişdir ki, onlardan da 4-ü oxu bacarıqlarının inkişafı üçün nəzərdə tutulmuşdur. Belə ki, 1-ci və 5-ci tapşırıqlar PİRLS-in aşağı səviyyəsindəki “izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmaq” bacarığını, 2-ci və 3-cü tapşırıqlar isə PİRLS-in aşağı səviyyəsindəki “mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək” bacarığını tətbiq etməyə şərait yaradır.

Şəkil 66. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 Cəfərin ağacı nə üçün qurudu?

2 Doğru, yoxsa yanlış?

1. Zakirlə Cəfərin evlərinin arasında hündür barı var idi. D Y
2. Zakir barıya dırmaşmış Cəfəri görüb yanına çağırdı. D Y
3. Zakir bağda işləməyi çox sevirdi. D Y
4. Cəfər ağacı basdıranda səhvə yol vermişdi. D Y
5. Cəfər ağaca su verməyi tez-tez unudurdu. D Y
6. Cəfər əkdiyi ağacın niyə quruduğunu başa düşdü. D Y

3 Hansı atalar sözü mətnin məzmununa *uyğun deyil?*

A) Bağ salan barın yeyər.
B) Lovğalığın sonu xəcalətdir.
C) Bilməmək eyib deyil, bilməyib soruşmamaq eyibdir.

5 Mavi rəngli boşluğun yerinə hansı ifadə uyğun gəlir?

A) Bişmiş toyuğun gülməyi gəlir.
B) Vaxtsız banlayan xoruzun başını kəsərlər.
C) Xoruz yox idi, səhər açılmırdı?

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

“Məni itirməyin” hekayəsi dərslikdəki 70-ci mövzudur. Bu mövzu ilə bağlı verilmiş 5 tapşırıqdan 3-ü oxu bacarıqları ilə əlaqədardır. Tapşırıq 1, 2 və 3 PİRLS-in aşağı səviyyəsindəki “mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək” bacarığı ilə uyğunluq təşkil edir.

Şəkil 67. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 Mətndə hansı təbii fəlakətlərdən danışılır?

2 Mətnə görə, alov nədən yarandı?

A) dağın zirvəsində vulkanın püskürməsi nəticəsində
B) meşəyə ildırım düşməsi nəticəsində
C) meşəyə qaçmış uşaqların dəcəlliyi nəticəsində

3 Vicdanın dediyi hansı cümlə əsərin əsas ideyasını ifadə edir? Həmin cümləni izah et.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

Dərslikdəki 71-ci mövzu “Ən böyük dövlət” adlı rəvayətdir. Rəvayətlə bağlı dərslikdə sadəcə 2 tapşırıq verilmişdir. Tapşırıqlara nəzər saldıqda onların heç birinin PİRLS tədiqatının səviyyələrinə uyğun olmadığını müəyyənləşdirmək olar.

“Buz” hekayəsi dərslikdəki 72-ci mövzu olub 9 tapşırıqdan ibarətdir. Oxu bacarıqlarının inkişafı ilə əlaqədar 3 tapşırıq verilmişdir ki, bunlardan da sadəcə 3-cü tapşırıq PİRLS-in aşağı səviyyəsindəki “mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək” bacarığını reallaşdırmağa zəmin yaradır.

Şəkil 68. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıq

3 Doğru, yoxsa yanlış?

1. Hekayədə oğlanın uşaqlıq xatirəsindən danışılır. D Y
2. Oğlanın xalası qışda xəstələnmişdi. D Y
3. Qadının xəstələnməsi bütün ailəni narahat etmişdi. D Y
4. Anası oğlanı buz almaq üçün bazara göndərmişdi. D Y
5. Buzu gec gətirdiyinə görə xalasının əri oğlanı danladı. D Y
6. Oğlan bir az da geciksə idi, xalası ölə bilərdi. D Y

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

“Çinar ağacı” hekayəsi və “Xan çinar” şeiri dərslikdəki 73-cü mövzunu təşkil edir. Mövzu ilə əlaqədar dərslikdə cəmi 3 tapşırıq verilmişdir ki, onların hər üçü də oxu bacarıqlarının inkişafı üçün nəzərdə tutulmuşdur. Bu tapşırıqlardan 1-cisi PİRLS-in yüksək səviyyəsindəki “mətndəki hadisələrlə obrazların xarakterlərini, fəaliyyətlərini, hisslərini əlaqələndirmək və şərh etmək” bacarığı, 2-cisi PİRLS-in aşağı səviyyəsindəki “izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmaq” bacarığı, 3-cüsü isə PİRLS-in aşağı səviyyəsindəki “mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək” bacarığı ilə uyğunluq təşkil edir.

Şəkil 69. Mövzu ilə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 “Çinar ağacı” və “Xan çinar” əsərlərindəki çinar obrazlarını müqayisə et.

2 Xan çinar *”övladlarım”* dedikdə nəyi nəzərdə tuturdu?

3 Birinci mətndə olan hansı obraz “Xan çinar” şeirində yoxdur?

A) çovğun B) torpaq C) qaranquş balası

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

3 hissədən, 12 tapşırıqdan ibarət olan "Çiçək – yeddi rəng ləçək" hekayəsi dərslikdəki 74-cü mövzudur. 2.2.5 standartına cavab verən 2-ci və 8-ci tapşırıq PİRLS-in yüksək səviyyəsindəki "mətndəki hadisələrlə obrazların xarakterlərini, fəaliyyətlərini, hisslərini əlaqələndirmək və şərh etmək" bacarığını, 4-cü və 7-ci tapşırıq PİRLS-in aşağı səviyyəsindəki "izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmaq" bacarığını, 6-cı tapşırıq isə PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək" bacarığını tətbiq etməyə zəmin yaradır.

Şəkil 70. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

2. Oxuduğun hissəyə uyğun olaraq Jenyanın xarakteri haqqında fikir söylə və ona münasibət bildir.

4. Jenya narıncı ləçəyi qopardıqdan sonra neçə ləçək qaldı?

6. Jenya hansı ləçəkdən faydalı iş üçün istifadə etdi?

7. Nə üçün çiçəyin son yarpağını qopararkən Jenyanın səsi xoşbəxtlikdən titrəyirdi?

8. Mətnin sonuncu hissəsini oxuduqdan sonra Jenyanın xarakteri haqqında düşüncələrinə nə əlavə edərdin?

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

"Yaxşılığa əvəz" şeiri dərslikdəki 75-ci mövzudur. Şeirlə bağlı dərslikdə sadəcə 1 taşırıq verilmişdir ki, o da PİRLS tədqiqatının səviyyələrinə uyğun deyildir.

3 hissəli "Körpə nəğmənin nağılı" hekayəsi dərslikdəki 76-cı mövzudur. Mövzu ilə əlaqədar dərslikdə 12 tapşırıq verilmişdir. Bu tapşırıqlardan 1-ci və 8-ci tapşırıq PİRLS-in aşağı səviyyəsindəki "izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmaq" bacarığı, 2-ci, 4-cü, 7-ci, 9-cu, 10-cu və 11-ci tapşırıqlar PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək" bacarığı, 5-ci tapşırıq isə PİRLS-in yüksək səviyyəsindəki "mətndəki

hadisələrlə obrazların xarakterlərini, fəaliyyətlərini, hisslərini əlaqələndirmək və şərh etmək” bacarığı ilə uyğunluq təşkil edir.

Şəkil 71. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

**1** Oxuduğun hissədə hansı sualın cavabını tapmaq mümkün deyil?

A) Yaşlı nağməni kim bəstələmişdi?
B) Körpə nağmənin meşədə eşitdiyi “part” səsi nəyin səsi idi?
C) Ovçu ceyranı nə üçün ovlamaq istəyirdi?

**2** Doğru, yoxsa yanlış?

1. Gənc bəstəkar nağməni gecə yaratmışdı. D Y
2. Dünya körpə nağmənin çox xoşuna gəldi. D Y
3. Körpə nağmə meşədə cavan ovçu ilə rastlaşdı. D Y
4. Ovçu tüfənglə ceyranı vurmaq istəyirdi. D Y
5. Gülləsi qurtardığı üçün ovçu ceyranı vura bilmədi. D Y

**4** Suallarla bağlı uyğunluğu müəyyən et.

A. Sualın cavabı mətndə var.
B. Sualın cavabı mətndə yoxdur, lakin təxmin etmək olar.
C. Sualın cavabı mətndə yoxdur, təxmin etmək mümkün deyil.

1. Sarı donlu qız niyə ağlayırdı? A B C
2. Qız anasının verdiyi pulu harada itirmişdi? A B C
3. Dondurma növbəsində neçə uşaq dayanmışdı? A B C
4. Sarı donlu qız harada yaşayırdı? A B C
5. Körpə nağmə harada yaşayacaqdı? A B C

**5** Növbədə birinci dayanan oğlanla Anarı müqayisə et.

7. Mətnin məzmununa uyğun olan cümləni müəyyənləşdir.
A) Nəğmə mənzilin nömrəsini unutduğu üçün Anarın yaşadığı binanı tapmadı.
B) Ovçu ilə Anar eyni binada yaşayırdılar.
C) 146 nömrəli mənzildə ovçudan başqa heç kim yaşamırdı.
D) Anar yuxuda xoşbəxt görünürdü, çünki bu gün doyunca dondurma yemişdi.

8. Nəğmə nə üçün ovçunun qəlbinə girmədi?

9. Mətnin hansı hissələri nəğmənin xoşbəxtlik haqqında olduğunu sübut edir?

10. Anarın mənzilini axtaran nəğmə notları hansı ardıcıllıqla səsləndirməli idi?
A) fa, do, lya  B) lya, do, fa  C) do, lya, fa

11. 1-ci hissədə altından xətt çəkilmiş cümlələrə diqqət yetir və mətnin ideyası haqqında fikir yürüt.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

“Lalə və Məryəm” hekayəsi dərslikdəki 77-ci mövzudur. Mövzu ilə əlaqədar dərslikdə 6 tapşırıq verilsə də onlardan sadəcə 1-i oxu bacarıqlarının inkişafına xidmət edir. 2-ci tapşırıq PİRLS-in aşağı səviyyəsindəki “izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmaq” bacarığı ilə uyğunluq təşkil edir.

Şəkil 72. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıq

2. Nə üçün Məryəm gecələr rahat, Lalə isə narahat yatırdı?

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

“Məftunun bağa getməsi” şeiri dərslikdəki 78-ci mövzudur. Şeirlə bağlı dərslikdə sadəcə 2 tapşırıq verilmişdir. Hər iki tapşırıq da oxu bacarıqlarının inkişafına xidmət edir. Bu tapşırıqlardan 1-cisi PİRLS-in aşağı səviyyəsindəki “mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək” bacarığını, 2-cisi isə PİRLS-in yüksək səviyyəsindəki “mətndəki hadisələrlə obrazların xarakterlərini,

fəaliyyətlərini, hisslərini əlaqələndirmək və şərh etmək" bacarığını tətbiq etmək üçün şərait yaradır.

Şəkil 73. Şeirlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 Mətndə hansı meyvələrin adı çəkilir?

2 Məftunun xarakterindəki əsas cəhəti göstər.
A) lovğalıq B) acgözlük C) paxıllıq

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

Dərslikdəki 79-cu mövzu 4 hissəli "Zəhmət və Zinət" şeiridir. Şeirlə bağlı verilmiş 6 tapşırıqdan 4-ü oxu bacarıqlarının inkişafı üçün nəzərdə tutulsa da onlardan 2-si PİRLS tədqiqatı səviyyələrinə uyğundur. Belə ki, 4-cü tapşırıq PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək" bacarığı, 5-ci tapşırıq isə PİRLS-in yüksək səviyyəsindəki "mətndəki hadisələrlə obrazların xarakterlərini, fəaliyyətlərini, hisslərini əlaqələndirmək və şərh etmək" bacarığı ilə uyğunluq təşkil edir.

Şəkil 74. Mövzu ilə bağlı dərslikdə verilmiş tapşırıqlar

4 Mətnin ideyası hansı misralarda ifadə olunur?

5 Əsərdəki obrazlar haqqında düşündüklərini söylə. Alış dayı obrazının müsbət və mənfi cəhətlərini sadala.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

"Xor" şeiri dərslikdəki 80-ci mövzudur. Mövzu ilə bağlı 2 tapşırıq verilmişdir ki, bunlardan 2-cisi PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək" bacarığı ilə uyğundur.

Şəkil 75. Mövzu ilə bağlı dərslikdə verilmiş tapşırıq

2 Şeirin ideyasını müəyyənləşdir və ona uyğun atalar sözləri tap.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

"Qəza" mətni dərslikdəki 81-ci mövzu olub, 5 tapşırıqdan ibarətdir. Tapşırıqlardan 1-ci və 3-cüsü PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar

verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək" bacarığını tətbiq etməyə imkan verir.

Şəkil 76. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 Mətndə hansı planetlərin adı çəkilir? Günəş sisteminə daha hansı planetlər daxildir?

3 Doğru, yoxsa yanlış? Mətnə istinad etməklə seçimini əsaslandır.

1. Saturn Günəş sisteminin ən böyük planetidir. D Y
2. Yupiterin ətrafında üç zolaq var. D Y
3. Yupiter Günəş sistemində ən parlaq planetdir. D Y
4. Venera Marsa nisbətən daha böyük planetdir. D Y
5. Kan ilk dəfə idi ki, qalaktikalara səyahətə çıxmışdı. D Y

***Mənbə**: Azərbaycan dili 4. Dərslik. 2019*

82-ci mövzu "Aysel və Kənan" hekayəsidir. Mövzu ilə bağlı dərslikdə 7 tapşırıq verilmişdir ki, bunlardan 3-ü oxu bacarıqlarının inkişafı ilə əlaqədardır. 2-ci və 5-ci tapşırıq PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək" bacarığını, 6-cı tapşırıq isə PİRLS-in aşağı səviyyəsindəki "izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmaq" bacarığını reallaşdırmağa zəmin yaradır.

Şəkil 77. Mətnlə bağlı dərslikdə verilmiş tapşırıqlar

2 Lemini Yer planetinin uşaqlarından fərqləndirən cəhətləri sadala.

5 Mətnin məzmunundan çıxış edərək cümlələri davam etdir.

1. Kənan Lemi barədə anasına danışmaq fikrindən daşındı, çünki ...
2. Aysel və Kənan Leminin yadplanetli olduğunu gizlətmək qərarına gəldilər, çünki ...
3. Yatmağa gedəndə Aysel otağının qapısını bağladı, çünki ...

6 Səncə, nə üçün Kənan anasına Lemi haqqında danışmaq fikrindən daşındı?

***Mənbə:** Azərbaycan dili 4. Dərslik. 2019*

83-cü mövzu “Kainatın sirləri” mətnidir. Mövzu ilə bağlı dərslikdə 10 tapşırıq verilmişdir ki, bunlardan da 5-i oxu bacarıqlarının inkişafını nəzərdə tutur. 2-ci və 4-cü tapşırıq PİRLS-in aşağı səviyyəsindəki “mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək” bacarığına, 5-ci isə tapşırıq PİRLS-in yüksək səviyyəsindəki “mətndəki hadisələrlə obrazların xarakterlərini, fəaliyyətlərini, hisslərini əlaqələndirmək və şərh etmək” bacarığına uyğundur.

Şəkil 78. Mövzu ilə bağlı dərslikdə verilmiş tapşırıqlar

**2** Mətndəki hansı məlumatlar “Köln şəhəri Almaniyada yerləşir” hökmünü təsdiq edir.

**4** Uşaqların söhbətində hansı məsələyə toxunulmur?
A) İnsanların fəaliyyəti nəticəsində Yer planetinə vurulan ziyandan
B) Başqa planetlərdə şüurlu varlıqların mövcud olmasından
C) Yer kürəsində yaşayan alimlərin başqa planetlərlə əlaqə yaratmaq cəhdlərindən
D) Hər hansı bir planetin məhv olmasının bütün Kainat üçün təhlükə yarada biləcəyindən

**5** Leminin gəldiyi planetdəki insanları Yer planetindəki insanlarla müqayisə et. Onların hansı xüsusiyyətlərini daha çox bəyəndin?

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

“Məktəbdə” hekayəsi dərslikdəki 84-cü mövzudur. Bu mövzu ilə bağlı verilmiş 7 tapşırıqdan 1-ci, 4-cü və 5-cisi PİRLS-in aşağı səviyyəsindəki “izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmaq” bacarığı ilə, 3-cü tapşırıq PİRLS-in orta səviyyəsindəki “Mətndəki hadisələr arasında mövcud olan aşkar səbəb və nəticələri nəql etmək, faktları yada salaraq mətndən nümunələr gətirmək” bacarığı ilə uyğunluq təşkil edir.

Şəkil 79. Mövzu ilə bağlı dərslikdə verilmiş tapşırıqlar

**1** Leminin qurduğu riyazi məsələlərdən çıxış edərək onun planetindəki həyat haqqında nə demək olar?

3 Aysel Lemini dümsükləməklə ona nəyi xatırlatmaq istəyirdi?

4 Səncə, nə üçün zəng vurulsa da, heç kəs yerindən tərpənmirdi?

5 Leminin dediklərindən onun planeti ilə bağlı xoşuna gələnləri və gəlməyənləri söylə. Fikirlərini əsaslandır.

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

Dərslikdəki 85-ci mövzu "Üzgüçülük hovuzunda" adlanır. Bu mövzu ilə bağlı 6 tapşırıq verilmişdir. 1-ci, 2-ci və 4-cü tapşırıq PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək" bacarığını tətbiq etməyə imkan yaradır.

Şəkil 80. Mövzu ilə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 Mətnin bu hissəsində Leminin hansı bacarıqları üzə çıxdı? Səndə bu bacarıqlar olsa idi, necə hərəkət edərdin?

2 Oxuduğunuz hissədə Leminin hansı bacarıqları üzə çıxır?

4 Cümlələri tamamla.
1. Lemi Kənana kömək etmədi, çünki ...
2. Kənan uduzduğuna görə pərt olmuşdu, çünki ...
3. Uşaqların üzmə sürəti az idi, çünki ...

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

"Virtual əlaqə" hekayəsi dərsliyin 86-cı mövzusu olub, 4 tapşırıqdan ibarətdir. Bu tapşırıqlardan sadəcə 1-ci PİRLS-in aşağı səviyyəsindəki "izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmaq" bacarığına uyğundur.

Şəkil 81. Mövzu ilə bağlı dərslikdə verilmiş tapşırıqlar

1 İlqar uşaqları nə üçün izləyirdi? O, kosmik fəzanın xəritəsini görəndə niyə heyrətləndi?

***Mənbə:*** *Azərbaycan dili 4. Dərslik. 2019*

"Həftəsonu" hekayəsi dərslikdəki 87-ci mövzudur. Bu mövzu ilə bağlı 4 tapşırıq verilmişdir ki, onlardan 2-si oxu bacarıqlarının formalaşdırılmasına xidmət edir. 1-ci

və 2-ci tapşırıq PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək" bacarığı ilə uyğunluq təşkil edir.

Şəkil 82. Mövzu ilə bağlı dərslikdə verilmiş tapşırıqlar

1. Mətnə istinad edərək hündürlüyə hoppanmaqla cazibə qüvvəsi arasındakı əlaqəni izah et.

2. Kan Lemini öz planetinə aparmağa həftənin hansı günü gəlməli idi? Mətnə istinad etməklə seçimini izah et.
A) Bazar ertəsi B) Çərşənbə C) Cümə

***Mənbə:** Azərbaycan dili 4. Dərslik. 2019*

Dərslikdəki 88-ci mövzu "Vida" hekayəsidir. Mövzu ilə bağlı dərslikdə verilmiş 4 tapşırıqdan 2-si oxu bacarıqlarının formalaşdırılmasına xidmət edir. 1-ci tapşırıq PİRLS-in aşağı səviyyəsindəki "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək" bacarığını, 2-ci tapşırıq isə PİRLS-in aşağı səviyyəsindəki "izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmaq" bacarığını reallaşdırmağa şərait yaradır.

Şəkil 83. Mövzu ilə bağlı dərslikdə verilmiş tapşırıqlar

1. Əvvəlki mətnləri xatırlayaraq İlqarı şübhələndirə bilən məqamları seç və seçimini izah et.

A) Leminin qolundakı saatda rəngli işıqların yanıb-sönməsi.
B) Leminin Yer planetindəki ekoloji problemlər haqqında dedikləri.
C) Üzgüçülük hovuzunda Leminin saatı ilə bağlı baş verənlər.
Ç) Rüstəmin Leminin qardaşı ilə əlaqə yaratması.
D) Kosmik fəzanın xəritəsinin skamyanın üstündə qalması.

2. Siqnalın gəlməsi nədən xəbər verirdi?

***Mənbə:** Azərbaycan dili 4. Dərslik. 2019*

4-cü sinif "Azərbaycan dili" dərsliyindəki mövzularla bağlı tapşırıqları təhlil etikdən sonra aşağıdakı statistik nəticəyə gələ bilərik:




**Cədvəl 5.** Dərslikdəki mətnlərlə bağlı tapşırıqların PİRLS səviyyələrinin meyarları ilə uyğunluğu:

| Aşağı səviyyə | Uyğun tapşırığın nömrəsi |
|---|---|
| **Bədii mətn növləri üçün meyarlar** | |
| **Mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək** | **1, 2, 6** ("Futbol topu"), **1** ("Baba və nəvə"), **2, 3** ("Kitab daha maraqlıdır"), **2, 3** ("Ruminin məsləhəti"), **11** ("Birinci addım"), **3** ("Ən qiymətli"), **4, 6, 9** ("Tom özünü fəda edir"), **1** ("Natiqlik məharəti haqqında"), **3** ("Azərbaycan – Türkiyə"), **2, 4** ("İtə ataram, yada satmaram"), **4** ("Çünki oldun dəyirmançı"), **4, 5, 6** ("Öz arşınınla ölçmə"), **5, 6, 7** ("Halal pil"), **5** ("Qurucu"), **3** ("Təndir tikə bilməyən ev tikə bilməz"), **6** ("Bir boşqab sıyıq"), **1, 2** ("Hədiyyə"), **2** ("İki qardaş"), **2, 5** |

| | |
|---|---|
| | (“Hökmdar qardaşlar”), **1** (“Kirpinin düz sözü”), **3, 4** (“Hazır yuva”), **3** (“Qazların uçuşu”), **1, 2** (“Niyə məhz sual işarəsi”), **2** (“Tülkü niyə suya girir”), **1, 2** (“Yarasa nə üçün gecə ova çıxır”), **2** (“Dünyagörmüş baba”), **4, 5** (“Möcüzələr niyə yox olur”), **2, 3** (“Peyvənd niyə vacibdir”), **6, 7, 8, 9** (“Qaraca qız və Ağca xanım”), **7, 11, 12** (“Mauqlinin dostları”), **4** (“Unudulmuş dost”), **2** (“Uşaqlıq dostu”), **1, 6** (“Səxavətli ağac”), **1** (“İki qonşu”), **3** (“Təbiətin dostları”), **2** (“Meşələrin dostluğu”), **1** (“Gülgəz”), **1** (“Heyvanlar”), **2, 3** (“Alma ağacı”), **1, 2, 3** (“Məni itirməyin”), **3** (“Buz”), **3** (“Çinar ağacı”), **6** (“Çiçək – yeddi rəng ləçək”), **2, 4, 7, 9, 10, 11** (“Körpə nəğmənin nağılı”), **1** (“Məftunun bağa getməsi”), **4** (“Zəhmət və zinət”), **2** (“Xor”), **1, 3** (“Qəza”), **2, 5** (“Aysel və Kənan”), **2, 4** (“Kainatın sirləri”), **1, 2, 4** (“Üzgüçülük hovuzunda”), **1, 2** (“Həftəsonu”), **1** (“Vida”). |
| **Mətndə qələmə alınan hadisələrin səbəbləri barədə birbaşa nəticə çıxarmaq** | |

| | |
|---|---|
| **Mətndəki hadisələri və onun başlıca ideyalarını şərh etməyə başlamaq** | **8** (“Futbol topu”), **3** (“Birinci addım”) |
| **İnformativ mətn növləri üçün meyarlar** | |
| **Mətndən və ya cədvəl, diaqram və s. kimi digər formatlardan açıq-aşkar ifadə edilmiş informasiyaların tapılması və yazılması** | **1, 2** (“Meynə niyə ağlayır”) |
| **Izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmağa başlamaq** | **3** (“Möcüzələr niyə yox olur”), **2** (“Yoldaşlıq köməyi”), **2, 3, 8, 10** (“Mauqlinin dostları”), **3** (“Uşaqlıq dostu”), **1** (“Fikrətin dostu”), **2** (“Təbiətin dostları”), **4** (“Meşələrin dostluğu”), **1** (“Suallar və cavablar”), **3** (“Çil toyuq”), **2, 6, 11** (“Gülgəz”), **3** (“Buğda üşüyürmü”), **1, 3** (“Qızıl balıq”), **3** (“Yaz”), **1, 5** (“Alma ağacı”), **2** (“Çinar ağacı”, “Xan Çinar”), **4, 7** (“Çiçək – yeddi rəng ləçək”), **1, 8** (“Körpə nəğmənin nağılı”), **2** (“Lalə və Məryəm”), **6** (“Aysel və Kənan”), **1, 4, 5** (“Məktəbdə”), **1** (“Virtual əlaqə”), **2** (“Həftəsonu”), **1, 4, 5** (“Vida”) |
| **Orta səviyyə** | **Uyğun tapşırığın nömrəsi** |
| **Bədii mətn növləri üçün meyarlar** | |

| | |
|---|---|
| **Mətndə açıq-aşkar verilmiş məqamları, hadisələri və duyğuları sərbəst formada müəyyən etmək və şərh etmək** | |
| **Mətndəki baş qəhrəmanların duyğuları, motivasiya və münasibətləri ilə bağlı birbaşa nəticə çıxarmaq** | **8** (“Tom özünü fəda edir”) |
| **Mətndəki hadisələr arasında mövcud olan aşkar səbəb və nəticələri nəql etmək, faktları yada salaraq mətndən nümunələr gətirmək** | **5** (“İtə ataram, yada satmaram”), **1** (“Qədim Yunan sözləri”), **6** (“Qurucu”), **4** (“Təndir tikə bilməyən ev tikə bilməz”), **1, 2** (“İlk dərs”), **1, 2, 3, 4, 5** (“Hökmdar qardaşlar”), **5** (“Qaraca qız və Ağca xanım”), **2** (“İki nar”), **3** (“Məktəbdə”) |
| **Mətndəki dil xüsusiyyətlərini yada salmağa başlamaq** | **5** (“Futbol topu”), **3, 4** (“Baba və nəvə”), **1** (“Beş qiyməti”), **1** (“Kitab daha maraqlıdır”), **1, 2, 5, 8, 13** (“Birinci addım”), **1, 3, 7** (“Tom özünü fəda edir”), **3** (“Natiqlik məharəti haqqında”), **1** (“Azdanışmağın gözəlliyi”), **2, 3** (“Sözün qüdrəti”), **1** (“Heydər Əliyevin kəlamları”), **1** (“Azərbaycan – Türkiyə”), **1** (“Bayrağım”), **2** (“Əsgər marşı”), **1, 11, 8** (“Çünki oldun dəyirmançı”), **2** (“Qədim Yunan sözləri”), **1, 2, 3** (“Halal pul”), **1, 2, 3** |

| | |
|---|---|
| | (“Qurucu”), **1** (“Təndir tikə bilməyən ev tikə bilməz”), **1** (“Bir boşqab sıyıq”), **3** (“Ən böyük xəzinə”), **1** (“İki qardaş”), **1** (“Qazların uçuşu”), **3, 4, 5** (“Meynə niyə ağlayır”), **2** (“Üşümürmü, görəsən”), **3** (“Lampa niyə söndü”), **1, 2** (“İlanlar niyə rəqs edir”), **1** (“Dünyagörmüş baba”), **1** (“Möcüzələr niyə yox olur”), **1** (“Peyvənd niyə vacibdir”), **1** (“Bağban sincab”), **1, 3, 4, 5** (“Üç mirvari”), **1** (“Yoldaşlıq köməyi”), **2, 4** (“Qaraca qız və Ağca xanım”), **1** (“İki nar”), **1, 5, 6** (Mauqlinin dostları”), **2** (“Unudulmuş dost”), **2** (“Fikrətin dostu”), **1** (“Təbiətin dostları”), **1** (“Meşələrin dostluğu”), **1** (“Çil toyuq”), **3, 4, 5, 8, 9** (“Gülgəz”), **1** (“Buğda üşüyürmü”), **1** (“Novruz bayramı”), **2** (“Qızıl balıq”), **1** (“Yaz”) |
| **İnformativ mətn növləri üçün meyarlar** | |
| **Mətndə verilmiş məlumatlardan bir neçəsini tapmaq və qeyd etmək** | |
| **Real, faktiki izahlar vermək məqsədilə birbaşa nəticələr çıxarmaq** | |

| | |
|---|---|
| **Hadisələri sıralamaq üçün məlumatları şərh etmək və əlaqələndirməyə başlamaq** | **2** (“Lampa niyə söndü”) |
| **Yüksək səviyyə** | **Uyğun tapşırığın nömrəsi** |
| **Bədii mətn növləri üçün meyarlar** | |
| **Mətndə yerləşdirilmiş mühüm hadisələri və sətraltı detalları tapmaq və ayırd etmək** | |
| **Mətndən nümunələr verməklə mətnin məzmunu, mətndəki hadisələr, məqsədlər arasındakı əlaqələri izah etmək** | **4** (“Ən qiymətli”) |
| **Mətndəki hadisələrlə obrazların xarakterlərini, fəaliyyətlərini, hisslərini əlaqələndirmək və şərh etmək** | **5** (“Tom özünü fəda edir”), **3** (“İtə ataram, yada satmaram”), **5, 6, 7** (“Çünki oldun dəyirmançı”), **4** (“Halal pul”), **3, 4, 5** (“Bir boşqab sıyıq”), **2** (“Ən böyük xəzinə”), **1** (“Hazır yuva”), **2** (“Qazların uçuşu”), **3** (“Tülkü niyə suya girir”), **5** (“Unudulmuş dost”), **2, 5** (“Səxavətli ağac”), **1** (“Çinar ağacı”, “Xan çinar”), **2, 8** (“Çiçək – yeddi rəng ləçək”), **5** (“Körpə nəğmənin nağılı”), **2** (“Məftunun bağa getməsi”), **5** (“Zəhmət və zinət”), **5** (“Kainatın sirləri”) |
| **Mətndə istifadə edilmiş dil xüsusiyyətlərini müəyyənləşdirmək** | |

| | |
|---|---|
| **Informativ mətn növləri üçün meyarlar** | |
| **Mürəkkəb mətn və cədvəllərdəki müvafiq məlumatları müəyyənləşdirmək və ayırd etmək** | |
| **Izahatlar vermək və səbəb gətirmək üçün məntiqi əlaqələr qurmaqla nəticə çıxarmaq** | **1** (“Tülkü niyə suya girir”), **1, 2, 3** (“Yarasa”) |
| **Mətnin ideyaları arasında mövcud olan əlaqələri müəyyən etmək məqsədilə mətndəki vizual və yazılı informasiyaları əlaqələndirmək** | |
| **Məzmun və mətn elementlərini ümumiləşdirmək və qiymətləndirmək** | |

| **Ən yüksək səviyyə** | **Uyğun tapşırığın nömrəsi** |
|---|---|
| **Bədii mətn növləri üçün meyarlar** | |
| **Mətnə əsaslanaraq, hadisələrin səbəblərini və inkişafını və personajların fəaliyyətlərini, maraqlarını, hisslərini şərh etmək** | **9** (“Birinci addım”) |
| **Müəllifin dil və üslub seçimlərinin oxucuya təsirini qiymətləndirmək** | |
| **Mətnə əsaslanaraq, onun ayrı-ayrı hissələrindəki mürəkkəb** | |

| | |
|---|---|
| **məlumatları ayırd etmək və şərh etmək** | |
| **Informativ mətn növləri üçün meyarlar** | |
| **Mətndəki hadisələrin ardıcıllığını və bir-birləri ilə bağlılığını izah etmək məqsədilə informasiyaları birləşdirmək** | |
| **Yazıçının baxış tərzini müəyyən etmək məqsədilə mətndəki vizual və mətn elementlərini qiymətləndirməyə başlamaq** | |

Nəticə etibarilə deyə bilərik ki, 4-cü sinif Azərbaycan dili dərsliyindəki mətnlər PİRLS tədqiqatındakı mətnlərə uyğun olsa da, onlarla bağlı tapşırıqların çox az qismi PİRSL səviyyələrinin meyarları ilə uyğunluq təşkil edir və tapşırıqların böyük əksəriyyəti aşağı səviyyədə "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək", "izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmağa başlamaq", orta səviyyədə "mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək", "mətndəki hadisələr arasında mövcud olan aşkar səbəb və nəticələri nəql etmək, faktları yada salaraq mətndən nümunələr gətirmək", yüksək səviyyədə "mətndəki hadisələrlə obrazların xarakterlərini, fəaliyyətlərini, hisslərini əlaqələndirmək və şərh etmək" meyarlarına, digərləri az sayda bu səviyyələrin bir neçə digər meyarlarına, sadəcə 1 tapşırıq isə ən yüksək səviyyədəki meyarlardan birinə cavab verir. Bu təhlil şagirdlərin oxu savadlılığının yüksəldilməsi üçün dərslikdəki tapşırıqların daha yaxşı şəkildə işlənərək hazırlanmasının lazımlığını sübut edir.

# NƏTİCƏ

Tədqiqat işinin mövzusu olan “4-cü sinif “Azərbaycan dili” dərsliyindəki mətn və tapşırıqların PİRLS tədqiqatında nəzərdə tutulan oxu bacarıqlarını formalaşdırması baxımından incələnməsi” haqqında araşdırmalar apararaq tədqiqat işinin fəsillərində bəhs olunanlardan konkret olaraq aşağıdakı nəticələrə gələ bilərik:

1. PIRLS (Oxu Bacarıqlarının İnkişafı ilə bağlı Beynəlxalq Tədqiqat) - şagirdlərin oxu, yəni qavrama qabiliyyətlərinin inkişafı ilə bağlı olan beynəlxalq tədqiqatlardan biridir. Təhsildə Qiymətləndirmə ilə bağlı Beynəlxalq Assosiasiyanın (IEA) bu assosiasiyaya daxil olan, yaxud digər iştirakçı ölkələrdə hər beş ildən bir dördüncü sinif şagirdləri arasında aparılan bir tədqiqatdır [22, s.12].
2. Mətnlərin məzmununun aydınlığı və uyğunluğu PIRLS mətnləri üçün əsas meyarlardandır. Tipik olaraq, mətnlər və veb saytlar, gənc auditoriya üçün yazmağı bacaran peşəkar müəlliflər tərəfindən yazıldığı üçün, mətnlər dil xüsusiyyətləri və məlumat sıxlığı baxımından dördüncü sinif səviyyəsinə uyğun olur. Beynəlxalq araşdırma kontekstində, oxu təcrübəsinin qiymətləndirilməsində etibarlılığın əldə edilməsi, mətnləri çoxsaylı dillərə tərcümə etmək ehtiyacı ilə bir qədər məhdudlaşdırıla bilər. Beləliklə, mənada aydınlıq itirmədən tərcümə edilə bilən mətnlərin seçilməsinə diqqət yetirilir.
3. PİRLS beynəlxalq oxu bacarığının qiymətləndirilməsi proqramı şagirdlərdən oxuduqları mətnin ideya və məzmununu qavrayaraq şərh etmə, yadda saxlama, hadisələri əlaqələndirmə, birbaşa nəticəyə gəlmə, dil xüsusiyyətlərinin fərqləndirilməsi kimi bacarıqlar tələb edir. Lakin PİRLS proqramının səviyyələri üzrə tələblərlə ölkəmizdə oxu standardlarını müqayisə etdiyimiz zaman aşkar oldu ki, dördüncü sinif şagirdlərinin oxu standardlarından aşağı səviyyə və orta səviyyə üzrə cəmi bir və yuxarı səviyyə üzrə cəmi iki standard qismən uyğunluq təşkil edir. Ən yüksək səviyyə üzrə tələblərin heç biri standardlarda öz əksini tapmır. Beləliklə, buradan belə nəticə çıxır ki, ölkəmizdə oxu standardlarının

yenidən işlənərək, beynəlxalq standardlara cavab verəcək şəkildə hazırlanmalıdır.

4. Təhlillər göstərir ki, PİRLS tədqiqatına qoşulduqdan sonra ölkəmizdə ibtidai təhsil pilləsinin dördüncü sinif "Azərbaycan dili" dərsliyindəki oxu materialları və tapşırıqları beynəlxalq normalara cavab verilməsi üçün daha əlverişli hazırlanmış, tapşırıqlar, mətnlərin növləri, strukturu şagirdlərdə beynəlxalq oxu savadlılığı bacarıqlarını formalaşdırmağa və inkişaf etdirməyə yönəldilmişdir. Lakin bununla belə, ölkəmizdəki dördüncü sinif "Azərbaycan dili" dərsliyindəki oxu tapşırıqlarında çox zaman şagirdlərin mətndəki hadisələrə münasibəti, mətnin növbəti hissəsində baş verəcək hadisələrin təxmin edilməsi, mətnin məzmununun qavranılması, şagirdlərin mövzu ilə bağlı söz ehtiyatlarının və ya dünyagörüşlərinin ölçülməsi kimi məsələlər öz əksini tapır. Bu səbəbdən də, PİRLS beynəlxalq tədqiqatının tələblərinə uyğun oxu savadlılığını təmin etmək məqsədilə müəllimlər əlavə material və tapşırıqlardan istifadə edə bilərlər. Bu əlavə materialları müəllimlər özləri də hazırlaya bilər. Bunun üçün PİRLS tədqiqatında istifadə olunmuş mətn nümunələrini və tapşırıqları nəzərdən keçirmək və aşağı səviyyədən ən yüksək səviyyəyə doğru mərhələ-mərhələ bu tapşırıqları sinifdə tətbiq etmək əlverişli ola bilər.
5. Araşdırmalar və aparılan təhlillər zamanı məlum olmuşdur ki, 4-cü sinif Azərbaycan dili dərsliyindəki mətnlər PİRLS tədqiqatındakı mətnlərə uyğun olsa da, onlarla bağlı tapşırıqların çox az qismi PİRSL səviyyələrinin meyarları ilə uyğunluq təşkil edir və tapşırıqların böyük əksəriyyəti aşağı səviyyədə "mətndə açıq-aşkar verilmiş informasiya, hadisə və ideyaları xatırlamaq və şərh etmək", "izahlar, hadisələr və təsvirlərlə bağlı birbaşa nəticə çıxarmağa başlamaq", orta səviyyədə "mətnin dil xüsusiyyətlərini müəyyənləşdirmək", "mətndəki hadisələr arasında mövcud olan aşkar səbəb və nəticələri nəql etmək, faktları yada salaraq mətndən nümunələr gətirmək", yüksək səviyyədə "mətndəki hadisələrlə obrazların xarakterlərini, fəaliyyətlərini, hisslərini əlaqələndirmək və şərh

etmək" meyarlarına, digərləri az sayda bu səviyyələrin bir neçə digər meyarlarına, sadəcə 1 tapşırıq isə ən yüksək səviyyədəki meyarlardan birinə cavab verir.

Beləliklə, şagirdlərin davamlı uğurlu nəticələr əldə etməsi üçün daha yaxşı tədbirlər görülməsinə ehtiyac var. Belə ki, bunun üçün oxu standartları ilə birlikdə dərsliklər də daha yaxşı hazırlanaraq beynəlxalq standardlara cavab verməli, mətnlərlə bağlı PİRLS tədqiqatının bütün səviyyələri üzrə meyarlara cavab verən tapşırıqların hazırlanmasına xüsusi diqqət yetirilməlidir. İnformativ mətnlər və onlarla bağlı tapşırıqlar daha da inkişaf etdirməli, PİRLS tədqiqatının səviyyələri üzrə meyarlara uyğunlaşdırılmalıdır. Şagirlərin oxu savadlılığına yiyələnməsində, tapşırıqların düzgün tədrisində müəllimlərin rolunu nəzərə alaraq bakalavriat pilləsində savadlı kadrların yetişdirilməsinə xüsusi diqqət yetirilməlidir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


**Azərbaycan dilində:**

1. İsmayılov R., Abdullayeva S., Cəfərova D. və Qasımova X. Azərbaycan dili 4: Ümumtəhsil məktəblərinin 4-cü sinfi üçün “Azərbaycan dili” (tədris ili kimi) fənni üzrə dərslik. Bakı, “Aspoliqraf Ltd” MMC, 2019, s.224.
2. Kərimov Y. Ana dilinin tədrisi metodikası. Bakı, “Kövsər”, 2011
3. Səmədova E. The analyzing of Azerbaijani pupils results of PIRLS 2016. Azerbaijan Journal of Educational Studies.2019. №1, s.23
4. Süleymanova A. Fənn kurikulumlarında məzmun standartı, Kurikulum İslahatı: tədqiqatlar, nəticələr, Mütərcim, Bakı. 2011. s.100-118
5. Ümumi təhsilin məzmun standartları (I-XI siniflər), Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Mütərcim, Bakı, 2012

**İngilis dilində:**

6. Browne Ann. A Practical Guide to Teaching Reading in the Early Years. London: Paul ChapmanPublishing Ltd. 1998, p. 9
7. Carrillo W. Lawrence. Teaching Reading: Ahandbook. New York: St. Martin's Press, Inc. 1976, P. 19
8. Cook V. J. Second Language Learning andTeaching (3rd ed.)London: Hodder Arnold. 2001, PP. 69,89
9. Drummond, Don, Edna Wignell (ed) (1979) Reading: A Source Book. London: HeinemannEducational Books. 1979, p. 2
10. Duke N.K. The scarcity of informational texts in first grade (Report No. 1-007). Ann Arbor, MI: University of Michigan, School of Education, Center for the Improvement of Early Reading Achievement. 1999
11. Duke N.K., & Pearson P.D. Effective practices for developing reading comprehension. In A.E. Farstrup & S.J. Samuels (Eds.), What research has to say

about reading instruction (3rd ed., pp. 205-242). Newark, DE: International Reading Association. 2002

**12.** Elley W.B. The IEA study of reading literacy: Achievement and instruction in thirty-two school systems. Oxford, England: Elsevier Science Ltd.1994

**13.** Elley W.B. How in the world do students read? The Hague, Netherlands: IEA. 1992

**14.** Green P.J., Herget D., and Rosen J. User's Guide for the Progress in International Reading Literacy Study (PIRLS): 2006 Data Files, and Database with United States Specific Variables (NCES 2009-050). National Center for Education Statistics, Institute of Education Sciences, U.S. Department of Education. Washington, DC. 2009

**15.** Hedge Tricia. Teaching and Learning in theClassroom. Oxford: Oxford University Press, 2000, pp196-200

**16.** Mullis I.V.S., Martin M.O., Kennedy A.M., and Flaherty C.L. PIRLS 2001 Encyclopedia: A Reference Guide to Reading Education in the Countries Participating in IEA's Progress in International Reading Literacy Study (PIRLS). Boston College, International Study Center. Chestnut Hill, MA. 2002

**17.** Martin M.O., and Mullis I.V.S. (Eds.) PIRLS 2016 Assessment Framework, 2nd Edition. Boston College, International Study Center. Chestnut Hill, MA. 2015

**18.** Martin M. O., Mullis I. V. S., & Hooper M. (Eds.). Methods and Procedures in PIRLS 2016. Boston College, International Study Center. Chestnut Hill, MA. 2017

**19.** Martin M. O., Mullis I. V. S. PİRLS 2021 Assessment Frameworks. Boston College, International Study Center. 2021

**20.** Mullis I.V.S., Martin M.O., Kennedy A.M., and Flaherty C.L. PIRLS 2001 Encyclopedia: A Reference Guide to Reading Education in the Countries Participating in IEA's Progress in International Reading Literacy Study (PIRLS). Boston College, International Study Center. Chestnut Hill, MA. 2002

**21.**Mullis I.V.S., Martin M.O., Kennedy A.M, and Sainsbury M. PIRLS 2006 Assessment Framework and Specifications, 2nd Edition. Boston College, International Study Center. Chestnut Hill, MA. 2006

**22.**Mullis I.V.S., Martin M.O., and Sainsbury M. PIRLS 2016 Reading Framework. Boston College, International Study Center. 2016

**23.**Newman G. Comprehension strategy gloves. The Reading Teacher, 55(4), 329-332. 2002

**24.**Padron Y.N., Waxman H., Brown A.P., and Powers R.A. Improving classroom ınstruction and students learnings for resilient and non-resilient english language learners. 2000

**25.**Roxanne F. Hudson, Paige C. Pullen, Holly B. Lane, Joseph K. Torgesen. Complex Nature of Reading Fluency: A Multidimensional View. "Reading and Writing Quarterly" journal, 2008.

**26.**Williams J. Strategic processing of text: Improving reading comprehension for students with learning eisabilities (ERIC/OSEP Digest No. E599). Arlington, VA: ERIC Clearinghouse on Disabilities and Gifted Education. 2000

**Rus dilində:**

**27.**Борисова Л.Г. Обучение школъников кулътуре чтения. Журнал "Началъная школа плюс до и после". 2007, №8

**Internet səhifələrində:**

**28.**https://nces.ed.gov/surveys/pirls/faq.asp

**29.**https://www.muallim.edu.az/print.php?id=229

**30.**https://nces.ed.gov/surveys/pirls/overview.asp

**31.**https://timssandpirls.bc.edu/PDF/P06Framework.pdf

**32.**https://www.arti.edu.az/az/page/17-qiymatlandirma

**33.**https://www.muallim.edu.az/news.php?id=15760

**34.**https://www.activities%20in%20pirls.pdf

**35.**https://silo.tips/download/international-surveys-pisa-timss-pirls

**36.** https://ergenekonibrahimsakirilkokulu.meb.k12.tr/meb_iys_dosyalar/34/14/741185/dosyalar/2021_02/09162548_PIRLS_2021_BroYur.pdf

**37.** https://www.researchgate.net/publication/340314209_Reading_comprehension_of_scientific_informative_texts_among_schoolchildren

**38.** https://www.speedreading.pdf

**39.** https://www.oxu-talimi-muallimlar-ucun-vasait.pdf

**40.** http://timssandpirls.bc.edu/pirls2016/international-results/download-center

**41.** http://timssandpirls.bc.edu/pirls2016/international-results/pirls/studentachievement/pirls-achievement-results

**42.** http://timssandpirls.bc.edu/pirls2016/international-results/pirls/performance-at-international-benchmarks/pirls-2016-international-benchmarks/